

# MÜSTƏQİL AZƏRBAYCAN QADINI

# Índependent Azerbaijan Woman

*(Kitab Azərbaycan Qadınlar Cəmiyyətinin 90 illik yubileyinə hədiyyə olaraq nəşr olunur).*

*(The book is published being qift to 90 years anniversary of the azerbaijan Women council)*

## I hìssə

## I part

"Bayramoğlu"
BAKI-2009

Naşir: **Səbuhi Aslan**
Prosoust: **Sabuhi Aslan**

Rəyçilər: **Zenfira Verdiyeva**
*Professor; Azərbaycan Qadınlar Cəmiyyətinin sədri AMEA - nın müxbir üzvü;*
**Məhbubə Vəliyeva**
*Professor; Azərbaycan Respublikasının əməkdar müəllimi, əczaçılıq elmləri doktoru*

**References given by;**
***Zenfira Verdiyeva Professor; The chief of Azervaijan Women Socie***
***Correspondent member of ANSA***
**Mahbuba valiyeva**
***Professor; An Honor Teachec of the Azerbaiyan Republik,***
***doctor of the pharmacological sciences***

Redaktor: **Mahirə Qarayeva**
*"Ana və Uşaq" İctimai Birliyinin sədri*
Editor: **Mahirə Qarayeva**
*The chief of "Mothec and child" Sosial Unit*

**Tərcüməçilər:**
*Abdulova Zümrüd, Ağayeva Raila, Bənövşə Elçin qızı*

**Translators;**
***Abdulova Zumrud, Agayeva Raila, Banovcha Elchin gizı***

"Müstəqil Azərbaycan Qadını" Bakı-2009. 230 səh.

B E4802080140
370-2009

**©"Bayramoğlu" nəşriyyatı-2009**



***"Cənnət anaların ayaqları altındadır"***
*(Məhəmməd Peyğəmbər s.ə.s)*



*Müdrik Peyğəmbərimizin sözlərinə rəğmən, analarımızın müqəddəsliyi, zamanın sınağından keçib. Azərbaycan qadınlarının mərdlik və mübarizə yolları, əsrlərdən, qərinələrdən boylanaraq, nəsillərdən - nəsillərə ötürülüb. Qadın - Ana! Düşmənə qarşı döyüşlərdə ərləri və oğulları ilə vuruşan igid əsgər!*

*Azərbaycanımızın fəxri xanımı, Heydər Əliyev fondunun Prezidenti, YUNESKO - nun və İSESKO - nun xoşməramlı səfiri, millət vəkili, vətənpərvər alim xanım, Mehriban Əliyevanın da həyat yolları, möhtərəm Prezidentimiz İlham Əliyevlə çiyin - çiyinə ona dəstək olması, xalqimiz, millətimiz üçün təqdirəlayiq xidmətləri, daim sevilir, qiymətləndirilir. Onun Azərbaycan Respublikasının ictimai - siyasi və mədəni həyatında - təhsil sisteminin inkişafında, milli - mədəni irsimizin qorunub saxlanmasında və dünyada təbliğinə, idman sahəsində, genişmiqyaslı xeyriyyəçilik və digər sahələrdə, gördüyü əvəzolunmaz işlər, Azərbaycan tarixində silinməz izlər salır. Ona verilən ən ali mükafat, Ulu Öndərimizin adını daşıyan Heydər Əliyev mükafatına görə onu təbrik edir, ona bütün müqəddəs anaların, ziyalı alim xanımlarımızın xeyir - duvasını çatdırır, onunla qürur duyduğumuzu söyləyirik.*

******

*"The paradise is under the Mothers Feet"*
*(Propet Muhammad)*

Despite the words of our wise Prophet, the holiness of our mothers has passed from test of time. The ways of manliness and fight of Azerbaijan women looking out centuries and years are passing from generation to generation. Woman - Mother is a brave soldier fighting together their husbands and sons against the enemy on the battles!

Honorable lady of our Azerbaijan the President of Heydar Aliyev's found good-will ambassador of UNESCO and ISESCO, the deputy of parliament, patriotic scientist lady, Mehriban Aliyeva's life ways being supporter to our honorable president Ilham Aliyev, shoulder by shoulder her suitable services for our people and nation are always loved and marked. Mehriban khanum's irreplaceable work is doing on sport area, on wide scale charity and other places on social - political and cultural life, improving educational system, on guarding and keeping of our national cultural heritage propagating in the world, is making indelible traces in the Azerbaijan history. We congratulate her for the highest prize giving her Heydar Aliyev's award carrying the name of our Great leader, we are supplying blessings of our intellectual scientist ladies and all holy mothers and we want to say that we are feeling pride with her.

*"Qadın hüququ müqəddəsdir. Ona görə də onların haqlı hüququnu özlgrinə tapşırın"*

<u>*Məhəmmgd Peyğəmbər*</u>

Tarix şəxsiyyətlər yetişdiri. 1920- cı ildə Mərkəzi Komitə yanında Qadınlar şurası kimi fəaliyyət göstərən təşkilata məhz bu cür şəxsiyyət xanımlar - Ayna Sultanova, Hüriyyə Əliyeva, Səidə İmanzadə, Hökumə Sultanova, Firəngiz Məhərrəmova, Əzizə Cəfərzadə və bir çox tanınmış qadınlar -görkəmli ziyalı və ictimai xadimlər rəhbərlik etmişlər.Onların fəaliyyəti dövründə Vətənin, xalqın taleyi, Azərbaycan qadınlarının problemləri həmişə öndə durmuş və bu təşkilatın ən fəal və mübariz xanımları daim ölkənin ictimai və siyasi həyatında vətən və xalq naminə öz əməli fəaliyyətləri ilə mühüm rol oynamışlar. Əsası 1990- cı ildə qoyulan, 1991 ci ildə Ədliyyə Nazirliyindən qeydiyyatdan keçərək ilk Qeyri Hökumət Təşkilatı kimi formalaşan Azərbaycan Qadınlar Cəmiyyətinin də əsas iş prinsipi, ideya istiqaməti, həmin dövrdəki şəxsiyyət xanımların mərdlik dolu mübarizə yollarını davam etdirmək olub. Qəlbində vətən məhəbbətini daşıyan, cəmiyyətimizin hər bir üzvü bu yolu əzmlə davam etdirir.

1990 ci ildən sonra özünün ikinci dövrünü yaşayan Azərbaycan Qadınlar Cəmiyyətinin bu illər ərzində gördükləri işlər saya gəlməz. 20 Yanvar faciəsi, 60 min şikəstlər ordusu,Qarabağ müharibəsinin başlanması, 1 milyon 300 minə yaxın məcburi qaçqın və köçkünlər, 20% torpaqların işğalı, ölkədəki iqtisadi çətinliklər cəmiyyətimizin də qarşısında bir çox vəzifələr qoymuşdu. Bu illər ərzində xanımlarımızın respublikanın ictimai - siyasi və mədəni həyatındakı fəallığı daha da artmışdır. Ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımız da bu işə cəlb olunmuşlar. Müharibə illərində qadınlarımız cəbhə bölgələrinə səfər edir, əsgərlərimizə maddi və mədəni köməklik göstərirdilər. Tənha qocaları, kimsəsiz uşaqları, qaçqın və şəhid ailələrini, aztəminatlı ailələri cəmiyyətin üzvləri himayəyə götürür, xeyriyyəçilik işlərini davam etdirirdilər. Cəmiyyətimiz hazırkı dövrdə də bu ənənəyə sadiqdirlər. Dünyanın 64 ölkəsi ilə əlaqə yaradan Qadınlar Cəmiyyəti konfranslarda, simpoziumlarda yüksək tribunalardan Azərbaycanın haqq səsini dünyaya yayırlar. Mili Məclisə seçki kompaniyasında, Prezident seçkilərində də qadınlarımız fəalliq nümayiş etdirirlər. Azərbaycan Qadınlar Cəmiyyəti 1995 ci ildə Fransada keçirilən Ümumdünya Qadınlar Federasiyası konfransının üzvüdür. Ümumdünya müsəlman qadınlarının Sudanda keçirilən konfransının və İranda keçirilən Müsəlman Qadınları konqresinin üzvüdür. Cəmiyyətimiz "Əsrin Qadını", "Əsrin Səfiri kimi fəxri adlara layiq görülmüşdür. Azərbaycan Qadınlar Cəmiyyəti özünün lider qadınları ilə fəxr edir. Respublikamızda fəaliyyətdə olan, bütün qeyrətli və layiqli xanımlarımız, savadlı mütəxəsislərimiz, alim və ziyalılarımızla fəxr etməmək olmaz. Azərbaycanın birinci xanımı, millət vəkilimiz Mehriban xanım Əliyevanın apardığı məqsəd yönlü bütün - incəsənət, idman və digər sahələrdəki təqdirəlayiq işləri xalqımızın üreyincədir.

Mirvari Xəlilzadənin qələmə aldığı, "Müstəqil Azərbaycan Qadını" kitabında da məqsəd qadınlarımızın şərəfli ömr yollarını, vətənimiz, xalqımız üçün gördükləri işləri, elm sahəsindəki nəaliyyətlərini xalqa çatdırmaqdır. Azərbaycan Qadınlar Cəmiyyəti hər bir qeyrətli və mübariz, vətənpərvər Azərbaycan xanımını bağrına basır, onları Prezidentimiz İlham Əliyev, Azərbaycanın birinci xanımı YUNESKO- nun xoşməramlı səfiri, fəxrimiz Mehriban Əliyeva başda olmaqla ölkəmizin inkişaf etməsi, çiçəklənməsi naminə fədakarliqlara səsləyir. Qoy bu müqəddəs yolda Tanrı bizə yar olsun!

*Azərbaycan Qadınlar Cəmiyyətinin sədri*
*AMEA - nın müxbir üzvü*
*Professor Zenfira Verdiyeva.*





*"Woman is sacred. That is why charge their true rights to themselves"*

<u>*(Prophet Muhammad)*</u>

The history grows historical personality. It was established such as organization which is acting as a women society at the Central Committee from 1920 year and the well-known intellectual ladies and social leaders - lots of famous women of Azerbaijan, Ayna Sultanova, Huriyye Aliyeva, Seide Imanzade, Hokume Sulltanova, Firengiz Meherremova, Ezize Ceferzade and others guided this organization. During their activity years the people's fate and the problems of Azerbaijan women have always got up in front and the active and fighting ladies of this organization have played the main role with their real activities for people and the government in our social and political life of our country. Established in 1990 year, and registering by Justice Ministry in 1991 year as the first illegal, Government Organization forming as Azerbaijan women society - the main work principle of it and idea direction was been to continue the fighting ways full of manliness of historical person ladies of that time. Each member of our society carrying out country love in their soul continues this way resolvedly.

After 1990 year leaving their second period the works of Azerbaijan women society having done during these years are not possible to count. 20th January tragedy, 60 thousand cripple army, the beginning Qarabakh war, about 1 million, 300 thousand Obligatory refugee and migrant, occupation of 20 % of our lands the economic difficulties of our country have put a lot of duties in front of our society. During these years the activity of our ladies have increase more on the social - political and cultural life of the ladies of our Republic. Our fellow-countrymen living in the edge from country boundaries have been involved this work too. During the war years our women were visiting front regions and were showing cultural and material help to our soldier. The members of the Women Society are taking hint less appointed Refugee and martyr's families, lonely olds and the children lost their parents, and they are continuing charity work. At present time our society are faithful this tradition too. Connecting 64 countries of the world the Women Society are spreading the Azerbaijan right voice to the world in conferences, in symposiums from higher tribunes. Our women are demonstrating the activity in the election company to Milli Mejlis and president election. Azerbaijan women society is a member of the Universal Women Federation conferences which is holding in France in 1995 year. The society is also a member of Muslim Women congress holding in Iran and the Universal Muslim Women's conference in Sudan. Our society was honored with honorable names as "The Century's Women" and "The Century's Ambassadors". Azerbaijan Women Society is proud of her leader women. It is not possible to be proud of our scientist and intellectual women literate specialist and all self-esteem and worthy ladies who are working in our republic. Suitable estimation work and expedient action on the entire sphere - in art, sport and other places which is done by the first lady of the Azerbaijan, deputy of parliament Mehriban khanum Aliyeva is content by our people.

The purpose of the book "Independent Azerbaijan Woman" written by Mirvari khanum Khalilzade is carries out to the people the success of scientific research, the works done by Azerbaijan women for our country and people and their glorious life ways of them. The Azerbaijan Women Society calls each patriotic, fighting and brave Azerbaijan lady for progressing and prosperity of our republic with being in the head of our president Ilham Eliyev and the first Azerbaijan lady, Goodwill Ombassador of UNESCO our honorary Mehriban Aliyeva. All we are pushing liver them and wish them great success. Let the great God help us in this sacred way!

***The chief of Azerbaijan Women Society,***
***Correspondent member of ANSA***
*Professor Zemfira Verdiyeva*



Verdiyeva Zemfira

O kəs xöşbəxtdir ki, əməlləri ilə neçə - neçə insanın qəlbində özünə məhəbbət və dərin hörmət qazanır. Öz müdrikliyi, özünümıxsus sağlam əqidəsi, bilik və bacarığı, liderliyi ilə minlərlə insanı ətrafında birləşdirir və onlara Ulu Tanrımızın da yüksək qiymətləndirdiyi xeyirxahlığı və xeyriyyəçiliyi təlqin edir.

Yüksək potensial enerjisiyə malik, Azərbaycan xalqı üçün yüksək və əvəzsiz xidmətləri olan, xalqımızın fəxri xanımı, elm xadimi Azərbaycan Qadınlar Cəmiyyətinin sədri Zemfira Nadir qızı Verdiyeva 19 noyabr 1935 - ci ildə Gürcüstan Respublikasının Tiflis şəhərində anadan olmuşdur. Orta Təhsilini Bakıdakı 189 saylı (rus dilli ) məktəbdə almış, Azərbaycan Pedoqoji Xarici Dillər İnstitutunun "İngilis - fransız dili" fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə təhsil aldığı institutda laborant kimi başlamışdır. Sonralar pedoqoji təcrübə müdiri, müəllim, kafedra müdiri, 1973 - cü ildən 1995 - ci ilə qədər rektor vəzifələrində çalışmışdır. 1965 - ci ildə namizədlik dissertasiyası müdafiə edən Z. Verdiyeva, 1972 - ci ildə professor adına layiq görülmüşdür. O, Azərbaycan üzrə ilk xarici dil mütəxəsisi, eyni zanada AMEA - nın müxbir üzvüdür. Z. Verdiyeva Azərbaycanda və xarici ölkələrdə nəşr olunan 200 - ə yaxın kitab, monoqrafiya, dərslik və dərs vəsaitlərinin müəllifidir. Respublikamızda və ondan kənarlarda Z. Verdiyevanın fəaliyyəti haqqında 372, 1955 - ci ildən isə bir sıra xarici ölkələrdə bu günə qədər müxtəlif səpkili (elmi, ictimai, pedoqoji) 1076 məqaləsi dərc olunmuşdur. Bir alim kimi 30 xarici ölkədə mühazirə oxumağa dəvət olunmuşdur.

1990 - 1995 - ci illər ərzində Z. Verdiyeva Milli Məclisin deputatı olmuşdur. Dünyanın 64 xarici ölkəsinin Qadın Cəmiyyətləri ilə işgüzar əlaqələr yaradan Z. Verdiyeva əməli fəaliyyəti illərində doğma Azərbaycanımız üçün bir çox təqdirəlayiq xidmətləri olmuş, vətənimizin ağrılı - acılı günlərində bir çox qeyrətli elm xadimləri kimi xalqımıza arxa - dayaq durmuş, analarımızın haqq səsini bütün dünyaya bəyan etməkdən çəkinməmiş, səfər etdiyi xarici ölkələrdə Azərbaycanı böyük bir fəxrlə, layiqincə təmsil etmişdir.

Zemfira Verdiyeva 1996 - cı ildə İngiltərənin kraliçası Yelizavetanın himayədarlıq etdiyi cəmiyyətin fəxri üzvü, 1998 - 99 - cu illərdə İngiltərənin Kembric Universitetində "İlin qadını", 2000 - ci ildə isə "Əsrin qadını" adına layiq görülmüşdür. Azərbaycan üçün yüksək xidmətlərinə görə Z. Nadir qızı Azərbaycan SSR Ali Sovetinin fəxri - fərmanı, "Şərəf nişanı" və "Şöhrət"ordenləri ilə təltif olunmuş, dünyada ictimai xidmətlərinə görə isə ABŞ, İngiltərə, Kanada, Cənubi Kareya və digər ölkələrdə 22 mükafata layiq görülmüşdür. "Bütün Dünyada Sülh" Federasiyası tərəfindən səfir diplomları ilə mükafatlandırılmışdır. Zemfira xanımın tərcümeyi - halı 1998 - ci ildə Nyu - Yorkda (ABŞ) Beynəlxalq Tərcümeyi - hal, "Soraq" kitabçasına daxil edilmişdir. Xarici Dillər üzrə ilk qadın elmlər doktoru kimi Azərbaycan Ensiklopediyasına daxil edilmişdir. Z. Verdiyevanın həyat və yaradıcılığı haqqında "Azərbaycanfilm" Kinostudiyasında film çəkilmişdir. Xalqımızın fəxri xanımlarından olan Z. Verdiyeva ailəlidir. İki qız övladı var.





That one is happy who earned deep respect and love to oneself in number of people's soul with their actions. And joined around herself thousands persons with her wisdom, special healthy thoughts, knowledge, ability and leader. And those people suggested them charity and well -wishers marked by great God highly.

Having high potential energy, being unexampled and high services for Azerbaijan people honor lady of our Republic, scientist, the chief of Azerbaijan Women Society Zemifra Nadir qizi Verdiyeva was born in Tbilisi, Republic Georgian on 19th November 1935 year. She got her secondary education at school number 189 (Russian language) and graduated from Azerbaijan pedagogical Foreign Language University "English - French language faculty". She began her first work activity as a assistant laboratory at her studying institute. Then she was a chief a pedagogical experiment, teacher, chief of department, but from 1973 till 1995 year Zemfira khanum try on the rector post. In 1965 year defending candidate dissertation Zemfira khanum Verdiyeva was regarded professor name in 1972 year. She is the first foreign language specialist according Azerbaijan, at the same time she is a correspondent member of ANSA. Zemfira khanum is an author of about 200 books, monographs, textbook and school manuals which are published in Azerbaijan and foreign countries. There are published 372 articles about Zemfira Verdiyeva's activity in our Republic and away it, and from 1955 year till today there are published 1076 articles in different themes (scientific, social and pedagogical) in some foreign countries. As a scientist Zemfira khanum was invited to 34 foreign countries to report lectures.

During 1990 - 1995 years Zemfira khanum Verdiiyeva was a deputy of Milli Mejilis. Creating efficient connection with Women Societies of 64 foreign countries in the world Zemfira khanumVerdiyeva did lot of valuable services for our native Azerbaijan during her activity years. And she was supported our people in difficult days of our country as a many self-esteemed scientist. She didn't avoid supporting the right voice of our mothers the entire world. And Zemfira khanum represented Azerbaijan in her visited foreign countries with great honor.

In 1996 year Zemfira Verdiyeva was an honorable member of the society which leading by the Queen of England Elizabeth. In 1998 - 1999 years she was awarded the name of "A Woman of Year" in Cambridge university of England, in 2000 year "A Woman of a Century". For her high services for Azerbaijan Zemfira Nadir qizi was awarded with honor diploma of Azerbaijan SSR High Soviet, "Glory Emblem" and "Fame Emblem". But for her social services in the world she was awarded 22 prizes in USA, England, Canada, South Korea, and other countries. She was prized with ambassador diploma by "Peace to Whole World" Federation. Zemfira khanum's autobiography was entered to the International autobiography "Information" book in New - York (USA) in 1998 year. As the first woman scientist doctor for foreign language was entered Azerbaijan encyclopedia. The film was produced about Zemfira Verdiyeva's life and creative activity "Azerbaijan Film" studio. One of the honor ladies of our people Zemfira khanum is married and has 2 daughters.



Bəşəriyyət neçə - neçə görkəmli şəxsiyyət xanımların xidmətlərini tarixin qədim səlnaməsində əbədi həkk edib. Onların mərdliyi və şücaəti zaman - zaman öz heyrətamizliyi ilə seçilib. Azərbaycan qadınlarının qəhrəmanlığı barədə Yunan şairi Esxil belə yazırdı:"-Midiyada və Qafqazda yaşayan qızlar qorxmazdırlar." Hələ qədimlərdə eramızdan qat - qat əvvəl öz dərin düşüncəsi, siyasəti ilə İran şahı Kirin Azərbaycana qarşı hücumunun qarşısını alan, qeyrət rəmzi kimi tanınan Azərbaycan hökmdarı Tomiris, onun mərdlik və şücaəti, eramızdan əvvəl 65 ci ildə Roma sərkərdəsi Pompeyin Azərbaycana təcavüzkar yürüşü zamanı, kişilərlə bərabər qadınlarımızın igidliyi Azərbaycan qadınlarının qəhrəmanlığının bariz nümunələrindəndir. Ərəb istilasına qarşı xalq qəhrəmanı Babəkin başçılığı altında döyüşlərdə qadınlarımız da mərdliklə vuruşmuşdular. XII- XIII əsrlərdə yaşamış bir çox Azərbaycan qadının adı qəhrəmanlıq rəmzi kimi tarixə həkk olunmuşdur. Qızıl Arslanın arvadı Qətibə xanım, Atabəylər dövlətinin axırıncı xanı Özbəyin arvadı Mehrican xanım, dövrünün görkəmli siyasətçisi və dövlət xadimi olmuşdur. 1421ci ildə Təbriz yaxınlığındakı Aləşkert çölündə Sultan Şahroxun qoşunlarına qarşı vuruşlarda Qaraqoyunlu dövlətinin başçısı Qara Yusifin oğlu Cahanşahla yanaşı mərd və qorxmaz arvadı Əliykə Könüldaş da böyük şücaətlər göstərmişdi. Şərq aləmində görkəmli diplomat Ağqoyunlu Uzun Həsənin anası Sara xatun siyasət və dövlət işlərində uzaqgörənliyi ilə tanınmışdı. Şah İsmayıl Xətainin qızı Mahinbanu dövrünün xeyirxah və sülhsevər bir xanımı olmuşdu. XVIII əsrin ortalarında yaşamış Qubalı Fətəli xanın həyat yoldaşı Tuti Bikə, onun mərdliyi, Fətəli xanla dövləti birlikdə idarə etməsi və digər Azərbaycanın tarixən yaşamış şəxsiyyət xanımları haqqında məlumatlar, onların mərdlik və mübarizə yollarından xəbər vermirmi?

Müstəqillik əldə edəndən bəri müasir dövrümüzdə Azərbaycan qadınlarının müstəqil, azad bir xanım kimi fəaliyyəti, ictimai və siyasi həyatda nəaliyyətləri, cəmiyyət və xalq üçün xidmətləri daha böyükdür və bütün bunlar M. Xəlilzadənin "Müstəqil Azərbaycan Qadını" kitabında daha qabarıq şəkildə özünü biruzə verir. Xanımlarımızın fəallığı, vətənpərvərliyi geniş şəkildə öz əksini tapır. Kitabda bizə məlum olan bir çox xanımlar onların xidmətləri, həyat və fəaliyyətləri işıqlandırılmışdır. Qarşıdan Azərbaycan Qadınlar Cəmiyyətinin 90 illik yubileyi yaxınlaşır. Mən bütün Azərbaycan xanımlarını, onlara həmişə dəstək olan Azərbaycan Qadınlar Cəmiyyətinin üzvlərini və şəxsən cəmiyyətin sədri, fəxri xanımımız professor Zemfira Verdiyevanı AQC- nin 90 illiyi münasibəti ilə ürəkdən təbrik edir, uğurlar diləyir və bu kitabın bütün xanımlarımızın stolüstü kitabı olmasını arzulayıram.

*Azərbaycan Respublikasının*
*Əməkdar müəllimi, əczaçılıq*
*elmləri doktoru, professor*
***Məhbubə Vəliyeva***





Mankind has scraped number of famous historical person ladies' services on the oldest annals of history eternally. Their courage and manliness has distinguished with its fascinating time by time. The Greek poet Eskhile has written about Azerbaijan women's heroism so: "- The girls living in Midia and in Caucasus are more courageous". Many centuries ago of our era, even ancient time Azerbaijan lady sovereign Tomiris - knowing as a symbol of self-esteem, stopping the attacks of Iran shah Kirr to Azerbaijan by the help of her great politic and deep thought, her manliness and courage, our women's heroism at the same time by men during aggressive march of Rome knight to Azerbaijan in 65 year before our era is a real sample of Azerbaijan women's heroism. Our women were fighting bravely on the battles under the leading national hero Babek against Arabian conquest. The names of a lot of Azerbaijan women lived in XII - XIII centuries have scraped to history as a symbol of heroism. The wife of Gold Arslan Qetibe khanum, the wife of the last khan of Atebekler state Ozbey, Mehrican khanum were been well-known politicians and state women of their time. In 1421 year adjoining the leader of Qaraqoyunlu state Qara Yusif's son Cahan shah, the brave and manliness wife Elike Konuldash had fought with great couragely on the battle against the Sultan shah Rokh's armies in the Aleshkert field near Tabriz . The great diplomat around the east, Agqoyunlu Uzun Hesen's mother Sara khatun was known with her far seeing in politics and in state work. Shah Ismail Khetai's daughter Mahin banu was been a self-wisher and peace loving lady of her time. Lived in the middle of XVIII century Qubali Pheteli khan's wife Tuti Bike her manliness, to role the government together her husband Pheteli khan and other living historical person ladies of Azerbaijan, we know a lot of information. And this information gives us their manliness and fighting ways doesn't it?

Since getting independence till present time Azerbaijan women's services for our people and society, their achievement on social and political life and their activity as a free and modern ladies of Azerbaijan ladies are greater. And all these are reflected in more salient form on the book "Independent Azerbaijan's Woman" written by M. Khelilzade. This book deals with our ladies activity and about their patriotism widely. There are lightened the work life, activity, and services of many ladies who will know in this book. Recently the 90 years anniversary of Azerbaijan Women Society is coming. I congratulate the members of Azerbaijan Women Society and personally the leader of society, honor lady, Professor Zemfira Verdiyeva who always helps the whole Azerbaijan lady, I wish good luck on the occasion of 90 years anniversary in establishing of A.W.S. I also wish all the ladies that let this book be their handbook.

***An Honor Teacher of the Azerbaiyan Republik,***
***doktor of the pharmacological sciences,***
***professor Mehbube Valiyeva***

***Elm əməlsiz məhv olar, əməl isə elmsiz mümkün deyildir.***
***Deməli, elm başlanğıc, əməl son, elm səbəb, əməl nəticədir.***

***(N.Tusi)***



***Science will perish without action. But the action is not possible without science.***
***So the science is beginning the action is the end, the science is the cause and the action is the result.***

***(N.Tusi)***







*İn 1919 as a medical faculty, it was firstly established attached to Baku State University by the decision of Azerbaijan Democratic Republic.*
*İn 1930 the medical department attached to Baku State University was named medical Institute consisting of independent 2 faculties (treatment - prophylactic and sanitary - hygienic) by the decision number 287 99 of Azerbaijan USSR's Nation Commissars Soviet.*



*1919 - cu ildə ilk dəfə tibb fakultəsi kimi Azərbaycan Demokratik Respublikası parlamentinin qərarına əsasən Bakı Dövlət Universitetinin nəzdində yaradılmışdır.*
*1930- cu ildə Azərbaycan SSRİ - nin Xalq Komissarları Sovetinin 28799 saylı qərarına əsasən Bakı Dövlət Universitetinin nəzdindəki tibb fakultəsi müstəqil 2 fakultədən ibarət (müalicə - profilaktika və sanitar - gigiyena) Tibb İnstitutu adlandırılmışdır.*



*İn 1957 the institute was given the well - known social person N. Nerimanov's name according the decree of Azerbaijan Republic High Soviet.*
*İn 1991 year AMI was given the University status by the decision of Azerbaijan USSR Ministries Soviet and since 2000 year it has been acting by the name Azerbaijan State Medical University.*

*1957-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin fərmanına əsasən institutа tanınmış ictimai xadim N. Nərimanovun adı verilmişdir.*
*1991 - ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə ATİ - yə Universitet statusu verilmiş və 2000-ci ildən Azərbaycan Dövlət Tibb Universiteti adı ilə fəaliyyət göstərir.*





Namazova Adilə

Tale alın yazımız, ömür Ulu Tanrımızın bizə verdiyi sınaq müddətidir.

Ömrün dolaylarında neçə - neçə çətinliklərə fədakarcasına sinə gərən, öz dəyərli xidmətləri ilə Azərbaycan Səhiyyəsinə qiymətli töhfələr verən, vətən övladlarının sağlamlığı naminə, müqəddəs həkim qəlbini yanar məşələ çevirən, xalqımızın fəxri xanımı, elm xadimi AMEA - nın həqiqi üzvü, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, Dövlət Mükafatı Laureatı, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü, Azərbaycan Səhiyyə Nazirliyi "Uşaq Həkimləri Cəmiyyəti"nin sədri, Akademik Topçubaşov mükafatı qalibi, Şöhrət ordenli, Azərbaycan Tibb Universitetinin "Uşaq xəstəlikləri" kafedrasının müdiri, ictimai xadim, mahir həkim, istedadlı pedaqoq, tibb elmləri doktoru, professor Adilə Namazova 1926 - cı ildə Qarabağın Seyidli kəndində anadan olmuşdur. Orta təhsilini Ağdam şəhər 1 saylı məktəbində almış, Azərbaycan Tibb İnstitutunun "Pediatriya" fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1949 - cu ildə Ağdam şəhər Uşaq Məsləhətxanasının müdiri kimi başlamış, 1954 - 1957 - ci illər Moskva Həkimləri Təkmilləşdirmə Mərkəzi İnstitutunun aspirantı olmuş, sonralar N. Nərimanov adına ADTİ - nun "Uşaq xəstəlikləri" kafedrasının assistenti vəzifəsində çalışmış, Moskva şəhərində tibb elmləri namizədlik dissertasiyası müdafiə etmiş, Moskva şəhər SSRİ Tibb Elmləri Akademiyasının doktorantı olmuş, doktorluq dissertasiyası müdafiə etmişdir. Adilə Namazova 1966 - 1969 - cu illərdə N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun "Müalicə Profilaktika" fakultəsinin "Uşaq xəstəlikləri" kafedrasının müdiri seçilmiş, 1966 - cı ildə professor adını almışdır. 1969 - cu ildə institutun "Hospital pediatriya" kafedrasının müdiri təyin olunan Adilə xanım, 1970 - ci ildə "Lenin 100 illik yubileyi" medalı ilə təltif olunmuş, 1971 - ci ildə SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü seçilmişdir. Azərbaycan Səhiyyə Nazirliyi Akademik Topçubaşov Mühazirələri Komissiyasının sədri vəzifəsində çalışan Adilə Namazova SSRİ xalq deputatı, SSRİ Millətlər Sovetinin üzvü, SSRİ Ali Sovetinin üzvü, Azərbaycan və Orta Asiya Respublikası Qadınlar Komitəsinin sədri kimi məsul vəzifələrdə işləmiş, qadın və uşaqların problemlərinin həllində mühüm rol oynamışdır. Uzun illər tibb sahəsində çalışan, bütünlüklə ömrünü sevdiyi peşəsinə, elmə həsr edən A. Namazova elmi tədqiqatlarının tətbiqi nəticəsində ürək çatışmamazlığından əziyyət çəkən neçə - neçə körpəyə sağlamlıq bəxş etmişdir. Beynəlxalq Forumlarda Azərbaycanı layiqincə təmsil edən, vətənpərvər elm xadimi kimi onun Azərbaycan Tibb Universitetində də yüksək ixtisaslı kadrların yetişdirilməsində də böyük əməyi olmuşdur. O, 40 - dan çox elmlər namizədi və elmlər doktoru hazırlamışdır. 320- dən çox elmi əsərlərin və Azərbaycanda "İlk uşaq xəstəlikləri" dərsliyinin, 20 - dən çox monoqrafiyanın və dərs vəsaitinin müəllifidir. Adilə Namazova Dövlət İxtira komitəsi tərəfindən 5 vəsiqə almışdır.





Fate is our head writing, but the life is trail period given by Great God to us. Standing up staunchly number of difficulties on her life ways selflessness, giving remarkable scientific gifts to Azerbaijan Medicine her valuable services, for health of motherland son, turning her holy doctor soul to burning touch, the favorable lady of our people, honored scientist, a real member of ANSA, correspondent member of Science Academy of USSR, the Laureate of State Prize, a member of Presidium of High Attestation Commotion near Azerbaijan Republic President, the chief "Child Doctors' Society" of Azerbaijan Medical Ministry, the winner of academician Topchubashov prize, Reputation Order, the chairman of "Child Illnesses" department of Azerbaijan Medical University, the public woman, skilful doctor, talented pedagogic, medical sciences doctor, professor Adila Namazova was born in Seyidli village of Garabakg in 1926 year. She got her secondary education school number 1 in Aghdam town and graduated from "Pediatric" faculty of Azerbaijan Medical Institute. In 1949 year Adila khanum began her first work activity as a chief of Child Consulting room in Aghdam town. During 1954 - 1957 years she was beet an aspirant of Moscow doctors Central Training Institute, and then she tried on the post of assistant "Child Illnesses" department of Azerbaijan State Medical Institute named after Neriman Nerimanov. She defended medical sciences candidate dissertation in Moscow city, she also was been a person working for doctor's degree in USSR medical Science Academy in Moscow and she has defended doctor's dissertation. During 1966 -1969 years Adila khanum was chosen a chief to the "Child Illnesses" department of "Treatment Prophylactic" faculty of Azerbaijan State Medical Institute named after Neriman Nerimanov, and in 1966 year she has got professor name. In 1969 year Adila khanum was appointed a chief "Hospital Pediatric" department of Institute, in 1970 year she was awarded with the medal "Lenin's 100 years Anniversary", in 1971 year she was chosen a correspondent member of USSR medical scientist academy. Trying on the post of the chief Azerbaijan Medical ministry academician Topchubashov's Lectures Commission Adila Namazova was been a nation deputy of USSR, a member of Nation Soviet USSR, she was tried as a chairman of Azerbaijan and middle Asia Republic Women Committee and other responsible post, and she was playing great role solving the problem of women and children, leap years trying in the medicine area, devoting her whole life to her favorable profession, science, A.Namazova has endowed heath to lots of baby who suffering from heart shortage in the result of applying scientific investigations. Representing Azerbaijan in International Forums decently, as a patriot scientist, Adila khanum has been great labor in bringing up high skillful cadres in Azerbaijan Medical University too. She has trained more than 40 candidate sciences and doctor sciences. And she is an authoress more than 320 science articles, and the textbook of "First Child Illnesses" in Azerbaijan, more than 20 monographs and school supplies. Adila Namazova had got 5 certificates by State Invention committee.



*Şəmsəddinskaya Naziyə*

Dünyanın ən ali varlığı olan insan, yarandığı gündən, taleyin ağrı - acıları, min - bir sınağı ilə üz - üzə qalır. Ömrün daşkəsəkli yollarında əziyyətlərlə qarşılaşır. Sanki Ulu Tanrı özü sınağa çəkir insanı. Onun aliliyini, mətnliyini yoxlamaq, lap son anda isə, pillə - pillə ucaltmaq, mükafatlandırmaq üçün. Azərbaycan elminin inkişafında böyük xidmətləri olan keşməkeşli tale yollarının mətn yolçusu, xalqımızın fəxri xanımı professor Naziyə Musa qızı Şəmsəddinskaya da məhz Tanrının sınağa çəkib, pillə - pillə ucaltdığı şəxsiyyətlərdəndir. Naziyə Şəmsəddinskaya 1926 cı ildə Bakı şəhərində represiya qurbanı, dövrün görkəmli şəxsiyyətləri olan tanınmış ziyalı ailəsində anadan olmuşdur. Uşaqlığı II dünya müharibəsinə düşən Naziyə xanım, ilk əmək fəaliyyətinə 14 yaşında ikən toxuculuq fabrikində tabelçi - şagird kimi başlamışdır. 1943 cü ildə I nümunə məktəbini "əla" qiymətlərlə başa vuran "Xalq düşməni"nin qızı kimi ali məktəbə sənədləri götürülməyən Naziyə xanım, yalnız bir ildən sonra SSRİ Ali məktəblər üzrə komitənin icazəsi ilə qəbul imtahanları vermədən Azərbaycan Tibb İnstitunun müalicə - profilaktika fakultəsinə qəbul edilmişdir. Oxuduğu illərdə fəal ictimiyyətçi kimi tanınan, lakin bir çox haqsızlıqlarla qarşılaşan N. Şəmsəddinskaya heç vaxt ruhdan düşməmişdir. İnstitutu bitirdikdən sonra 5 il Naxçıvan MSSR- in Ordubad şəhərində mama - qinekoloq kimi fəaliyyət göstərmişdir. 1955 ci ildə N.K. Krupskaya adına 2 saylı Kliniki Doğum Evində ordinator mama- qinekoloq kimi çalışan Naziyə xanım, 1957 ci ildən etibarən, II mamalıq - qinekologoya kafedrasında aspirant, asistent, dosent, professor, kafedra müdiri işləmiş, 1962 ci ildə namizədlik dissertasiyası, 1973 cü ildə isə "Uşaqlıq və onun artımlarının anatomik və funksional vəziyyətinin öyrənilməsində çanaq arterioqrafiyası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1970 ci ildən 1993 cü ilə, 1993 cü və 1998 ci ildən 2003 cü ilə qədər II mama -qinekologiya kafedrasına rəhbərlik edən N. Şəmsəddinskaya müntəzəm olaraq elmi tədqiqatlarını davam etdirmiş, 200 - ə qədər elmi işi 1 monoqrafiyası nəşr edilmişdir. Onun təşəbbüsü ilə keçmiş sovet respublikasının Mamalıq Qinekologiya Elmi Mərkəzləri ilə əməkdaşlıq yaradılmışdır. Bu sahə ilə bağlı o, dəfələrlə beynəlxalq forumlarda Avropa, Ümumittifaq Mama - Qinekoloqlar qurultayının, cəmiyyətlərinin, konqreslərinin iştirakçısı və məruzəçisi olmuşdur. Naziyə xanım eyni zamanda respublika mama - qinokoloqlarının elmi cəmiyyətinin sədr müavini, Səhiyyə Nazirliyinin Attestasiya Komissiyasının, Azərbaycan Respublikası Təhsil Nazirliyinin elmi - metodik şurasının üzvü, Tibb Universitetinin dissertasiya müdafiələri üzrə ixtisaslışmış şurasının, universitetin II müalicə - profilaktika və böyük elmi şuralarının, cərrahiyyə üzrə problem komissiyasının üzvü, Səhiyyə Nazirliyinin I saylı poliklinikasının, 1 və 5 saylı Qadın Məsləhətxanasının konsultantıdır. N. Şəmsəddinskaya əməkdar elm xadimi adına layiq görülmüş, fəxri - fərmanlarla təltif olunmuşdur. Respublikada mama - qnikologiyanın inkişafında yüksək xidmətləri olan Naziyə Şəmsəddinskaya eyni zamanda gözəl insan, layiqli övladı ilə qürur duyan müqəddəs anadır.





The higher being human of the world comes face by face from creation day with the thousand tests, fatigue of the fate. She or he meets the difficulties on the stony and cloddy ways of the life. As if the Great God himself puts to the test people for awarding their work, determinations, highest at the last time to rise them, step by step. One of the honorable ladies of Azerbaijan, having a lot of services on the developing Azerbaijan science, passing very hard fate ways, Professor Naziye Musa qizi Shemseddinskaya is one of such person. She was born in the well-known intellectual family. In 1926 year her family was been repression to sacrifices and well-known persons of that time. Her childhood passed in the Second World War years. So when Naziye khanum was 14 years old she began to work at the weaving factory as a grid-learner. In 1943 year the first exemplary school with excellent marks. But Naziye khanum couldn't give her documents to high school as she was a daughter "people enemy". After a year according the permission of the committee for high schools of Union Soviet Socialist Republic, Naziye khanum entered the "Treatment Prophylactic" faculty of the Azerbaijan Medical University without passing entrance exam. During her studying years she was known as an active public person but crossed a lot of injustice Naziye khanum has never lost her courage. After graduating from Institute she worked as gynecology in Ordubad town of Nakhcivan Autonomous Republic for 5 years. In 1955 Naziye khanum at the maternity home number 2 named after Krubskaya as a doctor gynecology. But from 1957 year Naziye khanum began to work at the gynecology department first as an aspirant, an assistant, an assistant professor, a professor then a leader of department. She wrote candidate dissertation in 1962 year but in 1973 she defended doctor's dissertation on theme "Pelvis arterial graphic on learning in condition of functional and Uterus and its growth of anatomic". From 1970 till 1993 and from 1993, 1998 till 2003 years leading the second maternity - gynecology department Naziye Shamseddinskaya continued reguiariy her scientific researching and published about 200 scientific work and one monograph. But her initiative there was cooperated with other maternity-gynecological scientific centers of pervious Soviet Republics. Connecting with this sphere she was several times the representative and reporter of congresses, societies, international forums and Union Maternity Gynecological Assembly. At the same time Naziye khanum is the chief - assistant of Maternity - Gynecological scientific society, a member of Azerbaijan Republic Education Ministry methodological council, the attestation Commission of Medical Ministry. She is a consolidator of the woman's consultation number 1 and 5, the polyclinic 1st of medical Ministry. She also is a member the problems Commission according operation, the professional Council according the defending of dissertations of medical University and the treatment - prophylactic faculty of University and the big scientific council. Naziye Shemseddinskaya was awarded with the name of Honored Scientist, was awarded honor diploma too. She has not only the greatest services on developing maternity - gynecology but also she is a beautiful woman and a sacred mother feeling pride with her favorable **child**.



Əliyeva Rəna

Elmin inkişafı, cəmiyyətin inkişafı, ölkənin inkişafıdır. Elmlə məşğul olmaq, ən müqəddəs bir iş, elmin zirvəsi isə, müqəddəslik zirvəsidir. Elm aləmində xüsusi xidmətləri olan, vətənini, xalqını dərin məhəbbətlə sevən, fəxri xanımımız, Azərbaycan Tibb Universitetinin"Uşaq Stomatologiyası" kafedrasının müdiri, Beynəlxalq Məlumatlandırma Akademiyasının və Beynəlxalq Stomatoloqlar Akademiyasının üzvü, Azərbaycan Stomatoloqlar Assosiyasının Prezidenti Əliyeva Rəna Qurban qızı, 1948-ci ildə Bakı şəhərində anadan olmuşdur. Bakıdakı 8 saylı orta məktəbində təhsil almış, məktəbi medalla başa vurmuşdur. N.Nərimanov adına ATİ-nin "Stomatologiya" fakultəsini bitirmişdir. İnstitutun elmi şurasının qərarı ilə, "Cərrahi Stomatologiya" kafedrasinin kliniki ordinaturasina göndərilən, Rəna Əliyeva ilk əmək fəaliyyətinə 1973-cü ildə, Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitunun "Stomatologiya" kafedrasında baş laborant vəzifəsiylə başlamış və burada dossent vəzifəsinə qədər yüksəlmişdir. Elmə böyük marağı olan, Rəna Qurban qızı 1991-ci ildə Moskva Mərkəzi Elmi Tədqiqi Stomatologiya İnstitutunda uğurlu dissertasiya müdafiə etmiş, tibb elmləri namizədi alimlik dərəcəsini almışdır. 1998-ci ildə ATU-nun "Uşaq Stomatologiyası" kafedrasının müdiri təyin olunan Rəna Əliyeva hazırkı dövrə qədər də burada çalışır. Elmi tədqiqatlarını davam etdirən, Rəna Əliyeva 2001-ci ildə Moskva Elmi-Tədqiqi Stomatologiya İnstitunda "Azərbaycan uşaqlarına stomatoloji xidmətin optimal modelinin inkişafı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Rəna Əliyeva ATU-nun elmi şurasının üzvü, "Stomatologiya" fakultəsinin elmi şurasının üzvü, Dissertasiya şurasının üzvüdür. Elmi məqalələri, Rusiya, Türkiyə, Portuqaliya və digər ölkələrdə nəşr olunmuşdur. O, 100-dən artıq elmi məqalənin, 1 dərslik, 7 metodik vəsaitin müəllifidir. Onun rəhbərliyi altında 6 namizədlik dissertasiya işi müdafiə olunmuşdur. Uzun illər səhiyyədə göstərdiyi xidmətlərinə görə, Rəna Qurban qızı, ölkə Prezidentimiz İlham Əliyev tərəfindən, "Əməkdar həkim" adına layiq görülmüş, "Fədakar əməyə" görə medalı ilə təltif olunmuş, Səhiyyə Nazirliyinin fəxri - fərmanına layiq görülmüşdür. O, 2005-ci ildə Beynəlxalq Məlumatlandırma akademiyasının (Kanada, Monreal) və Beynəlxalq Stomatoloqlar Akademiyasının (ABŞ) üzvü, Azərbaycan Stomatoloqlar Assosiyasının Prezidentidir. Rəna Əliyeva, Azərbaycanda və Cənubi Qafqazda "Qafqazın Stomatoloji Yenilikləri" adlı ilk Beynəlxalq jurnalın təsisçisi və baş redaktoru, "Maestro Stomatoloqiə" və "Stomatoloq" jurnalının redaksiya heyətinin üzvüdür. Onun rəhbərliyi altında Azərbaycan Stomatoloqlar Assosiyası 10 ildir ki, Dünya Stomatoloqlar Federasiyasının üzvü, 2003-cü ildən Avropa Region Təşkilatının üzvüdür. Rəna Əliyeva ailəlidir.





One of the honorary ladies of our country, the manager of "Child dentistry" department of Azerbaijan Medical University, the member of International Informing Academy and International Dentists' Academy and the president of Azerbaijan Dentists' Association Aliyeva Rena Gurban was born in Baku in 1948. She studied at 8th school in Baku and finished the school with medal. She graduated from the "Dentistry" faculty of Azerbaijan Medical Institute named after N.Narimanov. With the decision of the scientific council of the institute, she was sent to "Dentistry surgeon" department. Her first work activities began in 1973 as a head laboratory assistant in Dentistry department of Doctors' Improvement Institute named after A.Aliyev and here she has been an assistant professor. In 1991 she successfully defended her thesis in Moscow Central Scientific Investigation Institute of Dentistry and received the academic degree of Master of Sciences. In 1998 she was appointed the manager of Child Dentistry department of Azerbaijan Medical University and till today she works there. In 2001 she defended a thesis for a doctor's degree named "The development of Optimal model of dentist services to Azerbaijan children" in Moscow Central Scientific Investigation Institute of Dentistry. Rena Aliyeva is the member of scientific council of Azerbaijan Medical University, of scientific council of Dentistry faculty, and at last she is the member of the Thesis Council. Her scientific articles were published in Russia, Turkey, Portugal and other countries. Mrs. Aliyeva is the author of more than 100 articles, 7 methodical means and a textbook. 6 theses for Ph. Degree have been defended under the leadership of her. She has been honored with the name "Honor Teacher" by our President Ilham Aliev, with the medal "For selflessness work", with the honorary decree of Ministry of Sanitary. She is the member of International Informing Academy (Canada, Monereal) and International Dentists' Academy (USA) and the president of Azerbaijan Dentists' Association from 2005. Rena Aliyeva is the constitutor and editor-in-chief of the first international magazine called "the stomatology Innovations of Caucasian" and is the member of the staff of editorial office of "Maestro" and "Stomatology" journals. Under the leadership of her Azerbaijan Dentists' Association is already the member of BSF already 10 years and is the member of Europe Region Organization. Mrs. Aliyeva is married.





Vəliyeva Məhbubə

Dərin elmi biliyə, istedada malik olmaq özü bir Tanrı vergisidir. Bu istedaddan yetərincə istifadə etmək, elmin zirvələrini fəth etmək, insaların, cəmiyyətin rifahı naminə ali məqsədlər uğrunda mübarizə aparmaq da elə Allahın sevdiyi, seçib dəyərləndirdiyi insanlara məxsusdur. Ulu Tanrımızın yüksək qiymətləndirdiyi, fədakar elm xadimlərimizdən, xanımlarımızdan biri, Azərbaycanda ilk yeganə qadın əczaçılıq elmləri doktoru və bu sahə üzrə ilk yeganə professor, Azərbaycan Tibb Universitetinin "Əczaçılıq texnologiyası, təşkili və iqtisadiyyatı" kafedrasının müdiri, professor, BEA- nın akademiki Vəliyeva Məhbubə Nəbi qızı 1949-cu ildə Ermənistanın Kalinino rayonunda anadan olmuşdur. Kalinino şəhər məktəbinin rus bölməsində təhsil almış, məktəbi qızıl medalla başa vurmuşdur. N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitunun "əczaçılıq" fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir və həmin ildə N. Nərimanov adına Tibb İnstitutunun "Farmokologiya fakultəsində saxlanmışdır. 1987 -ci ildə Pyatiqorsk Əczaçılıq Akademiyasında namizədlik dissertasiyasını müdafiə etmiş, əczaçılıq elmləri namizədi alimlik dərəcəsini almışdır. 1991-ci idə ATU-da "Təbii Limfotrop biopereparatların araşdırılması" adlı problem elmi-tədqiqat laboratoriyasının "farmakalogiya" şöbəsinin müdiri, 1993-cü ildə "əczaçılıq" fakultəsinin dekan müavini, 1995 -ci ildə dekanı, 1996-cı ildə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin "Azərfarmsənaye" Elm İstehsalat Birliyinin Baş direktorunun müavini, "Əczaçılıq məhsulları" ticarət istehsalat idarəsinin müdiri vəzifələrində çalışmışdır. Məhbubə Vəliyeva, 1998-ci ildə İ. M. Seçenov adına Moskva Tibb Akademiyasında doktorluq dissertasiyasını müdafiə etmiş, əczaçılıq elmləri doktoru adına layiq görülmüşdür. Hazırda ATU-nun "Əczaçılıq texnologiyası, təşkili və iqtisadiyyatı" kafedrasının müdiri vəzifəsində çalışır.

Bir sıra respublikalarda və xarici ölkələrdə Milli Əczaçılıq sektorunun dərman peraparatlarından düzgün istifadə edilməsi və formulyar dərman peraparatları haqqında qanunun qəbul edilməsi ilə əlaqədar Beynəlxalq Səhiyyə Təşkilatının xətti üzrə təşkil olunmuş seminar və konfranslarda elmi məruzələrlə çıxış edən M. Vəliyeva, 1995 ci ildən Beynəlxalq Əczaçılar Federasiyasının (FİP) üzvüdür. O, öz elmi məruzələri ilə bir çox Beynəlxalq və Milli konfranslarda çıxış etmiş, müxtəlif dövrlərdə bir çox ölkələrdə əczaçılıq işi və əczaçılıq texnologiyalarının təşkili üzrə İsraildə, İtaliyada, İsveçrədə, Səudiyyə Ərəbistanında, Koreyada, Çində və digər xarici ölkələrdə keçirilən simpoziumlarda iştirak etmişdir. M.Vəliyeva Avstriya Beynəlxalq Elmlər Akademiyasının akademiki, 2005-ci ildən Beynəlxalq Əczaçılar Federasiyasının, 1996-cı ildən Azərbaycan - Koreya mədəniyyət mübadiləsi assosiyasının üzvüdüdür. 2005-ci ildən Azərbaycan Respublikasının əməkdar müəllimi adına layiq görülmüş, Ulu Öndərimiz Heydər Əliyev tərəfindən təltif olunmuşdur. M. Vəliyeva pedoqoji fəaliyyəti ilə yanaşı, respublikanın ictimai və siyasi həyatında da fəal iştirak edir. O, ATU-nun Böyük Elmi Şurasının, "əczaçılıq" fakultəsinin Elmi Şurasının üzvu, universitetin "Səmərələşdiricilər və İxtiraçılar" cəmiyyətinin sədridir. Universitetin Metodik Komissiyasının üzvü, Əczaçılıq və Farmakalogiya üzrə Təhsil Metod





Şuranın sədridir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Əczaçılıq Şurasının sədr müavinidir. Məhbubə Nəbi qızının rəhbərliyi ilə 12 namizədlik dissertasiya işi yerinə yetirilib,10 namizədlik dissertasiya işi müdafiə olunub.O,470 elmi işin(137 tezis 25 patent, 22 səmərələşdirici təklif, 5 monoqrafiya, 23 tədris vəsaiti, 37 texniki şərtin) müəllifidir. 1992ci ildən YAP-ın üzvüdür. Məhbubə Vəliyeva Azərbaycanın zəngin bitgi florasından 326 adda müxtəlif dərman bitgilərinin formakoterapevtik təsirini öyrənib,37 bitgi mənşəli müxtəlif çeşidli dərman peraparatlarını SEBA-FİTO MMC-yə təklif edib. Məhbubə xanım ATU-nun YAP Qadınlar şurasının sədri, Nəsimi rayon YAP Qadınlar Təşkilatının sədri, Respublika YAP-Qadınlar Şurasının idarə heyyətinin üzvüdür. Ailəlidir. Bir oğlu, üç nəvəsi var.



One of the selfless women of our country, Doctor of Pharmaceutics Sciences, the manager of "Technology, forming and economy of pharmaceutics" department, and an academic of Azerbaijan National Academy of Sciences Veliyeva Mehbube Nabi was born in Armenia, Kalinino region in 1949. She is the first woman in Azerbaijan who is the Doctor of Pharmaceutics. She got her secondary education in Kalinino in Russian department and finished the school with gold medal. She graduated from the pharmaceutics faculty of Azerbaijan State Medical Institute named after N.Narimanov with honored diploma. In 1987 she defended a thesis for a Ph. Degree in Pharmaceutics Academy of Pyatigorsk and received the scientific degree of Master of Sciences on pharmaceutics. In 1991 she was the manager of pharmaceutics department of scientific research laboratory called "The searching of Natural Lymphotrop bio - preapartus", in 1993 the dean deputy and in 1995 the dean of pharmaceutics faculty, in 1996 she was the deputy of the Head director of "Azerbaijan pharmacology industry" Science Industry Union of Ministry of Health of Azerbaijan Republic and worked as the head of trade industrial office "Pharmaceutics products". In 1998 Mrs. Veliyeva defended a thesis for doctor's degree in Moscow Medical Academy named after I.M.Sechenov and was honored with the name of Doctor of Pharmaceutics. At present she works as the manager of technology, forming and economy of

pharmaceutics department. She is the member of International Chemists Federation from 1995. She took part with her scientific lectures in National and International conferences and symposiums held in Israel, Italy, Korea, China, Switzerland, Saudi Arabia and other foreign countries on forming of pharmaceutics technologies. Mrs. Veliyeva is an academic of International Academy of Sciences of Austria and is the member of International Chemists Federation of Netherlands from 2005, and the member of Azerbaijan-Korea culture exchange association from 1996. In 2005 she was honoured with the name "Əməkdar müəllim" of Azerbaijan Republic by our Great Leader Heidar Aliev. She also takes part in socio-political works of our Republic. She is the member of Scientific Council of pharmaceutics faculty of Azerbaijan Medical University and is the chairwoman of "Rationalizes and inventors" society. She also is the member of Methodic Commission of the university and is the chairwoman of Educational Methodic Council on Pharmaceutics. Mrs. Veliyeva is the deputy of Pharmaceutics Council of Ministry of Sanitary of Azerbaijan Republic. With the administration of her 12 Ph.D. theses have been defended. She is the author of 470 scientific works (137 theses, 25 patents, 22 rationalizing offers, 5 monographs, 23 teaching means, and 37 technical terms). She is the member of New Azerbaijan Party from 1992. Mrs. Veliyeva has learned pharmacotherapeutic influence of 326 different medicinal plants of rich flora of Azerbaijan and has offered 37 different high quality medicinal preparations to SEBA-FITO CC and these preparations have been allowed to local production. Mrs. Veliyeva is the chairwoman of NAP Women Council of Azerbaijan Medical University, is the member of NAP administrative personnel of Nasimi district, and the member of the administrative personnel of NAP Women Council.

She is married.







İnsan həyatı anlaşılmaz möcüzələrlə doludur. Elə bir möcüzə ki, sirrini yalnız Ulu Tanrı bilir. Özündəki qeyri-adilikləri duyan insan övladı İlahi qüvvənin təsiri altında kəşflər edir. Elmi təfəkkürü, zəngin təxəyyülü ilə, insanlara, cəmiyyətə yeni- yeni töhfələr bəxş edir və bu insanlar Allaha daha yaxın olur. İstedadı daxili zənginlikləri ilə elm aləmində yüksək xidmətləri olan xanımımız, Azərbaycan Allerqoloq, İmmunoloq İmmunoreabitoloqlar Cəmiyyətinin prezidenti, MDB-ölrələrinin Allerqoloq, İmmunoloq və İmmunoreabitoloqlar Cəmiyyətinin vitse- prezidenti, Beynəlxalq İnterastma Cəmiyyətinin rəyasət heyyətinin üzvü, Azərbaycan Prezidenti yanında Ali Attestasiya kamissiyasının tibb üzrə eksperti, ATU-nun "II Uşaq xəstəlikləri" kafedrasının müdiri Eyyubova Amalya Abdulla qızı 1934-cü ildə Qazax rayonunun Dağkəsəmən kəndində anadan olmuşdur. Körpə vaxtlarından 1935-ci ildən, ailəsi ilə birlikdə Bakıya köcən, Amalya xanım, orta təhsilini Bakıdakı 66 saylı məktəbdə almış, AzərbaycanTibb Universitetini fərqlənmə diplomu ilə bitirmişdir. İlk əmək fəaliyyətinə təyinatla 1958-ci ildən 1963-cü ilə qədər, Mingəçevir şəhərində sahə pediatrı, Uşaq Məsləhətxanasının baş həkimi, baş pediatr vəzifələrində çalışmış, 1963-cü ildən Tibb İnstitunda "Hospital Pediatriya"kafedrasında kliniki ordinator, baş laborant, asisstent, dosent, professor vəzifələrini icra etmiş, 1989-cu ildən, ATU-nun "II Uşaq Xəstəlikləri" kafedrasının müdiridir. 2001-ci ildən əməkdar elm xadimi adına layiq görülən Amaliya Abdulla qızı, bir sıra xarici ölkələrdə- İsveçrə, Fransa, Hollandiya, Amerika, Belçika, İran, İsrail, İspaniya, Misir, Portuqaliya və digər ölkələrdə beynəlxalq elmi konfranslarda iştirak etmişdir. Amaliya Eyyubova 360-dan artıq elmi məqələnin, 5 dərsliyin, bir sıra monoqrafiyaların, dərs vəsaiti və ixtiraların müəllifidir. Onun rəhbərliyi altında 3 nəfər doktorluq, 15- dən artıq namizədlik dissertasiyası müdafiə olunub. Hal hazırda 4 doktorluq və 4 namizədlik dissertasiyalarına rəhbərlik edən Amaliya xanım, Moskvada nəşr olunan "Kliniçeskaya immunologiya i allergologiya" və "Astma" jurnalının redaksiya heyyətinin üzvü, "Tibb" jurnalının, "Sağlam ol" jurnalının redaksiya heyyətinin üzvü və bir sıra elmi şuraların üzvüdür. O, 2008- ci ildə Tibb bölümü üzrə Türk Dünyası Araşdırmaları Uluslararası İlimler Akademiyasının Akademik üzvü seçilmişdir. Amaliya Eyyubova Uluslarası "Altun Yıldız" medalına layiq görülmüş və o, "Dünya Allergiya Təşkilatının" fəxri üzvüdür. Ailəlidir. İki övladı var.



Eyyubova Amalya

One of the women having high services in science, the president of Azerbaijan Immunologists, Allergists' society, the vice-president of Allergists, Immunologists' Society of CIS countries, the member of the presidium of International Inter asthma society, the expert on medicine of Supreme Attestation Commission near President of Azerbaijan, the head of "II Child Illnesses" department of Azerbaijan Medical University Eyyubova Amalya Abdulla was born in Daghkesemen village of Gazakh region in 1934. In 1935 when she was very little her family moved to Baku. She got her secondary education at 66th school in Baku, and graduated from Azerbaijan Medical University with honored diploma. Her first work activities lasted from 1958 till 1963 as an area pediatrician in Mingechevir city, the head doctor of the Child Consulting Room and as a head pediatrician. From 1963 she was a head assistant, an assistant professor and a professor in "Hospital Pediatrics" department of Medical Institute, and is the manager of "II Child Illnesses" department of Azerbaijan Medical University from 1989. Being honored with the name "Honored Scientist" in 2001, she has taken part in international scientific conferences in a few foreign countries like- Switzerland, France, Holland, Belgium, America, Iran, Israel, Spain, Egypt, and Portugal and in other countries. Amalya Eyyubova is the author of more than 360 scientific articles, 5 textbooks, a few monographs and inventions. Under the leadership of her 3 these for doctor's degree and more than 15 theses for Ph. Degree have been defended. At present she leads 4 theses for doctor's degree and 4 theses for master's degree. She is the member of the staff of editorial office of "Clinical immunes and allegory" and "Asthma" magazines published in Moscow, and also "Health" and "Be healthy" magazines and a member of a few scientific councils. In 2008 she was elected an academic member of International Sciences Academy of Turkic World Investigations on medicine. Mrs. Eyyubova has been honored with the international medal "Golden Star" and is the honorary member of World Allergy Organization. She is married, has 2 children.







Zaman şəxsiyyətlər yetişdirir. Tarix bu şəxsiyyətləri qoynunda yaşadır. Onların əməlləri nəsillərdən-nəsillərə ötürülür. Yaddaşlarda əbədi iz salır. Xalq, cəmiyyət onlardan faydalanır. Daim inkişafda olan öz elmi yaradıcılıq fəaliyyəti ilə elmimizə böyük töhfələr verən, Azərbaycanda ilk stomatoloq alim xanım, Azərbaycan Tibb Universitetinin stomatologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor, "Səhiyyə əlaçısı" Hüseynova Tamara Hacıbaba qızı 1937-ci ildə Bakıda anadan olmuşdur. Orta təhsilini Qubada almış, Azərbaycan Tibb İnstitunun Stomatologiya fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1960 -cı ildə Qusar rayon Poliklinikasında həkim-stomatoloq kimi başlamışdır. 1961-ci ildə ixtisasını artırmaq məqsədi ilə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstituna üz tutan Tamara Hüseynova burada təhsilini davam etdirmiş, 1963-1972-ci illərdə institutun stomatologiya kafedrasının asistenti vəzifəsində çalışmışdır. 1964-cü ildən Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitunda asisent kimi fəaliyyətini davam etdirmişdir. Dişlərin müalicəsi və ambulator cərrahi əməliyyatlarla məşğul olmaqla yanaşı, Sovet İttifaqı Respublikalarından gələn həkimlərlə dərs aparan və bu illərdə elmə böyük həvəs göstərən T. Hüseynova stomatologiyaya aid elmi ədəbiyyatlarla da məşğul olmuş, konfranslarda maraqlı çıxışlar etmişdir. 1965-ci ildən məşhur tarixçi alim, AEA-nın Tarix İnstitunun direktoru akademik Ə.Quliyevin məsləhəti ilə "Azərbaycanın qədim sakinlərinin dişlərinin vəziyyəti" mövzusunda dissertasiya müdafiə etmiş, tibb elmləri namizədi adını almışdır . 1969-cu ildə Ulu Öndərimiz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə, bir çox aspirant və dissertantlarla yanaşı T. Hüseynova da Moskvaya doktoranturaya göndərilmiş, 1972-1974-cü illərdə 1-ci Moskva Tibb Akademiyasının stomatologiya kafedrasının baş elmi işçisi vəzifəsində çalışmışdır. Bu illərdə "Kollaqenoz xəstəlikləri zamanı üz-çənə nahiyyəsində baş verən dəyişikliklər" mövzusunda doktorluq dissertasiyası üzərində çalışan Tamara xanım, müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri doktoru adına layiq görülmüşdür. Elmi-praktik işin nəticələri "Xalq təsərrüfatı nəaliyyətləri sərgisi" tərəfindən gümüş və bürünc medallarla qiymətləndirilmişdir.



Hüseynova Tamara

1975-ci ildən tibb elmləri doktoru T. Hüseynova Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İntitunun stomatologiya kafedrasında elmi işlər üzrə prorektor vəzifəsində çalışmışdır. 1981-1985 ci illərdə Azərbaycan Tibb İnstitunun cərrahi stomatologiya kafedrasının müdiri vəzifəsini icra edən, professor T. Hüseynova, ilk kafedranı təşkil edən cərrah professor G.R.Qurbanovun elmi-praktik ənənələrini davam etdirməyə başlamış, 1987 -ci ildə onun iştirakı ilə təşkil edilmiş yeni stomatologiya kafedrasına müdir vəzifəsinə təyin edilmişdir. Pedoqoji fəaliyyəti ilə yanaşı, Tamara Hüseynova Azərbaycan Respublikasının baş stomatoloqu, Səhiyyə nazirliyi nəzdində IV Baş İdarəsinin baş mütəxəssisi, Stomatoloqların Attestasiya və Problem Komissiyalarının sədri və digər vəzifələrdə çalışıb və hazırda da bu sahədə fəaliyyət göstərir. Tmara Hüsenova bir çox elmi məqalələrin müəllifidir. Dövrü mətbuatda onun fəaliyyəti haqqında vaxtaşırı məlumatlar çap edilmiş və o dəyərli bir elm xadimi kimi bir çox xarici ölkələrdə Azərbaycanı layiqincə təmsil etmişdir. İşlədiyi illər ərzində gümüş və bürünc medallara və təltiflərə layiq görülmüş Tamara xanımın rəhbərliyi altında bir çox yüksək ixtisaslı tibbi kadrlar və elmlər namizədləri yetişmiş və o kafedrada çalışan bir neçə dosentin doktorluq dissertasiyalarının elmi məsləhətçisi olmuşdur. Ailəlidir.

The first woman dentist in Azerbaijan, the manager of dentistry department of Azerbaijan Medical University, Doctor of Medical Sciences, and a Professor Huseynova Tamara Shahibaba was born in Guba in 1937. She got her secondary education in Guba, graduated from the Dentistry faculty of Azerbaijan Medical Institute. Her first work activities as a dentist began in the polyclinic of Gusar region in 1960. In 1961 in order to increase her speciality she continued her education in Azerbaijan State Doctors' Improvement Institute. In 1963-1972 she worked as an assistant in dentistry department of the institute. In 1964 she continued her activities as an assistant in Azerbaijan State Doctors Improvement Institute. In 1965 she defended a thesis named "The condition of the teeth of ancient inhabitants of Azerbaijan" with the advice of the director of History Institute of Azerbaijan National Academy of Sciences, an academic A.Guliyev, and with the consent of the manager of dentistry department, an assistant professor A.A. Ahmedov, and received the name Candidate of Medicine. In 1969 with the private initiative of our Great Leader Heidar Aliev, she was sent to Moscow with other post graduate students and holders of a master's degree. In 1972-1974 she worked as a head scientific worker of dentistry department of Moscow Medical Academy. She worked on a thesis for a doctor's degree named "Changes happened in face-jaw area during collagen diseases" and defending successfully she was honoured with the name of Doctor of Medical Sciences. She was awarded with silver and bronze medals by "Exhibition of National Economic Achievements". In 1975 she worked vice-principal on scientific works in dentistry department of Doctors' Improvement Institute named after A.Aliev. In 1987 she was appointed to the post of manager of the new dentistry department. Mrs. Huseynova is the manager of dentistry department of Azerbaijan Medical University from 2007. Tamara Huseynova is the head dentist of Azerbaijan Republic, and she has worked the head specialist of the IV Head Office under Ministry of Sanitary, the chairwoman of Attestation and Program Commissions of the dentists. Mrs. Huseynova is the author of a few scientific articles. During her work activities she has been honoured with a few silver and bronze medals. A lot of medical cadres and Masters of Sciences have been brought up by Mrs. Huseynova and she has been a scientific adviser of a few theses for doctor's degree of the assistant professors working in the department.

She is married.







Vətən onu sevənləri sevir. Bütün varlığı ilə, vətənə, torpağa bağlı bir ömr yaşamaq, öz xeyirxahlığı, zəhmətsevərliyi, yüksək insani keyfiyyətləri ilə neçə- neçə insanın qəlbində özünəməxsus məhəbbət və hörmət qazanmaq asan bir iş deyil. İşinə vicdan və məsuliyyətlə yanaşan, vətənpərvər və mübariz xanımımız, Azərbaycan Tibb Universitetinin baş mühasibi, Qasımova Şəfəq Əli qızı 1955-ci ildə Ermənistanın Qafan rayonunun Şəhərcik kəndində anadan olmuşdur. Orta təhsilini 1960-1961-ci illər Şəhərcik kəndində almış, 1965-ci ildə ailəliklə Bakıya köçmüş, Bakıdakı 49 saylı orta məktəbdə təhsilini davam etdirmişdir. D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitunun axşam şöbəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1972-ci ildə, Azərbaycan Dövlət Yer Quruluşu Lahiyə İnstitunda mühasib vəzifəsi ilə başlamış, 1977-ci ilə qədər bu vəzifədə çalışmışdır. 1977-ci ildən Azərbaycan Tibb Universitetində mühasib, baş iqtisadçı, baş mühasibin müavini vəzifələrində işləmiş, 1990 -cı ildən universitetin baş mühasibi vəzifəsini icra edir. Xalqını dərin məhəbbətlə sevən, işlərində dəqiqliyə və məsuliyyətə üstünlük verən bu xanım, bütün universitet kollektivinə, ona üz tutanlara qayğı ilə yanaşır. İşlərinin öhtəsindən layiqincə gəlir. İşlədiyi illər ərzində, vəzifə borcu ilə yanaşı ictimai işlərdə də fəal iştirak edən, Şəfəq Əli qızı 1995 - ci ildən Yap-ın üzvü, Sevil Qadınlar Cəmiyyətinin ilk üzvlərindəndir. Cəmiyyətin fəal üzvü kimi, Şəfəq Qasımova qadınların problemi ilə həmişə ciddi məşğul olub və onların həllində yaxından köməklik göstərib. Həmişə mübarizliyi, fəallığı ilə seçilən Şəfəq xanım, I Qadınlar Qurultayının iştirakçısıdır. İnsanlara xeyirxahlığı, canıyananlığı, fəallığı ilə fərqlənən Şəfəq Qasımova Yap-ın bütün tədbir və konfranslarında iştirak edib.

Daim dövlətçiliyimizi dəstəkləyən, bu vətənpərvər xanım, səhhəti ilə əlaqədar, ictimai fəaliyyətindən qalsa da belə, həmişə qəlbi, vətəni, xalqı üçün döyünür. Şəfəq xanım işdəki yüksək göstəricilərinə görə, universitet rəhbərliyi tərəfindən həmişə qiymətləndirilmiş, müxtəlif dövrlərdə mükafat və təltiflərə layiq görülmüşdür. Şəfəq xanım ailəlidir. İki övladı və üç nəvəsi var.



Qasımova Şəfəq

******

One of the patriot women of our country doing her work with responsibility is the head book-keeper of Azerbaijan Medical University Gasimova Shefeq Ali was born in Sheherjik village of Gafan region of Armenia in 1955.Getting her secondary education in Sheherjik village in 1960-1961 years, moved to Baku with her family in 1965 and continued her education at 49th school in Baku. She graduated from the evening department of Azerbaijan National Economy Institute named after D.Bunyadzade. Her first work activities began in 1972 as a book-keeper in Azerbaijan State Project Institute of Land Structure and worked in this post till 1977. From 1977 she worked as a book-keeper, head economist, deputy of the head book-keeper in Azerbaijan Medical University. She is the head book-keeper of the university from 1990. During her activities she has actively taken part in social works, so she is the member of New Azerbaijan Party from 1995, and one of the first members of Sevil Women Society. As an active member of the society Mrs. Gasimova has always been very serious in trying to solve the problems of the women. She is the participant of Women Council. She has taken part in all meetings and conferences of NAP.

At present she has stopped her public activities because of her health. She has been honoured with prizes for her activities by the university in different periods. Mrs. Gasimova is married, has 2 children and 3 grandchildren.



Hüseynova Rəna

Hünər və zəhmət dolu ömr sürənlər, cəmiyyətdə fəal mövqe tutanlar, vicdan adlı ali bir hissin işığında əməlləri ilə özlərinə hörmət qazananlar, zamanın ən kamil insanlarıdır. Elm kimi müqəddəs bir yolun yolçuları isə, daha yüksək ada layiqdirlər. Pedoqoji fəaliyyəti ilə yanaşı, elm sahəsində də özünəməxsus xidmətləri olan xanımımız, Hüseynova Rəna Hüseynağa qızı 1949-cu ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakı şəhər Yasamal rayon 161 saylı məktəbdə almış, M.F.Axundov adına Azərbaycan Pedoqoji Dillər İnstitunun İngilis və Azərbaycan dilləri fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1971-1979-cu illərdə Bakı şəhəri Xətai rayonundakı 70 saylı məktəbdə ingilis dili müəllimi kimi başlamışdır. 1979-cu ildə əyani aspiranturaya daxil olan Rəna Hüseynova 1982-ci ildə aspiranturanı bitirmiş, 1983-1984-cü illərdə N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin Xarici dillər kafedrasının saathesabı müəllimi vəzifəsində çalışmışdır. 1986-1989-cu illərdə həyat yoldaşının işi ilə əlaqədar pedoqoji fəaliyyətinə fasilə verən Rəna xanım, 3 il Kuba Respublikasında yaşamış, qayıtdıqdan sonra, 1989-1990 -cı illərdə Bakı Dövlət Universitetinin Humanitar fakultələr üçün Qərbi Avropa dilləri kafedrasında baş laborant, 1993-2001 -ci illərdə müəllim vəzifəsində çalışmış, 2001-ci ildən isə baş müəllim vəzifəsində işləmişdir. Pedoqoji fəaliyyəti ilə yanaşı elm sahəsində də özünü sınayan, Rəna Hüseynova 2004-cü ildə "İngilis və Azərbaycan dillərində real və fon sözləri" adlı elmi iş müdafiə etmiş, 2005 -ci ildə filologiya elmləri namizədi alimlik dərəcəsini almışdır. 2008-ci ildən kafedranın dosenti vəzifəsində çalışır. 22 elmi məqalənin, 2 lüğətin, metodik vəsaitin, ingilis dili üzrə proqramın və monoqrafiyanın müəllifidir. Universitetin ictimai işlərində də fəal itirak edən Rəna Hüseynağa qızı, 2007-ci ildən kafedranın Həmkarlar Təşkilatının sədri vəzifəsini icra edir. Ailəlidir. Üç övladı, altı nəvəsi var.

*******

Huseynova Rena Huseynagha was born in Baku city in 1949. She got her secondary education at 161st school in Baku, and graduated from Azerbaijan and English languages faculty of Azerbaijan Pedagogical Institute of Languages named after M.F.Akhundov. Her first activities began at 70th school in Khatai district as a teacher of English language in 1971-1979. In 1979 she entered the post graduate course, in 1982 finished the course. In 1983-1984 she worked as a teacher in foreign languages department of Azerbaijan Medical University named after N.Nerimanov. In 1986-1989 because of the work of her husband she paused to her pedagogical activities, had to live in Cuba Republic for 3 years. After returning in 1989-1990 she worked a head laboratory assistant in Languages of Western Europe department for humanitarian faculties of Baku State University, in 1993-2001 she worked as a teacher. She is the head teacher from 2001. In 2004 Rena Huseynova defended her scientific work named "Real and background words in Azerbaijan and English languages" and in 2005 she was honoured with the academic degree of Master of Philology. She is an assistant professor from 2008. Mrs. Huseynova is the author of 22 articles, 2 dictionaries, methodic means, program on English language and a mono-graph. She also takes part in social works of the university, so she is the chairwoman of Trade-Union of the department from 2007.

She is married, has 3 children and 6 grand-children.







Behbudova Xuraman

İllər keçir. Zaman- zaman arzularımıza çatmaq üçün mübarizə aparırıq və əsl ziyalı kimi özümüz də bilmədən cəmiyyətdə fəal mövqe tutmaq naminə, bu mübarizlik yolunun mətn yolçusuna çevrilirik. Seçdiyimiz sahədə öz peşə borcumuzu layiqincə yerinə yetirməyə çalışırıq. Behbudova Xuraman Qurban qızı kimi. Xuraman xanım 1952-ci ildə Fizuli şəhərində anadan olmuşdur. Orta təhsilini Fizuli şəhər 2 saylı məktəbdə almış, M.F.Axundov adına Xarici Dillər İnstitunun "Rus dili və Ədəbiyyatı" fakultəsini bitirmişdir.İlk əmək fəaliyyətinə 1973-cü ildə orta məktəbdə rus - dili müəllimi kimi başlamış, 1978-ci ildə ailə vəziyyəti ilə əlaqədar Bakıya köçmüş, İnşaat Mühəndisləri İnstitunda fəaliyyətini davam etdirmişdir. 1990-cı ildən institun tədris şöbəsində müdir müavini vəzifəsində çalışan, Xuraman Qurban qızı 1993-cü ildə müdir vəzifəsini icra etmiş, 1994-cü ildən köçürülmə yolu ilə Azərbaycan Tibb Universitetində dəftərxana müdiri vəzifəsinə təyin edilmiş, hazırkı dövrə qədər də bu vəzifədə çalışır. Hələ orta məktəbdə işləyərkən, Xuraman Behbudova fəal ictimaiyyətçi olmuş, Sovet hakimiyyəti illərində ilk komsomol təşkilatının sədr müavini vəzifələrində çalışmışdır. Rayon Mərkəzi Seçki Komissiyasının sədri vəzifəsində işlNmişdir. Universitetdə işlədiyi illər ərzində Xuraman Qurban qızı, universitet daxili tədbirlərdə həmişə fəal iştirak edir. İşiylə bağlı, vəzifə borcunu da layiqincə yerinə yetirir. X.Behbudova Yeni Azərbaycan Partiyasının üzvüdür. Əməli fəaliyyəti müxtəlif dövrlərdə müdiriyyət tərəfindən layiqincə qiymətləndirilib. Bir neçə fəxri-fərmanla təltif olunub. Ailəlidir. İki övladı var.

Behbudova Khuraman Gurban was born in Fizuli city in 1952. She got her secondary education at 2nd school in Fizuli and graduated from "Russian language and literature" faculty of the Institute of Foreign Languages named after M.F.Akhundov. Her first work activities began in 1973 as a Russian language teacher at school. In 1978 she had to move to Baku connected with the condition of her family and continued her activities at the Institute of Building Engineering. In 1990 she worked deputy of the manager in the department of teaching of the institute. In 1993 she began to work as a head of the department. In 1994 she was appointed to the post of manager of the office and till today she works in this post. Even when she worked at school she actively took part in social works. She has worked as a deputy of the first organization of Komsomol in the years of Soviet Government and has been the chairwoman of Region Central Election Committee. While working at the university she has actively taken part at the meetings held at the university. Mrs Behbudova is the member of New Azerbaijan Party. She has been rewarded with a few honorary decrees in different periods. She is married, has 2 children.



Bəndəliyeva Aida

İnsanın ruhu aləminin gözəlliyi, onun daxili aləminin zənginliyidir. Ülvi və bəşəri hisslərlə yaşamaq özü bir alilik, bir yüksəklikdir. Yüksək potensial enerjiyə malik xanımımız, Azərbaycan Tibb Universitetinin "Əczaçılığın texnologiyası, təşkili və iqtisadiyyatı" kafedrasının baş müəllimi Bəndəliyeva Aida Allahverdi qızı 1968-ci ildə Bərdə şəhərində anadan olmuşdur.Orta təhsilini Mingəçevirdə 2 və 7 saylı məktəblərdə almış, ATU-nun "Əczaçılıq" fakultəsini fərqlənmə diplomu ilə bitirmiş, provizor ixtisasına yiyələnmişdir. Ilk əmək fəaliyyətinə "Əczaçılıq" fakultəsinin "Dərman formalarının texnologiyası" kafedrasında laborant kimi başlamış, müxtəlif vəzifələrdə çalışmışdır. Hələ tələbəlik illərindən özünəməxsus mübarizliyi, zəngin təxəyyülü ilə fərqlənən bu fədakar xanım, universitetin "İctimai Peşələr" fakultəsinin jurnalistika şöbəsində təhsil alaraq, jurnalist ixtisasına da yiyələnmişdir. Elmə böyük marağı olan A. Bəndəliyeva 1998-ci ildə namizədlik dissertasiyası müdafiə etmiş, ilk dəfə sedativ və hipotensiv təsirə malik 6 ilkin dərman peraparatlarının alınmasına nail olmuşdur. Ömrün daş - kəsəkli yollarında məğrur addımlar atan bu nəcib xanım, yüksək ixtisaslı mütəxəsis olmaqla yanaşı, öz bilik və bacarığı, istedadı ilə də cəmiyyətdə özünəməxsus layiqli yer tutmuş,1995-1998-ci illərdə AZTV-nin ştatdan kənar müxbiri kimi "Sağlamlıq" və "Səhər" proqramında "Ana südü-Dağ çiçəyi," "Loğman" rubrikalarında müxbir- aparıcı kimi fəaliyyətni davam etdirmişdir. O, müxtəlif xarici ölkələrdə1992-ci il İranda, 1996-cı il Türkiyədə Mərmərə Universitetində, Beynəlxalq Əczaçılıq simpoziumlarında, 1995-ci ildə respublikamızda keçirilən parlament seçkiləri ilə bağlı Almaniyada səfərlərdə olmuşdur. Aida xanım, 1992-1998 - ci illərdə ATU-nun Həmkarlar Komitəsinin sədr müavini kimi də bir çox işlər görmüşdür. Onun əməli fəaliyyəti həmişə yüksək qiymətləndirilmiş və o, 1996-cı ildə Respublika Səhiyyə Nazirliyinin, 1998-ci ildə Respublika Tibb İşçilərinin Həmkarlar İttifaqının fəxri fərmanları ilə təltif olunmuşdur. Fəal ictimaiyyətçi Vətənini, xalqını böyük məhəbbətlə sevən, daim dövlətçiliyimizi dəstəkləyən bu qeyrətli xanım,"Ziyalılar" cəmiyyətinin, 1993- cü ildən YAP- Qadınlar Şurasının üzvüdür. Aida xanım Azərbaycan Qadınlarının I-II-III qurultaylarının nümayəndəsi və məruzəçisi olmuşdur. Aida Bəndəliyeva 2005-ci ildən" Qloballaşmada gənclərin milli- əxlaqi dəyərlərinin qorunması mərkəzi" İctimai Birliyi Qeyri Hökumət Təşkilatının sədri kimi də fəal iş aparır, televiziyada və mətbuatda aktual mövzularda çıxışlar edir. 2009 - cu ildə keçirilən Referendum üzrə "Davamlı inkişaf naminə" təşviqat qrupunun səlahiyyətli nümayəndəsi olmuşdur. Təhsil sahəsində xüsusi xidmətləri olan, Aida xanım pedoqoji və ictimai fəaliyyəti ilə yanaşı, elmi fəaliyyətini də davam etdirir. Təhsildə xüsusi xidmətləri olan A.Bəndəliyeva 20 elmi tezis-məqalənin, 1səmərələşdirici təklifin, 3 metodik vəsaitin,1 dərslik vəsaitinin müəllifidir. Bir elm adamı, təhsil işçisi olmaqla yanaşı, bu mübariz xanım, övladlarını dərin məhəbbətlə sevən, onlarla qürur duyan müqəddəs anadır.İki qız övladı var.





Beauty of the moral world of a person shows the richness of hisher inner life. Living with fine and universal feelings is a sign of high human qualities.

Bandaliyeva Aida Allahverdi qizi, senior tutor of the Department of Technology, Organization and Economy of Pharmacology at the Azerbaijan Medical University (AMU), was born in 1968 in Barda city. She received her school education in Schools No. 2 and 7 in Mingachevir city, and then finished Pharmacological Faculty of AMU with honors diploma. She started her professional work at the Department of Drug Technology of Pharmacological Faculty of AMU and later held various other positions.

This dedicated lady, distinguished with her specific valor and talent, also studied at the Journalism Unit of "Public Professions" Faculty of the University and specialized in journalism. With her great interest in scientific work, A.Bandaliyeva defended her PhD dissertation in 1998. She achieved to find, for the first time, 6 primary medical preparations that possess sedative and hypotensive effect.

Besides being a highly-qualified specialist in her field of study, A.Bandaliyeva has been a talented and skilful person in public life. In 1995-1998, she worked as correspondent-presenter in "Health", "Morning", "Healer" and other programs and rubrics of AzTV (Azerbaijan Television). She has been to various foreign countries: in 1992 in Iran; in 1996 at the pharmacological symposiums held in Marmara University, Turkey; and in Germany in connection with the parliamentary election held in Azerbaijan in 1995. During 1992-1998, A.Bandaliyeva did many works as the Deputy Chair of the Trade Union of AMU. Her professional work has always been appreciated at a high level - she received honorary awards of the Ministry of Health in 1996 and Trade Union of Medical Workers of Azerbaijan Republic in 1998.

This gallant woman, who dedicated herself to community service and always loved her homeland, is a member of "Intellectuals" Society and Women's Council of the New Azerbaijan Party since 1993. She participated in 1st, 2nd and 3rd Congresses of Azerbaijani Women as a representative and speaker. Since 2005, A.Bandaliyeva has also been carrying out active work as the Chairwoman of NGO called "Center for Protection of National-Moral Values of Youth in Globalization" and has spoken on many actual issues in electronic and print media. She was an authorized representative of the campaigning group "For the Sake of Sustainable Development" in the Constitutional Referendum held in Azerbaijan in 2009.

In addition to her special services in education and public life, A.Bandaliyeva continues her activities in the field of scientific research. She is the author of 20 research articles, 1 scientific rationalization proposal, 3 methodical writings, and 1 textbook. Apart from being a vigorous scientist and tutor, she is also a beloved mother and a source of pride for her two daughters.





*Əliyeva Tamilla*

Dünyada yaşayan bütün xalqlar əsrlər boyu öz tarixi şəxsiyyətləri, layiqli övladları ilə tanınıb. Onların xidmətləri zamanın süzgəcindən keçib, zaman - zaman yaşayıb, xalqa, ölkəyə öz lazımı töhfələrini verib. Öz xidmətləri ilə elm aləmində özünəməxsus izlər salan, vətənini, xalqını dərin məhəbbətlə sevən vətənpərvər xanımımız, ATU - nun Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Əliyeva Tamilla Şəmil qızı 1952 - ci ildə Naxçıvan MR - nin Culfa şəhərində anadan olmuşdur. Orta təhsilini Culfada almış, ADU - nun Kimya fakultəsini bitirmişdir. 1982 - 1985 - ci illərdə Moskva Dövlət İndustriya İnstitutunun əyani aspiranturasında təhsilini başa vuran T. Əliyeva namizədlik dissertasiyasını müdafiə edərək, kimya elmləri namizədi alimlik dərəcəsini almışdır. 1985 - 1990 - cı illərdə Qelmqolts adına Moskva Mərkəzi Elmi -Tədqiqat Göz Xəstəlikləri İnstitutunda baş elmi işçi vəzifəsində çalışan, Tamilla Şəmil qızı, vətənimizin ən ağır günlərində 1990 - cı il 20 Yanvar hadisələri zamanı, vətənpərvər elm xadimi, əsl ziyalı kimi, millətimizin başına gətirilən fəlakətlərə dözməyərək, Bakıya, vətənə dönmüş, xalqın ağrı acılarına şərik olmuşdu. Elə həmin ildə Azərbaycan Dövlət Tibb Universitetinə işə qəbul olunmuş, əvvəlcə (PNİL-da) 1991- ci ildən baş elmi işçi, 2003 - 2007 - ci illərdə Xarici Tələbələrlə iş üzrə dekan vəzifəsində çalışmışdır. Xarici Ölkə vətəndaşlarının universitetə cəlb olunması və yüksək təşkilatçılıq bacarığına görə o, Azərbaycan Respublikası Təhsil Nazirliyi və T.C. Azərbaycandakı Səfirliyi tərəfindən təşəkkürnamə ilə təltif edilmişdir. Tamilla Əliyeva 2007 - ci ildən ATU Beynəlxalq Əlaqələr Şöbəsinin müdiridir. Pedoqoji fəaliyyəti ilə yanaşı elmi fəaliyyətini müntəzəm olaraq davam etdirən, Tamilla xanım 56 elmi məqalənin, 1 dərslik, 1 metodik tövsiyyə, 4 ixtiranın müəllifidir. Məqalələri dünyanın müxtəlif ölkələrində elmi jurnallarda dərc olunmuşdur.

İşlədiyi uzun illər ərzində bir çox layiqli xidmətləri olan Tamilla xanım, eyni zamanda Avropa ölkələri, ABŞ - ın müxtəlif təşkilatları, Kanada Ümumdünya Sağlamlıq Təşkilatının Cənubi Qafqaz üzrə keçirdiyi müxtəlif proqramlarda da iştirak etmişdir. Avropa İttifaqının "Tempus" proqramı çərçivəsində 2008 - ci ildə təyin etdiyi "Azərbaycan universitetlərində Beynəlxalq əlaqələr strukturunun təşkili" layihəsinin qalibi olmuşdur. O, dünyanın müxtəlif ölkələrinin universitetlərində (Türkiyə, İran, Misir, Səudiyyə Ərəbistanı, Almaniya, Avstriya, Yunanıstan, İtaliya, Polşa və.s.) Azərbaycan Tibb Universitetini layiqincə təmsil etmişdir.







All people living in the world were known with her historical person, worthy children during centuries. Their services have passed through the filter of the time, have lived long years and gave needy presents to her people and country. Making special traces on science sphere with her services, loving her people with great love, our patriotic lady, a chief of International Relations of AMU Aliyeva Tamilla Shamil qizi was born in Culfa town of Nakhcivan Autonomous Republic in 1952 year. She got her compulsory education in Culfa, and graduated from Chemistry department of ASU. In 1982 - 1985 years T. Aliyeva finished internal education in master course of Moscow State Industrial Institute and defended candidate dissertation, and she received scientist degree - candidate of chemistry sciences. During 1985 - 1990 years Tamilla khanum was trying on the post of head scientific worker in Moscow Central Scientific Investigation Eye Diseases Institute named after Gelmqolts. In the hard days of our country - during 20 tragedy January events, 1990 year Tamilla khanum as patriotic scientific worker, as a real intellectual lady didn't endure calamity of our people and Tamilla khanum returned to Baku - her motherland and so she shared misfortune with her nation. At the same year she was admitted to the work in Azerbaijan State Medical University, firstly (in PNIL) from 1991 year she has tried as a head scientific employer and 2003 - 2007 years she tried on the post of dean according the work with Foreign Students. Tamilla khanum was awarded with a message of thanks by Azerbaijan republic Education Ministry and Embassy of Student Society. Tamilla khanum has been a chief of International relation Department of AMu since 2007 year. Adjoining her pedagogical activity Tamilla khanum continues her scientific work regrually and she is an aouthor of 56 scientific articles, 1 textbook, and 1 methodic recommendation and 4 inventions. Her articles were published on scientific magazines in different counties of the world.

During her working years having a number of decent services, at the same time Tamilla khanum has participated in different programs which are holding according South Caucasus of Canada, World-Wide Health Organization, Europe countries and different organization of USA. In 2008 year Tamilla khanum was been a winner of "The Organize of International Relation Structure in Azerbaijan universities" project appointed by the Tempus program limit of European Union. Tamilla khanum represented decently Azerbaijan Medical University in universities of different countries of the world (Turkey, Iran, Egypt, United Arabian Emirates, Germany, Australia, Greece, Italy, Poland and etc).





Yusifova Cəmilə

Hər bir insanın özünəməxsus alın yazısı, tale yolları var. Dünyanı dərk edəndən özümüz də bilmədən Tanrının bizə bəxş etdiyi taleyin əbədi yolçusuna çevrilir, ömr yollarında neçə - neçə çətin dolayları aşaraq, mübarizə aparır, kamillik adlanan zirvəyə doğu can atırıq. Zəhmətsevərliyi, mübarizliyi ilə elm yolunda inamlı addımlar atan, ali hisslərlə yaşayan nəcib xanımımız, Azərbaycan Tibb Universitetinin "Əczaçılıq kimyası" kafedrasının dossenti Yusifova Cəmilə Yusif qızı 1967 ci ildə Bakıda anadan olmuşdur. Orta təhsilini Bakı şəhər 20 saylı məktəbdə almış, məktəbi əla qiymətlərlə başa vurmuşdur. Azərbaycan Tibb İnstitutunun "Əczaçılıq" fakultəsini N. Nərimanov adına təqaüdlə bitirmiş, İnstitun Elmi Şurasının qərarı ilə "Əczaçılıq"fakultəsinin "Əczaçılıq kimyası" kafedrasında baş laborant vəzifəsində saxlanmışdır. 1990 cı ildə N. Nərimanov adına ATU - nun "Əczaçılıq kimyası " kafedrasına "əczaçılıq kimyası və formakologiyası" ixtisası üzrə aspiranturanı müvəffəqiyyətlə bitirən Cəmilə xanım, müdafiə edərək əczaçılıq elmləri namizədi adını almışdır. 1993 - 1994 cü illər "Əczaçılıq kimyası" kafedrasında baş laborant, 1994 -1999 cü illər həmin kafedrada asistent vəzifəsində çalışmış, 2006 cı ildən hazırkı dövrə qədər ATU - nun " Əczaçılıq kimyası" kafedrasında baş müəllim vəzifəsində çalışır. Pedoqoji fəaliyyəti illərində özünəməxsus xidmətləri olan Cəmilə Yusif qızı, bu sahədə müntəzəm olaraq elmi fəaliyyətini də davam etdirir. O, 22 çap olunmuş elmi işin müəllifidir. (bunlardan 5- tədris- metodik vəsaitdir) Elmi əsərlərinin bir hissəsi mərkəzi jurnallarda nəşr olunmuşdur. Ömrünü sevdiyi peşəsinə həsr edən nəcib xarakterli bu vətənpərvər xanım, eyni zamanda övladlarını dərin məhəbbətlə sevən anadır. Ailəlidir. Üç övladı var.

Each person has special the decrees and ways of fate. Since perceive the world not knowing we also turn to eternal wayfarer of the fate gifting us by God, getting over number of difficult ways of life, we are fighting and eager to achieve to the top named "maturity". Making resolute steps on science way with her hard working and bellicosity, living with highest feelings our noble lady, the an assistant professor of "Pharmacology Chemistry" department of Azerbaijan Medical University Yusifova Cemile Yusif qizi was born in Baku in 1967 year. She got her secondary education at school number 20 in Baku and finished the school with excellent marks. Cemile khanum graduated from Azerbaijan Medical Institute "Pharmacology" faculty with the grand named after Neriman Nerimanov. And she was kept in the post of head laboratory assistant in "Pharmacology Chemistry" department of "Pharmacology" faculty by the decision of Scientific Council of Institute. In 1990 year she graduated with success from graduate course according the profession "Pharmacology Chemistry and Pharmacology" in "Pharmacology Chemistry" department of AMU named after Neriman Nerimanov and Cemile khanum has defended and got pharmacology sciences candidate title. During 1993 -1994 years she has tried on the post of assistant at that department and from 2006 year till present time she has been trying on the post of head teacher at "Pharmacology Chemistry" department of AMU. Having special services in her pedagogical activity years Cemile Yusif qizi continues her scientific activity regularly on this sphere too. She is an author 22 pressed scientific works. (5 of them are teaching - methodological manuals) some parts of her scientific works were published on central magazines. Devoting her life to her lovely profession this noble character patriotic lady, at the same time is a lovely mother for her children. She is married and has 3 children.





Günlər, aylar ötür. Günlərin, ayların məcrasında coşub - daşan çay seli kimi gənclik də zaman - zaman öz coşqunluğunu sakitliyə çevirir. Yaş ötdükcə zaman insanı kamilləşdirir. Kamillik dolu ömür yaşayan mübariz xanımımız Azərbaycan Dövlət Tibb Universitetinin müəllimi Mustafayeva Zəminə Qara qızı 1955 - ci ildə Gürcüstan Respublikasının Dmanisi rayonunda anadan olub. SSRİ - nin 50 illiyi adına Xarici Dillər İnstitunu bitirib. İlk əmək fəaliyyətinə 1977 - ci ildən N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda katbə, 1980 ci ildən İnstitutun Həmkarlar İttifaqı Komitəsində sədrin köməkçisi, 1992 ci ildən ATU - nun nəzdindəki "Xarici dillər" kafedrasında əvvəlcə baş laborant, hazırda isə müəllim vəzifəsində çalışır. Ömrünü başdan başa vətən övladlarının təhsillənməsinə həsr edən bu fədakar xanım, pedoqoji fəaliyyəti ilə yanaşı, fəal ictimaiyyətçi kimi, universitetin ictimai həyatında da iştirak edir.O, bir sıra ölkə miqyaslı tədbirlərin hazırlanmasının təşkilatçısı olmuşdur. Sevdiyi peşəsi ilə yanaşı, elmi fəaliyyətini də müntəzəm olaraq davam etdirən Z. Mustafayeva 10 - a yaxın elmi məqalənin müəllifidir. O, hazırda namizədlik dissertasiyası üzərində çalışır. Zəminə Qara qızı AMEA - nın Dilçilik Universitetinin dissertantıdır. Ailəlidir. 2 övladı var.





Mustafayeva Zəminə

Days, months are passing. The youth which is flying into a rage on the river-bed of days and months are as a river stream and it turns our silence of its youthful enthusiasm from time to time. As years pass the time is perfected the man. Living g a life full of maturity, energetic lady, the teacher of Azerbaijan State Medical UNniveristy Mustafayeva Zemine Qara qizi was born in Dmanisi region of the Georgian Republic in 1955 year. She graduated from Foreign Language Insitute named after 50 years anniversary of USSR. Zemine khanum began her first work activity as a secretary in Azerbaijan State Medical Institute named after Neriman Nerimanov since 1977 years. From 1980 year Zemine khanum has been trying on the post of chief assistant in Trade -Union Committee of Institute, from 1992 year firstly as a head assistant laboratory in the "Foreign Languages" department of Azerbaijan Medical University, and now she is a teacher there. Devoting the whole life completely to bringing up motherland sons this selflessness lady participates in social life of university as an active public woman, at the same time of her pedagogical work. She was been an organizer of preparing number of country scale measures. Adjoining with her favorable profession Zemine khanum Mustafayeva continues her scientific activity regularly and she is an author about 10 scientific articles. At present time she is trying on her candidate dissertation. Zemine qara qizi is a dissertator of Linguistic University of Azerbaijan National Scientific Academy. She is married and has 2 children.

## Azərbaycan Dövlət Neft Akademiyası
## Azerbaijan State Oil Academy

*Azərbaycan Dövlət Neft Akademiyası müxtəlif dövrlərdə müxtəlif adlar altında fəaliyyət göstərmişdir.*

*1920- ci il. Bakı Politexnik İnstitutu.*

*1923- cü il. Azərbaycan Politexnik İnstitutu.*

*1930 - cu il. Azərbaycan Neft İnstitutu.*

*1934 - cü il. Azərbaycan Sənaye İnstitutu.*





*Azerbaijan State Oil Academy has acted under various names in different time:*

*1920 year-Baku Polytechnic Institute*

*1923 year-Azerbaijan Polytechnic Institute.*

*1930 year - Azerbaijan Oil Institute.*

*1934 year-Azerbaijan Industry Institute.*



*1939 year-Azerbaijan Oil and Chemistry Institute.*

*1991 year - Azerbaijan Industry University From 1992 year-Azerbaijan State Oil Academy There are trying about 1000 women; - 7 professors, 300 assistant professors, assistants and head teachers, 55 of them scientific worker, 100 engineer and other sections in Azerbaijan State Oil Academy.*

*1939 - cu il. Azərbaycan Neft və Kimya İnstitutu. 1991 - ci il. Azərbaycan Sənaye Universiteti. 1992 - ci ildən. Azərbaycan Dövlət Neft Akademiyası.*

*Azərbaycan Dövlət Neft Akademiyasında 1000 - ə yaxın qadın çalışır. Onlardan; 7 - si professor, 300- ü dosent, assistent və baş müəllim, 55- i elmi işçi, 100 nəfəri mühəndis və digər sahələrdə çalışırlar.*





"Elm ən qiymətli xəzinədir. Bu xəzinədən yetərincə istifadə etmək, cəmiyyət, xalq üçün çalışmaq isə, ali və müqəddəs hisslərlə yaşayan Tanrı vergili insanlara məxsusdur". Tanrı vergisindən yararlanan, elm aləmində özünəməxsus dəyərli xidmətləri olan xanımımız, Azərbaycan Dövlət Neft Akademiyasının "Elektrotexnika və elektrik təchizatı" kafedrasının müdiri, professor Kazımzadə **Qumral- Rəna Zəki** qızı 1942 ci ildə Bakı şəhərində tanınmış ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini Bakıda almış, (hazırkı) Tusi adına Azərbaycan Dövlət Pedoqoji Universitetini bitirmişdir. İlk əmək fəaliyyətinə 1965 ci ildə Azərbaycan Dövlət Neft Akademiyasında aspirant kimi başlamış, 1968 ci ildə aspiranturanı bitirdikdən sonra, 1969 cu ildən assistent vəzifəsində çalışmış, elə həmin ildə müdafiə edərək elmlər namizədi alimlik dərəcəsini almışdır. 1974 cü ildə dosent, 1998 ci ildə doktorluq dissertasiyası müdafiə edərək, elmlər doktoru adına yiyələnən Qumral - Rəna xanım, 1999 cu ildə professor adına layiq görülmüşdür. 2000 ci ildən "Elektrotexnika və elektrik təchizatı" kafedrasının müdiri vəzifəsində çalışır. Ömrünü bütünlükdə elmə, doğma Azərbaycanımız üçün yüksək ixtisaslı mütəxəsislər hazırlanması kimi müqəddəs işə həsr edən Q. R. Kazımzadə, bir sıra beynəlxalq elmi konfransların iştirakçısı olmuş və onun adı, 2000 ci ildə Kembridc şəhərində nəşr olunmuş, "Kim Kimdir" kitabına düşmüş, "XX- əsrin 2000 ən məşhur və görkəmli alimlər" diplomuna layiq görülmüşdür. Kembridc şəhərinin beynəlxalq mərkəzi tərəfindən "2002 - ci ilin Beynəlxalq şəxsiyyəti", "XX- əsrin Beynəlxalq intellektualı" və XXI - ci əsrin "Kim Kimdir" sorğu kitabının I nəşrinə yenidən adı düşmüşdür. O, 2000-2001 ci illərin Beynəlxalq qadını" seçilmişdir. 2004 cü ildən ADNA nəzdində qadın problemləri üzrə məsul şəxs seçilmiş, 2002 ci ildə Müəllimlər qurultayına, dəfələrlə YAP rayon konfransına nümayəndə seçilmişdir. 2001 ci ildə Beynəlxalq **Ekoenergetik** Akademiyasının həqiqi üzvü seçilmişdir. Q.K. Rəna xanımın xidmətləri yüksək qiymətləndirilmiş və o, Akademiya və Təhsil Nazirliyi tərəfindən "Əmək Veteranı" adına layiq görülmüş, dörd fəxri - fərmanla təltif olunmuşdur. Q.R.Kazımzadə 200-ə yaxın elmi - metodik məqalələrin, 60 çap vərəqindən çox dərslik və dərs vəsaitinin, 100 çap vərəqindən çox monoqrafiyaların müəllifi və bu yaxınlarda nəşr olunmuş 5 dilli lüğətin həmmüəllifidir.



*Kazımzadə Qumral Rəna*



The science is the most valuable treasure. To use from this treasure enough, but to try for people is belong to people who lives with high and holy feelings giving by great God. Having valuable specific services at science sphere, profiting by God tax, one of ladies a chief of "Electro-technology and Electric purchasing" department of Azerbaijan State Oil Academy, professor Kazimzade Qumral - Rena Zeki qizi was born in famous intellectual family in Baku in 1942 year. She got her secondary education in Baku and graduated from Azerbaijan State Pedagogical University (present) named after Tusi. In 1965 year she began her first work activity as an aspirant in Azerbaijan State Oil Academy, in 1968 year after graduating from master course, from 1969 year she tried on the post of assistant and in that year as defending she got the scientist degree candidate science. In 1974 year assistant professor and 1998 year defending doctor's dissertation Qumral - Rena khanum got the name of science doctor and in 1999 year she was given professor name. Since 2000 year she has been trying on the post of chief "Electro-technology and Electric purchasing" department. Devoting all her life to science and to holy work as preparing high professional specialized for our native Azerbaijan and science Q.R Kazimzade was been a participator of some international scientific conferences and her name was written "Who is Who" book published in the Cambridge city. She was awarded with the diploma "The most famous and well-known 2000 scientists of XX - century". Her name was again included the first publish of survey book "Who is Who" of XXI century, "XX century International intellectual", and "International personality of 2002 year", by international centre of Cambridge city. She was chosen "International woman of 2000 - 2001 years". Q.R. Kazimzade was chosen a responsible person according woman problems attached to Azerbaijan Science Oil Academy, in 2002 year she was also chosen a representative to the region conference of New Azerbaijan Party repeatedly and to Teacher's Congress. In 2001 year she was chosen a real member of International Eco - energetic Academy. Q.K. Rena khanum's services were prized highly and she was awarded with the name "Labor Veteran" by Educational Ministry and Academy, she was also awarded with 4 honor diplomas. Qumral - Rena knanum Kazimzade is an author about 200 scientific methodic articles more than 60 print papers, textbooks and school supplies, more than 100 print paper monographs and she was a mutual author of 5 languages dictionary published at recent time.







Tarixdə yaşayan şəxsiyyətlər zaman - zaman öz qeyri- adilikləri, fitri istedadları ilə fərqləniblər. Onların cəmiyyətdə tutduqları mövqe, cəmiyyət üçün xidmətləri, qoyduqları izlər, əsrlər keçsə də belə tarixin yaddaşında əbədi həkk olunub. İnsanlar onlardan yararlanıb və faydalanıblar. Dəyərli xidmətləri ilə elmimizə bir sıra töhfələr verən xanımımız, Naibova Tamilla Muxtar qızı 1951- ci ildə Ordubad şəhərində anadan olmuşdur. Orta məktəbi qızıl medalla başa vurmuş, M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun "Kimya - texnologiya" fakultəsini müvəffəqiyyətlə bitirmişdir. İlk əmək fəaliyyətinə 1973 - cü ildə ÜİET Neft Maşınqayırma İnstitutunun "Qoruyucu örtüklər" laboratoriyasında mühəndis - texnoloq vəzifəsi ilə başlamışdır. 1976- cı ildən Azərbaycan Dövlət Neft Akademiyasında baş laborant, laboratoriya müdiri, assistent, baş müəllim vəzifələrində çalışmış, 1994- cü ildən isə dossentdir. Əmək fəaliyyəti illərində qiyabi aspiranturada təhsil alan T.Naibova 1987- ci ildə müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmiş, kimya elmləri namizədi adını almışdır. Əməli fəaliyyəti ilə yanaşı, elmi fəaliyyətini də davam etdirən, Tamilla Muxtar qızı bir sıra beynəlxalq elmi konfrans, konqres və simpoziumların iştirakçısı olmuşdur. O, 200-ə qədər elmi əsərin (onlardan 25 - i müəlliflik şəhadətnaməsi və patentdir) müəllifidir. T. Naibovanın 40 - dan çox elmi əsəri xarici ölkələrin nüfuzlu jurnal və məcmuələrində çap olunub. O, bir çox fənnlərin tədrisi üçün proqlamlar hazırlamışdır.O, iki dərsliyin və 11 dərs vəsaitinin müəllifidir. Onun elmi rəhbərliyi ilə 15 maqistr, 2 aspirant və 2 dissertant elmi - tədqiqat işlərini uğurla başa çatdırmışdır. Tamilla Naibovanın elmi araşdırmaları sənayenin bir çox sahələrində müvəffəqiyyətlə tətbiq edilmişdir. O, ilk dəfə olaraq, modifikasiya yolu ilə 20 - dən çox yeni tərkibli oliqomer sintez etmiş və onlar əsasında kompozisiya materialllrı hazırlamışdır. Onun "Modifikasiya olunmuş fenol - formaldehid oliqomerlərinin və onların əsasında kompozisiyaların alınma texnologiyası" mövzusunda doktorluq dissertasiyası sənayedə tətbiqi baxımından daha çox əhəmiyyətlidir. T. Naibova elmi və pedoqoji fəaliyyəti illərində həmişə işgüzarlığı, vətənpərvərliyi ilə fərqlənib. Müstəqil Azərbaycanımızın ictimai və siyasi həyatında öz fəallığı ilə seçilən T. Muxtar qızı, ADNA - da YAP - ın ilk təşkilatının yaradıcılarındandır. Hazırda o, Akademiyada YAP təşkilatının sədri, Nəsimi Rayon YAP təşkilatında Siyasi Şuranın və Nəsimi Rayon YAP Qadınlar Şurasının, 2008- ci ildən isə Nəsimi Rayon Ağbirçək Qadınlar Şurasının üzvüdür. O, YAP- ın və Müstəqil Azərbaycan Qadınlarının bütün qurultaylarına nümayəndə seçilib. 30 - dan artıq ictimai - siyasi məqalənin müəllifidir. T. Naibova elmi, pedoqoji və ictimai sahələrdə xidmətlərinə görə Ulu Öndərimiz Heydər Əliyevin fərmanı ilə "Tərəqqi" medalına layiq görülüb. Eyni zamanda ETİHİK-nin fəxri - fərmanı ilə təltif olunmuşdur. "Əmək veteranı"dır. Fədakar ana və sevimli nənədir. İki övladı və iki nəvəsi var.



Naibova Tamilla

The persons living in the history were always distinguished with their innate talent and singularities. Their position taking on the society, the services for society, the traces making them, even more the centuries past, were carving immortal on the history memory. The people have benefited and have taken gain from them. Giving number of gifts to our people with her valuable services Naibova Tamella Mukhtar qizi was born in Ordubad town in 1951 year. She finished the secondary school with gold medal. Tamella khanum graduated from "Chemistry - Technological" faculty of Azerbaijan Oil and Chemistry Institute named after M. Ezizbeyov with successful. She began her first work activity in 1973 year on the post of engineer - technologist at the "Safety covers" laboratory of UIET Oil Machine Building Institute. Since 1976 year Tamella khanum has been a head assistant of laboratory in Azerbaijan State Oil Academy, the chief of laboratory, assistant, and then she has tried on the post of head teacher. But from 1994 year she is an assistant professor. During her work activity T.Naibova was studying at correspondence master course and in 1987 year she defended candidate dissertation with success and has got the name of chemistry sciences candidate. Adjoining her work activity Tamella Muxtar qizi continued her scientific work and she has been a participator of number of international scientific conferences congress and symposiums. She is an author about 200 scientific works (25 of them is an authority certification and patent). More than 40 scientific work of T.Naibova were published on authoritative magazines and collections in foreign countries. She has prepared programs for teaching of many subjects. Tamella khanum is an author of 2 textbooks and 11 school supplies. Under her scientific leadership 15 masters, 2 aspirants and 2 dissertators have finished their scientific investigation with success. Tamella Naibova's scientific researches were applied many sections of industry. For the first time by the way of modification she has synthesized more than 20 new chemical compositions oligamer and she has prepared composition materials on the basic of them. Her doctor's dissertation on the theme "Borrowing technology modification of fenol - formaldehid oligemers and the composition on the basic of them" is much more important. T. Naibova is always distinguished with her hard-working and patriotism during her scientific and pedagogical activity years. On the social and political life of our Independence Azerbaijan distinguishing with her activity Tamella Muxtar qizi is one of the creators of the first New Azerbaijan party organization in ASOA. At present time she is the first organization chief of NAP in academy, and she is also a member of Nesimi region Elderly Women Council since 2008 year, a member of Nesimi region NAP Women Council and in Nesimi region NAP organization political council. She was chosen a representative to all congresses of NAP and Independent Azerbaijan Women. Tamella khanum is an author more than 30 social political articles. She was awarded with the medal "Progress" by the decree of great leader Haydar Aliyev. At the same time she was also awarded with the honor diploma of ETİHİK.She is a "Labor veteran". Tamella khanum is selflessness mother and lovely grandmother. She has 2 children and 2 grandchildren.





Ömür yolları həmişə hamar olmur. Taleyin daş - kəsəkli yollarında neçə - neçə çətinliklərlə qarşılaşırıq. Yaşayırıq, yaradırıq. Zamanın axarı yaşa dolduqca bizi müdrikləşdirir. Müdriklik dolu bir ömr yaşayan xanımımız, Azərbaycan Dövlət Neft Akademiyasının "Ümumi və qeyri üzvi kimya" kafedrasının müdiri, kimya elmləri doktoru, professor, Ağahüseynova Minirə Məmmədəli qızı 1949- cu ildə anadan olmuşdur. Azərbaycan Neft və Kimya İnstitutunun "Kimya - texnologiya" fakultəsini fərqlənmə diplomu ilə bitirmiş, mühəndis- kimyaçı-texnoloq ixtisasına yiyələnmişdir. Elm aləminə xüsusi maraq göstərən M. Ağahüseynova, 1977- ci ildə müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmiş, kimya elmləri namizədi alimlik dərəcəsini almışdır. Pedoqoji fəaliyyətinə 1979- cu ildə ADNA - nın "Ümumi və qeyri üzvi kimya" kafedrasında başlamış, əvvəlcə assistent, baş müəllim, dosent, professor və kafedra müdiri vəzifəsinədək yüksəlmişdir. 1989- cu ildə İ. M. Qubkin adına Moskva Dövlət Neft və Qaz Akademiyasında doktorluq dissertasiyası müdafiə edən, Minirə xanım, 1991- ci ildə professor elmi ada layiq görülmüşdür. 1993- cü ildən hazırkı dövrə qədər ADNA - nın "Ümumi və qeyri üzvi kimya" kafedrasının müdiri vəzifəsində çalışır. M. Ağahüseynova pedoqoji fəaliyyəti ilə yanaşı, elmi fəaliyyətini də müntəzəm olaraq davam etdirir. M.M Ağahüseynovanın rəhbərlik etdiyi kafedra ilə bir sıra müəssisə və elm ocaqları-Berlin Texniki universiteti, Kazan Dövlət Texnoloji Universiteti, Rusiya Elmlər Akademiyasının Kimya - Fizika İnstitutu və AMEA - nın Y. Məmmədəlıyev adına Neft Kimya Prosesləri İnstitutu arasında bağlanmış müqavilələr çərçivəsində nəzəri və tətbiqi problemlərin həlli üzərində işlər aparılır. M.M. Ağahüseynovanın əldə etdiyi yeni elmi nəticələr, 6 müəlliflik şəhadətnaməsi, 4 patentdə öz əksini tapmışdır və SSRİ Xalq Təsərrüfatı Nəaliyyətləri Sərgisinin gümüş və bürünc medallarına layiq görülmüşdür. O, 305 - dən artıq əsərin, 40 dərslik və dərs vəsaitinin müəllifidir. Professor M.M. Ağahüseynovanın tədqiqat işlərinin nəticələri MDB ölkələrində, həmçinin bir sıra xarici ölkələrdə, beynəlxalq simpozium və konfranslarda dərc edilmişdir. Ağahüseynova təkcə ölkəmizdə deyil, xaricdə də tanınan alimlərdəndir. O, 1995 ci ildə Nyu - York Elmlər Akademiyasının həqiqi üzvü, 1997 ci ildə Avropa Kimya Cəmiyyətinin üzvü, 1998 ci ildə isə, Beynəlxalq Eko Energetika Akademiyasının akademiki seçilmişdir. Minirə xanım eyni zamanda "SSRİ Kimya və Neftayırma Sənayesi əlaçısı" fəxri adına layiq görülmüşdür. M. Məmmədəli qızı, ADNA - da fəaliyyət göstərən D.0540205 İxtisaslaşdırılmış Şuranın (1997-2000), BDU - da fəaliyyət göstərən D 054.03.03 İxtisaslaşdırılmış Şuranın üzvü(2000 2003) olmuş, 2003 - dən hazırkı dövrə qədər Kimya Problemləri İnstitunun nəzdində fəaliyyət göstərən D 01. 021 Dissertasiya şurasının üzvü kimi yüksək ixtisaslı elmi - pedoqoji kadrların hazırlanması və attestasiyasında iştirak edir. M. Ağahüseynova Beynəlxalq Bioqrafiya Mərkəzi(-Kembridc, Böyük Britaniya) tərəfindən kimya sahəsində qazandığı nəaliyyətlərə görə 2000 ci ildə "Minilliyin adamı" fəxri adına layiq görülmüşdür. 2000 ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə professor M. Ağahüseynova "Tərəqqi" medalı ilə təltif olunmuşdur.



*Ağahüseynova Minirə*

Life ways are not always smooth. We meet with lots of difficulties in the stones and clods ways of fate. We are living and we are creating. Flow of the time makes us wiser as we bring up. Living a life full of wisdom, our lady, the chief of department "General and Inorganic chemistry" of Azerbaijan State Oil Academy, chemistry sciences doctor, professor, Agahuseynova Minire Memmedeli qizi was born in 1949 year. She graduated from Azerbaijan Oil and chemistry institute "Chemistry - technology" faculty with distinguished diploma, has been owned the profession engineer - chemistry - technology. Showing special interest to the science sphere M. Agahuseynova has defended the candidate dissertation with success in 1977 year and has got the scientist degree of chemistry sciences candidate. She began her pedagogical activity at the "General and Inorganic Chemistry" department of ASOA in 1979 year, and she has been raised to the post, firstly, assistant, head teacher, assistant professor, till professor and the chief of department. In 1989 year Minire khanum defended doctors dissertation at Moscow State Oil and Gas Academy named after I.M. Qubkin, and she was awarded the professor scientific name in 1991 year. Since 1993 year till present Minire khanum has been trying on the post of the chief in the "General and Inorganic Chemistry" department of ASOA. Adjoining her pedagogical activity M.Agahuseynova is continues her scientific activity regularly. Various works is carrying on solving theoretical and applied problems in limit contracts tide between the department which is leading by Agahuseynova and number of other institution and science centers - such as Berlin Technical University, Chazzan Technical State University, Chemistry - Physician Institute of Russian Sciences Academy and Oil Chemistry Processes Institute named after Y.Memmedeliyev of ANSA. The new scientific results received M.M. Agahuseynova's work has reflected on 4 patents and 6 authority certification. And all this achievements were awarded silver and bronze medals of USSR people economy achievements exhibitions. She is an author of more than 305 works, 40 textbooks and school supplies. The results of M.M. Agahuseynova's investigations were published on conferences international symposiums, also in ISU countries; and some other foreign countries. Agahuseynova is a well-known scientist not only in our country, but also in abroad. In 1995 year she is a real member of New-York Scientist Academy, in 1997 year she is a member of Europe Chemistry Society, but in 1998 year she is chosen the academician of International Eco-Energetic Academy. At the same time Minire khanum was awarded with honor name "Excellent of USSR Chemistry and Oil-Refining Industry". M.Memmedeli qizi has been a member of D.0540205 specialized council which is acting in ASOA (1997 - 2000), D.054.03.03 specialized council (2000 - 2003). From 2003 year till present time she participates at the attestation and preparing high specialized scientist pedagogical cadres, as a member of D. 01.021 dissertation council which is acting attached to Chemistry Problems Institute. M. Agahuseynova was awarded with honor name "Thousands years man" in 2000 year for her achievement earned in Chemistry sphere by International Biography Centre (Cambridge, Great Britain). In 2000 year professor M. Agahuseynova was awarded with the "Progress" medal decree of Azerbaijan Republic President.





Elm, Ulu Tanrımızın bəşər övladına bəxş etdiyi ən qiymətli töhfədir. Elmin zirvəsi müqəddəslik zirvəsidir. Bu zirvəni fəth etmək isə, Allahın ən sevdiyi bəndələrinə nəsib olur. Öz fitri istedadı, elm aləmində özünəməxsus xidmətləri olan, Azərbaycan Dövlət Neft Akademiyasının "Azərbaycan dili" kafedrasının müdiri, professor Salahova Aida Rza qızı, 1941-ci ildə erməni qəsbkarları tərəfindən işğala məruz qalmış Qərbi Azərbaycanın İrəvan şəhərində anadan olmuşdur. Orta təhsilini İrəvan şəhər 9 saylı M. T Axundov adına məktəbdə almış, İrəvan Dövlət Pedoqoji İnstitunun "İbtidai Təhsilin Pedoqokisı və Metodikası" fakultəsini bitirmişdir. Hələ orta məktəb illərindən bir sıra dərnəklərin fəal iştirakçısı və olimpiadaların qalibi olan A. Salahova ali məktəbdə oxuduğu illərdə də bir sıra konfrans və qurultaylara nümayəndə seçilmiş, müxtəlif diplom və tərifnamələrə layiq görülmüşdür. İlk əmək fəaliyyətinə 1965- ci ildə təhsil aldığı məktəbdə müəllim kimi başlamışdır. İrəvanda təhsil aldığı illərdə görkəmli dilçi alimlərin elmi biliklərindən yararlanan Aida xanımın, Ermənistanda tanınmış bir çox alimlərin yetişməsində də rolu az olmamışdır. 1975 ci ildə ADPİ - nun "Azərbaycan dili" kafedrasının dissertantı kimi fəaliyyətə başlayan, Aida Rza qızı 1981-ci ildə " Azərbaycanın xalq yazıçısı İ. Əfəndiyevin dil və üslub xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş, filologiya elmləri namizədi adına layiq görülmüşdür. 1984- cü ildə dosent adını almışdır. A. Salahova bir sıra respublika və beynəlxalq miqyaslı konfranslarda, simpoziumlarda iştirak etmişdir. Elmə böyük həvəsi olan Aida xanım, 1987-ci ildə İrəvanda fəaliyyət göstərən Marksizm və Leninizm Universitetinin "Siyasi kadrların hazırlanması" və "Beynəlxalq münasibətlər" fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1983- cü ildə doktorluq dissertasiyası üzərində çalışan Aida xanım, həmin ildə mövzunun başa çatdırılması üçün sənədləşdirmənin təsdiqini almışdır. O, 1989- cu ildən ADNA -nın "Azərbaycan dili" kafedrasının müdiri vəzifəsində çalışır. Elmi və pedoqoji fəaliyyəti ilə yanaşı, ictimai işlərdə də fəallıq göstərən A. Salahova Akademiyanın YAP Qadınlar Şurasının üzvüdür. O, 2 monoqrafiyanın, bir dərsliyin, bir neçə dərs vəsaitinin və 60 - dan çox elmi - publisistik məqalələrin müəllifidir.



*Salahova Aida*

Science is the most valuable gift endowed to mankind child of our great God. Top of the science is holiness top. But to conquer this top haves occasion the most slave loved by God. The innate talent, having specific services in the science world, the chief of "Azerbaijan language" department of Azerbaijan State Oil Academy, professor Salahova Aida Rza qizi was born in Yerevan city of Western Azerbaijan where is occupied by Armenian aggresses in 1941 year. She got her secondary education at school number 9 named after M.F. Akhundov in Yerevan city and graduated from "Pedagogic and Methodical of Primary Education" of Yerevan state pedagogical university. As even from the compulsory school years she was been an active participator of some circles and the winner of Olympiads Aida Salahova was chosen a representative to some conferences and meetings during her high school studying years, she was awarded with various diploma and honor certificates. She began her first work activity in 1965 year as a teacher at school where she studied. During her studying years in Yerevan she had got scientific knowledge from well-known linguistic scientist Aida khanum has been a great role in bringing up of number of well-known scientist in Armenian. In 1975 year beginning activities as a dissertant of "Azerbaijan language" department of ASPI, Aida Rza qizi has defended successfully the candidate dissertation on the theme "The Language style peculiarities of Azerbaijan national writer I. Efendiyev" and has got a name of the candidate of Philological sciences. In 1984 year she has got the name of assistant professor. Aida Salahova has taking part in some symposiums and International and republic conferences. As having a great interest to science Aida khanum graduated from "International Relations" and "Preparing Political cadres" faculty of Marxism and Leninism University in Yerevan with honor diploma. In 1983 year Aida khanum tried on the doctor's dissertation and at the same year she has got the affirmation the document for finishing the theme. From 1989 year she has been trying on the post of the chief of "Azerbaijan language" department of ASOA. Adjoining her scientific and pedagogical activity at the same time Aida Salahova takes an active part in public works too. She is a member of Women Society of new Azerbaijan party in academy. She is an author of 2 monographs, 1 textbook, some school supplies and more than 60 scientific publicist articles.







Dünyanın ən ali varlığı olan insan öz bəşəri xidmətləri ilə zaman - zaman tarixə iz salıb. Yaşayıb, yaradıb. Cəmiyyətə, xalqa xidmət edib. Sanki Tanrı özü göndərib onları bəşəriyyəti zənginləşdirmək, rövnəqləndirmək üçün.Ülvi və bəşəri hisslərlə yaşayan, Ulu Tanrımızın seçib, dəyərləndirdiyi, elm aləmindəki xidmətləri ilə özünəməxsus izlər salan vətənpərvər xanımımız Əliyeva Mahirə Xasay qızı 1936-cı ildə Qubadlı rayonunun Qubadlı qəsəbəsində qulluqçu ailəsində anadan olmuşdur. Orta təhsilini Qubadlıda almış, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin "Fizika - riyaziyyat" fakultəsini fərqlənmə diplomu ilə bitirmiş, təyinatla Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutuna göndərilmişdir. 1958-ci ildən AEA Fizika İnstitutunun "Yarımkeçiricilər fizikası" laboratoriyasında kiçik elmi işçi vəzifəsində çalışmış, 1966-cı ildə ADU - nun elmi şurasında "TİSe və İnSe monokristallarının alınması və onların fotokeçiriciliyinin tədqiqi" mövzusunda dissertasiya işi müdafiə etmiş, fizika-riyaziyyat elmləri namizədi diplomunu almışdır. 1967-ci ildən AEA Fizika İnstitutunun "Yarımkeçiricilər fizikası" laboratoriyasının baş elmi işçisi kimi fəaliyyətini davam etdirir. M. Əliyeva Azərbaycanda ilk dəfə $A^3 B_6$ və $A^3 B^3 C_2^6$ yarımkeçiricilərinin fotoelektrik, fotolüminissent, fotoxol və termostimullaşmış keçiricilik xassələrini kompleks üsullarla tədqiq etmiş, 1968-ci ildən "Yarımkeçiricilərdə qeyri tarazlıqlı proseslərin tədqiqi" ilə məşğul olan qrupa rəhbərlik etmişdir. 1971 -ci ildə "Baş Elmi İşçi" diplomuna layiq görülmüşdür. M.Əliyeva apardığı tədqiqatların nəticələrini SSRİ, ümumdünya və respublika konfranslarında müzakirə etmişdir. O, 96 elmi məqalənin, 6 müəlliflik şəhadətnaməsinin və ixtiranın müəllifidir. Elmi əsərləri respublika və xarici ölkə mətbuatında nəşr olunmuşdur. Onun rəhbərliyi altında beş fizika - riyaziyyat elmləri namizədi yetişmişdir. Onlardan ikisi hazırda fizika - riyaziyyat elmləri doktorudur. Elmi - pedoqoji fəaliyyətə 1986 - cı ildən Neft və Kimya İnstitutunda başlayan M. Əliyeva əvvəlcə həmin institutunun Sumqayıt filialında, sonra isə Sumqayıt Texniki İnstitutunda dosent vəzifəsində çalışmışdır. 1990-cı ildə "$A^3 B_6$ və $A^3 B^3 C_2^6$ yarımkeçiricilərinin fotohəssaslığı və onlarda yükdaşıyıcıların rekombinasiyası" mövzusunda dissertasiya müdafiə etmiş, 1991 - ci ildə fizika - riyaziyyat elmləri doktoru diplomunu almışdır. 1991 - ji ildən etibarən mərhum prezidentimiz Heydər Əliyevin göstərişi ilə Mahirə xanım Azərbaycan Dövlət Neft Akademiyasının (ADNA) fizika kafedrasına professor vəzifəsinə təyin edilmişdir. ADNA - da işlədiyi müddətdə yuxarı kurs tələbələrinə və maqistrlərə "Bərk cisimlər fizikzsı", "Disklokasiyalar nəzəriyyəsi","Səth enerjisi", fənnlərini tədris etmiş və həmin fənnlərin daha yaxşı mənimsənilməsi üçün "Bərk cisimlər fizikası" adlı dərsliyi, və " Kristallarda disklokasiyalar" adlı dərs vəsaitini, "Ümumi fizika kursu fənninə aid məsələ həllinə nümunələr" metodik işini və.s.nəşr elətdirmişdir.M. Əliyeva 3 övlad anasıdır. İki qızı və bir oğlu var.



Əliyeva Mahirə

Man the higher being of the world has made a trace on the history time by time with her human services. They have lived and created, have served to society and people. As if the great God himself has sent them for reaching and making the society brilliant. Living with lofty and human feelings, chosen and valued by great God, making special traces with her services on science world, patriotic lady Eliyeva Mahire Xasay qızi was born in employee in Qubadli village of Qubadli region. She got her secondary education in Qubadli and graduated from "Physics - Mathematics" faculty of Azerbaijan State University named after S. M. Kirov with honored diploma. She was sent to Physics Institute of Azerbaijan Science Academy by appointment. From 1958 year Mahire khanum has tried as a junior scientific worker in "Semi-Conductors Physics" laboratory of ASA Physics Institute. In 1966 year she has defended a dissertation on theme of "Getting of TISE and INSE mono-crystal and researching of their photo conductor" and she has got a diploma of physics - mathematics sciences candidate.

Since 1967 year continuing her activity as a head scientific worker of "Semi-Conductors Physics" laboratory in ASA Physics Institute Mahire Eliyeva has investigated firstly A3B6 and A3B3C62 semi - conductor's photo electric, photo luminescent, photo hall and termostimuled conducting properties and their complexes methods, but from 1968 year Mahire khanum has lead the group being busy with "The invention of unbalances process in semi-conductor". In 1970 year she was awarded with "Head Scientific Worker" diploma. M. Eliyeva has discussed the results pf her investigation in USSR International and republic Conferences. She is an author of 96 scientific articles, 6 authority certifications and invention her scientific work was published in Republic and foreign press. Under the leading of M. Eliyeva 5 Physics - mathematics sciences candidates were grown up. At present 2 of them are Physics - Mathematics sciences doctors. Beginning her scientific pedagogical activity from 1986 year in Oil and Chemistry Institute M. Eliyeva has firstly tried on the post of assistant professor in the branch of Sumgayit of the same Institute and then Sumgayit Technical Institute. In 1990 year she has defended the dissertation on the theme "The recombination of A3B6 and A3B3C62 semi - conductor's photo sensitiveness and their electric charge" and she has got Physics - mathematics sciences doctor title in 1991 year. From 1991 year by direction of late President Heyder Eliyev, Mahire khanum was appointed on the post of professor in Azerbaijan State Oil Academy (ASOA) in the Physics department. During her working years in ASOA she has taught the upper course students and masters the subjects "Solid Physics", "The theory of Disclocasitions", "Surface Energy" and for assimilating much better this subjects Mahire khanum has written "Solid Physics" annual book, "Disclocasition in crystal" annual book and the methodic work "Examples for solving sum, to the subject General Physics Course" and etc. M. Eliyeva is married has 3 children - 2 daughter and a son.







Qasımova Elmira

Elm zəhmət, sənət fədakarlıq tələb edir. Elmlə məşğul olanlar, bəşəri hisslərlə yaşayanlar isə zamanın ən müdrik insanlarıdır. Ali və ülvi hisslərin işığında, zəhmət və fədakarlıq, müdriklik dolu bir ömür yaşayan xanımımız, ADNA - nın "Rus dili" kafedrasının müdiri, dosent Qasımova Elmira Əli qızı M. F. Axundov adına Azərbaycan Dövlət Pedoqoji Dillər İnstitunu bitirib. İlk əmək fəaliyyətinə 1961- ci ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunun (indiki Dövlət Neft Akademiyasının) "Rus dili" kafedrasında müəllim, 1964 cü ildən baş müəllim, 1965- ci ildən "Ümumi Texniki" fakultədə dekan müavini vəzifəsində çalışır. E. Qasımova 1976- cı ildə institutun dillər üzrə metodseksiyasının üzvü, 1985 - 1988 ci illərdə "İstilik Texnikası"fakultəsinin Elmi Şurasının üzvü olub. 1989- cu ildən hazırkı dövrə qədər "Rus dili" kafedrasının müdiri vəzifəsini icra edir. Elə bu ildən o, SSRİ Dövlət Komissiyasının Xalq Təhsili Nazirliyi tərəfindən dosent adını almışdır. E. Qasımova ADNA - nın Elmi Şurasının və "Qaz- Neft - Mədən" fakultəsinin Elmi Şurasının üzvü, Akademiyanın Elmi Metodiki Şurasının dillər üzrə metodiki komissiyasının sədridir. Respublikada keçirilən elmi konfranslarda məruzələrlə çıxış edən E. Qasımova M. Lomonosov adına Moskva Dövlət Universitetində və Xalqlar Dostluğu Universitetində təcrübə keçib. Akademiyanın ictimai - siyasi həyatında fəal iştirak edir. Daim dövlətçiliyimizi dəstəkləyən Elmira xanım, Yap - ın üzvüdür. H. Əliyev və Neft Universitetinin məşğələlərində də müntəzəm olaraq çıxış edir. Pedoqoji fəaliyyəti ilə yanaşı monoqrafiya və bir çox elmi, elmi - metodiki məqalələrin müəllifidir. Ömrünü başdan - başa təhsilə həsr edən və bu sahədə dəyarli xidmətləri olan Elmira xanımın əməyi işlədiyi illər ərzində həmişə yüksək qiymətləndirilmiş, dəfələrlə Akademiyanın rəhbərliyi və Təhsil Nazirliyi tərəfindən təşəkkürlər, pul mükafatları və fəxri - fərmanlarla təltif olunmuşdur. Onun haqqında "Azərbaycan Qadınları"ensiklopediyasında məlumat verilmişdir. E. Qasımova müstəqil Azərbaycanın I- II Qadınlar Qurultayının nümayəndəsi olmuşdur. 2000- ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının 80 illiyi münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə "Əməkdar müəllim"fəxri adına layiq görülmüşdür. Əmək veteranıdır. Ailəlidir. İki övladı, 5 nəvəsi var.

Science demands labor, and art demands selflessness. The people who are busy with science, living mankind feelings are the wisest of time. Living a life full of wisdom, selflessness and hard-working on the light of highest and lofty feelings, our lady, the chief of "Russian language" department of ASOA, assistant professor Qasimova Elmira Eli qizi graduated from Azerbaijan State Pedagogical Languages Institute named after M. F. Akhundov. She began her first work activity in 1961 year, as a teacher at "Russian Language" department of Oil and Chemistry Institute named after M. Ezizbeyov. (now State Oil Academy). Since 1964 year she has been trying on the post of head teacher, from 1965 year dean assistant of "General Technical" faculty. In 1976 year Elmira Qasimova was a member of methodical section according the languages of institute, during 1985 - 1988 years she was a member of scientific council of "Technique of Warmth" faculty. From 1989 year till present time Elmira khanum is fulfilling the post of the of "Russian Language" department. Since that year she has got the assistant professor title by USSR State Commission of Ministry of Public Education. Elmira khanum Qasimova is a member of scientific council of "Gas, Oil - field" faculty and a member of Scientific council of ASOA. She is a chief of methodological commission according languages of Scientific Methodic Council of Academy. Elmira khanum has presented with reports at scientific conferences holding in our Republic, and she has also passed experience at People Friendship University and Moscow State University named after M. Lomonosov. She takes an active part on the social - political life of Academy. Always supporting our State system Elmira khanum is a member of New Azerbaijan Party. ------- Elmira khanum takes place regularly on the seminars of Oil University. Adjoining her pedagogical activity at the same time she is an author of monographs, some scientific, scientific - methodic articles. Devoting her life completely to the education and having valuable services on this sphere Elmira khanum's work was always awarded during her working years. And she was awarded with thankful, money prizes and honor diploma by Education Ministry, and the leaders of Academy repeatedly. There are given information about her in the "Azerbaijan Women" encyclopedia. Elmira khanum Qasimova has been a representative of I-II Women Conference of Independent Azerbaijan. In 2000 year she was awarded "Honored Teacher title" by decree of Azerbaijan Republic President Haydar Aliyev for 80 years anniversary of Azerbaijan State Oil Academy. She is labor veteran, is married and has 2 children and 5 grandchildren.







İnsan övladı öz dəyərli xidmətləri ilə tarixin yaddaşında əbədi kök salır. Tarixi keçmişimiz illər, əsrlər boyu nəsillər tərəfindən tədqiq edilir, öyrənilir. Zamanın, dövrün tələbinə uyğun, elm aləmində dəyərli xidmətləri ilə fərqlənən, layiqli bir ömr yaşayan xanımımız, Məhərrəmova Lətafət Musa qızı 1955 ci ildə anadan olmuşdur. Bakı Dövlət Universitetinin "Kimya" fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə Azərbaycan Respublikası Hidrometeroloji Xidmət İdarəsində başlamışdır. 1982 ci ildən başlayaraq, ADNA - da baş laborant, kicik elmi işci, assistent, dosent, 1998 - 2000 ci illər ADNA "kimya texnologiya"fakultəsinin dekan müavini, 2000- 2005 ci illər ADNA "Analitik kimya" kafedrasının müdiri vəzifələrində calışmışdır. 1988 ci ildə kimya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüş, 1999 cu ildə dosent elmi adını almışdır. 1991 ci ildən hazırkı dövrə qədər ADNA - da fəaliyyət göstərən Dissertasiya Şurasının elmi katibidir. Elmi fəaliyyətini müntəzəm olaraq davam etdirən, Lətafət xanım 70-dən cox elmi məqalənin, müəlliflik şəhadətnaməsi və metodik vəsaitlərin müəllifidir. Vətənini, xalqını dərin məhəbbətlə sevən, ömrünü bütünlükdə elmə həsr edən, daim dövlətçiliyimizi dəstəkləyən bu fədakar xanım, ADNA da Yeni Azərbaycan Partiyasının ilk təşkilatının sədr müavinidir. İşlədiyi illər ərzində Lətafət Məhərrəmovanın işi həmişə qiymətləndirilmiş və o, Azərbaycan Respublikası Təhsil Nazirliyi və ADNA Həmkarlar İttifaqı Komitəsi tərəfindən fəxri - fərmanla təltif edilmişdir. Ailəlidir. Bir övladı və bir nəvəsi var.



Məhərrəmova Lətafət

Mankind child with her valuable services are eternal rooted in the history memory. Our historical past is invented and taught by nations for years and centuries. Distinguishing with her valuable services on science sphere suitable demand of time, living decently life, our lady Meherremova Letafet Musa qizi was born in 1955 year. She graduated from Baku State University "Chemistry" faculty. Letafet khanum began her first work activity in Azerbaijan Republic Hydro-methodical Service Office. From 1982 year she has been tried on the post of head assistant laboratory in ASOA, junior scientific worker, assistant, assistant professor, during 1998 - 2000 years assistant dean of "Chemistry Technological" department of ASOA, in 2000 -2005 years a chief of "Analytic Chemistry" department of ASOA. In 1988 year she was awarded the scientist degree as chemistry sciences candidate, but in 1999 year she has got assistant professor scientific name. From 1991 year till present time Letafet khanum is a scientist secretary of Dissertation Council which is acting in ASOA. Continuing her scientific activity regularly, Letafet khanum is an author of more 70 scientific articles, authority certification and methodical manuals. Loving her people and country with deep love and devoting all her life to science always supporting our State system, this selflessness lady is chief assistant of first organization of New Azerbaijan Party in ASOA. During her working years Letafet Meherremova's is always prized and she was awarded with honor diploma by Trade Union Committee of ASOA and by Educational Ministry. She is married and has a child and a grandchild.


Həbibova Almas

Ülvi və bəşəri hisslər, ali məqsədlər uğrunda mübarizə, daxilən Tanrı vergili insanlara məxsusdur. Onların cəmiyyət və xalq üçün xidmətləri isə tarixin səhifələrində illər, əsrlər keçsə belə əbədi iz salır, yaşayır. Elm aləmində dəyərli xidmətləri olan xanımımız, ADNA - nın "Üzvi Kimya" kafedrasının dosenti Həbibova Almas Qüdrət qızı 1946- cı ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakıda almış, Azərbaycan Neft və Kimya İnstitutunun "Kimya - Texnologiya" fakultəsini bitirmişdir. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun əyani aspiranturasını bitirmiş, "Üzvü kimya" ixtisası üzrə "Tərkibində hidroksil olan bir sıra asetilen birləşmələri sahəsində tədqiqatlar" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. İlk əmək fəaliyyətinə 1976- cı ildə (1989 cu ilədək) institutun "Üzvi Kimya" kafedrasının "Heteroatomlu asetilen törəmələri" problem laboratoriyasında elmi işçi vəzifəsi ilə başlamış, kafedranın elmi - tədqiqat işləri üzrə məsul icraçısı olmuşdur. A. Həbibova 1990- ci ilin əvvəlindən "Üzvü Kimya" kafedrasının assistenti, 1992- ci ildən hazırkı dövrə qədər kafedranın dosenti vəzifəsində çalışır. O, 50 - dən artıq elmi- metodiki əsərlərin, bir dərs vəsaiti və bir dərsliyin həmmüəllifidir. O, dəfələrlə öz elmi işləri ilə beynəlxalq konqresdə (Bolqarıstan, Sofiya .1987) və reqional konfranslarda (Tbilisi 1975; İrkutsk 1977; Bakı 1979;Yaroslavl 1987; Aşqabad 1989; Daşkənd 1990; Ufa 1991; Bakı 1994; Moskva 1994) iştirak etmiş və məruzələrlə çıxış etmişdir. Almas Qüdrət qızı Azərbaycanda ilk dəfə çap edilmiş "Zərif üzvi sintezin prinsipləri" dərs vəsaitinin müəlliflərindəndir. Respublikamızda ilk dəfə olaraq bu fənnin tədrisi "Üzvi Kimya" kafedrasında A.Q. Həbibova tərəfindən aparılmışdır. O, 2002- ci ildə nəşr olunmuş "Biokimyanın əsasları" dərsliyinin həmmüəllifidir. A. Həbibova İxtisaslaşdırılmış Dissertasiya Şurasının üzvüdür. ADNA - nın 80 illik yubileyi ilə əlaqədar olaraq, o, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür. Elmi və pedoqoji fəaliyyəti ilə yanaşı, ictimai işlərdə də fəal iştirak edən A. Qüdrət qızı YAP - ın üzvüdür. Ailəlidir.







Lofty and human feelings are belonging only to the people who are god tax inwardly, and fighting for high purposes. But their services for people and society makes eternal traces and lives on the pages of history even the years and centuries passed. Having valuable services on science area our lady, the assistant professor of "Organic Chemistry" department of AZSOA, Hebibova Almas Qudret qizi was born in Baku in 1946 year. She has got her secondary education in Baku and she graduated from "Chemistry - Technology" faculty of Azerbaijan Oil and Chemistry Institute. Then Almas khanum graduated from full time master course of Azerbaijan State Oil and Chemistry Institute. Almas khanum has defended candidate dissertation on the theme "Inventions on the sphere of some acetylene joins which has hydroxyl in its chemical composition" according "Organic Chemistry" profession. In 1976 year she began her first work activity on the post of scientific worker "Hetero - atom acetylene reproduction" problem laboratory of "Organic Chemistry" department of Institute (till 1989 year) and she was been responsible executor according scientific - research work of department. From the beginning of 1990 year Almas khanum was an assistant "Organic Chemistry" department, from 1992 year till present time she is trying on the post of assistant professor of department. She is a mutual author of more than 50 scientific methodic works, one school supply and 1 textbook. She has repeatedly participated with her scientific works in international congruence (Bulgaria, Sofia 1987) and regional conferences (Tbilisi 1975; Irkutsk 1977; Baku 1979; Yaroslav 1987; Ashgabad 1989; Dashkend 1990; Ufa 1991; baku 1994; Moscow 1994) and she has reported by her speeches. Almas Qudret qizi is one of authors "Fine organic synthesis principles". manual published in Azerbaijan firstly. Teaching this subject in "Organic Chemistry" department firstly was taught in our Republic by A.Q. Hebibova. She is a co-author of "Bio chemistry bases" textbooks which was published in 2002 year. A. hebibova is a member of Specialized Dissertation Council. Connecting with 50 years anniversary of ASOA she was awarded Azerbaijan Republic Honored Teacher title by the decree Azerbaijan Republic President. Adjoining her scientific and pedagogical activity Almas khanum takes an active part in social life and she is a member of NAP. She is married.





Dahi şəxsiyyətlər yetişdirən bəşər, kainat yaranandan bəri miyon - milyon elmli və müdrik insanların əbədi yaşar beşiyinə çevrilib. Bu insanların ömür səlnaməsi əsrlər boyu hafizələrdə yaşayıb, tarixə çevrilib. Öz elmi xidmətləri ilə əsrlər keçsə də belə zaman - zaman tariximizdə yaşayacaq xalqımızın fəxri xanımı, Azərbaycan Dövlət Neft Akademiyasının "Üzvi maddələrin texnologiyası və sənaye ekologiyası" kafedrasının müdiri Səlimova Nigar Əzizağa qızı 1942- ci ildə Bakıda anadan olmuşdur. İbtidai təhsilini Bakının 134 saylı orta məktəbində almış, təhsilinin qalan hissəsini isə, 6 saylı orta məktəbdə davam etdirmişdir. M. Əzizbəyov adına Neft və Kimya İnstitunun (ADNA) "Kimya texnologiya" fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə, gənc mütəxəsis kimi təyinatla Bakı Neft - Qaz zavodunda başlamış, ardıcıl olaraq, laborant, mühəndis və zavod proseslərinin tədqiqi sexinin rəis müavini vəzifələrində çalışmışdır. Zəhmətsevərliyi, yüksək səviyyədə elmi fəaliyyəti ilə elmə qiymətli töhfələr verən N. Səlimova, 1965- ci ildə "SSRİ neft emalı və neft kimya əlaçısı" döş nişanı, 1996-cı ildə isə "SSRi əməkdar səmərələşdiricisi və ixtiraçısı" fəxri adına layiq görülmüşdür. 1965- ci ildə aspiranturaya daxil olan Nigar Əzizağa qızı 1968- ci ildə müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmiş, texniki elmlər namizədi elmi dərəcəsi almışdır. 1969- cu ildə müsabiqə yolu ilə "Neftin emalı texnologiyası"kafedrasının assistenti vəzifəsinə, 1971-ci ildə müsabiqə yolu ilə, həmin kafedranın dosenti vəzifəsinə təyin edilmişdir. Dövlətimiz üçün neçə - neçə yüksək ixtisaslı mütəxəsislərin yetişməsində böyük əməyi olan N. Səlimova doktorluq dissertasiyası müdafiə edərək, professop elmi adını almışdır. 2000-ci ildən "Üzvi maddələrin texnologiyası və sənaye ekologiyası" kafedrasının müdiridir. 2008- ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. Görkəmli və fədakar elm xadimi Nigar Əzizağa qızı 180 - dən çox elmi əsərin, 20 dərs və dərs vəsaiti, 20 patent və müəlliflik şəhadətnaməsinin müəllifidir. Beynəlxalq Ekoenerqoakademiyanın akademikidir. Ailəlidir. İki övladı var.

*****

Mankind bringing up genius since universe have been created has changed eternal living place of million - million scientific and wiser people. Life chronicle of this people have lived on the memories centuries and overturned to the history. The favorable lady will live on the history as passing even more 100 centuries with her scientific services. This favorable lady, the chief "Organic matters technology and industry ecology" department of Azerbaijan State Oil Academy Selimova Nigar Ezizagha qizi was born in Baku in 1942 year. She got her primary education at school number 134 in Baku, remainder part of her education she continued at school number 6. Nigar khanum graduated from "Chemistry - technology" faculty of Oil Chemistry Institute (ASOA) named after M. Ezizbeyov. As a younger specialist by appointment she began her first work activity at Baku Oil - Gas plant, systematically, and she has tried on the post assistant laboratory engineer and chief assistant of investigation department in process plant. Giving valuable gifts to science with her hard - working and high level scientific activity Nigar khanum Selimova was awarded breast medal "Diligent of USSR oil refining and oil chemistry" in 1965 year, but in 1996 year she was given honor name "USSR's honored rationalizer and inventor". In 1965 year Nigar Ezizagha qizi entered master course, and 1968 year she has defended candidate dissertation with success. And she has got the scientific degree candidate technical sciences. In 1969 year she was appointed on the post of assistant "Oil refining technology" department by competition way, in 1971 year again by competition, on the post of assistant professor of the same department. Having a great work on bringing up number of high professional specialists for our government Nigar khanum Selimova has defended doctors dissertation and got professor scientific name. Adjoining her pedagogical activity, since 2000 year she has been a chief of ""Organic matters technology and industry ecology" department. In 2008 year Nigar khanum was awarded with honorary title of "Honor teacher" by order Azerbaijan Republic President Ilham Aliyev. The famous and selflessness scientific lady Nigar Ezizagha qizi is an author more than 180 scientific works, 20 textbooks and school supplies, 20 patents and authority certification. She is an academician of International Eco - Energy Academy. She is married and has 2 children.





*****

İncə ruhlu elmli, fədakar, qeyrətli və mübariz Azərbaycan qadınları tariximizin ən qiymətli inciləri, elmimizin çırağıdırlar. Elm sahəsində özünəməxsus dəyərli xidmətləri olan fədakar xanımımız, Azərbaycan Dövlət Neft Akademiyasının "Fizika" kafedrasının dosenti Ayvazova Fəridə Vəli qızı 1937 - ci ildə vətənimizin ən dilbər guşələrindən birində, şer - sənət yurdu Qazax rayonunun Ahağı Salahlı kəndində anadan olmuşdur. Orta təhsilini Qazax şəhər 2 saylı məktəvində almış, məktəbi medalla başa vurmuşdur. Azərbaycan Dövlət Universitetinin "Fizika" fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1960 - cı ildən 1963 - cü ilədək Mendeleyev adına Neft Kimya Prosesləri Elmi - Tədqiqat İnstitutunda kiçik elmi işçi vəzifəsi ilə başlamışdır. 1963 - cü ildən Azərbaysan Dövlət Neft Akademiyasının "Fizika" kafedrasında əvvəl assistent, baş müəllim vəzifələrində çalışmış, hazırda kafedranın dosentidir. Pedoqoji fəaliyyəti ilə yanaşı elmi fəaliyyətini də müntəzəm olaraq davam etdirən F. Ayvazova 1988 - ci ildə neft sahəsində "Yuyucu məhlulların istilik fiziki xassələrinin temperatur asılılığı" mövzusunda dissertasiya işi müdafiə etmiş, texnika elmləri namizədi adını almışdır. İşinə məsuliyyəti, zəhmətsevərliyi ilə fərqlənən bu xanım, 40 - dan çox elmi və elmi metodiki məqalələrin müəllifi, bir sıra kitabların həmmüəllifidir. Fəridə xanım, bir çox respublika daxili və beynəlxalq konfransların iştirakçısı olmuşdur. Fədakar elm xadimi, gözəl xanım Fəridə Ayvazova eyni zamanda övladlarını dərin məhəbbətlə sevən müqəddəs ana və sevimli nənədir. İki oğlu dörd nəvəsi var.



*********

Delicate emotional, educated, selflessness, self-esteemed and energetic Azerbaijan women are the most valuable pearls of our history and the lights of our science. Having special valuable services on the science sphere, our selflessness lady, the associate professor of "Physics" department of Azerbaijan State Oil Academy Ayvazova Feride Veli qizi was born in one of the wonderful places of our country, poem - art land Qazakh region, Ashagi-Salahli village in 1937. She got her secondary education at Qazakh school number 2 and finished the school with the medal. Feride khanum graduated from Azerbaijan Satet University "Physics" faculty. From 1960 up to 1963 she began her first work activity as a junior scientific worker at Oil Chemistry Processes Scientific Investigation Institute named after D. Mendeleyev. From 1963 she has tried on the post of first assistant, then head teacher but now the associate - professor of "Physics" department in ASOA. Adjoining her pedagogical activity Feride khanum continues her scientific work regularly, too. In 1988 she defended her dissertation work on theme about oil "The Temperature Dependence of heat-engine physical properties of washing solutions" and she has received the name of technical sciences candidate. Feride khanum is an author more than 40 scientific and scientific - methodic articles and co-author of some books. She is a representative of some Republic inside and international conferences. She is a sacred mother loving her children deeply and beloved grandmother. She has 2 sons and 4 grandchildren.



Məmmədova Rəhimə

Elm müqəddəslik zirvəsidir. Ömrlərini elmə həsr edən alimlərimiz isə səmada bərq vuran ən parlaq ulduza bənzəyir. Öz sehri ilə fikirlərə aydınlıq gətirən, kainata nur saçan ilahi dəyərləri olan bir ulduza. Yüksək potensial enerjiyə malik alim xanımımız, ADNA - nın "Xarici Dillər" kafedrasının müdiri, filologiya elmləri namizədi, dosent Rəhimə Vasif qızı Məmmədova 1959- cu ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakıdakı 181 saylı məktəbdə almış, məktəbi əla qiymətlərlə başa vurmuşdur. ADU - nun ingilis və alman dili müəllimi ixtisası üzrə ingilis dili fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. İlk əmək fəaliyyətinə təyinatla Dəvəçi rayonunun Rəhimli kənd orta məktəbində ingilis dili müəllimi vəzifəsi ilə başlamışdır.1986 -cı ildə Azərbaycan Dövlət Neft Akademiyasının "Xarici Dillər" kafedrasında böyük laborant, müəllim kimi pedoqoji fəaliyyətini davam etdirən R. Məmmədova 1993- cü ildən həmin kafedranın dosentidir. Rəhimə Vasif qızı 1992- ci ildə İngilis və Azərbaycan dili materialı əsasında "İşarə əvəzliklərinin işlənmə xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, filologiya elmləri namizədi elmi dərəcəsi və dosent elmi adını almışdır. Kafedraya rəhbərliyi illərində Heydər Əliyevin respublika rəhbərliyinə gəlişi və təhsil sahəsində apardığı islahatlar R. Vasif qızının rəhbərlik etdiyi kafedranın fəaliyyətinə də öz dərin təsirini göstərmiş və elm sahəsində nəaliyyətlər əldə edilmiş, zəngin elmi maddi baza yaradılmışdır. Pedoqoji fəaliyyəti ilə yanaşı, Rəhimə xanım, müntəzəm olaraq elmi fəaliyyətini də davam etdirir. O, respublikanın ali məktəblərində keçirilən elmi konfranslarda yaxından iştirak edir. 37 elmi əsərin müəllifidir. R. Məmmədova ADNA - da işlədiyi müddətdə İngiltərədə və TEMPUS-TASİS proqramı üzrə İtaliyada və Fransada təcrübə keçmişdir. Ömrünü ölkəmiz üçün yüksək ixtisaslı mütəxəsislər hazırlanması və elm kimi müqəddəs bir işə həsr edən Rəhimə xanımın fəaliyyəti, rəbərlik tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Təhsil Nazirliyi kollegiyasının qərarı ilə R.Məmmədopva yüksək ixtisaslı kadrların hazırlanmasında səmərəli elmi - pedoqoji fəaliyyətinə görə və Akademiyanın 80 illik yubileyi münasibəti ilə Fəxri - Fərmanla təltif edilmişdir. O, 2006- cı ildə "Azərbaycanın Tanınmış Alimləri" Beynəlxalq layihəsinin qalibi olmuş və "XXİ Əsrin Tanınmış Alimi" Beynəlxalq diplomu ilə təltif olunmuşdur. Ailəlidir.







Science is holiness top. Our scientists devoting their life to science look like the star which is shining on the sky. Looking like a star which has divine values brightening the whole world. And they are bringing clearness to all thoughts with their mysteries. Having high potential energy scientist lady, the chief of "Foreign Languages" department of ASOA, candidate of philological sciences, an assistant professor Rehime Vasif qizi Memmedova was born in Baku in 1959 year. She got her secondary education at school number 181 in Baku and finished school with excellent mark. Rehime khanum graduated from English language faculty according the profession "English and German language teacher" of ALU with honor diploma. She began her first work activity as an English teacher at Rehimli village secondary school of Devechi region by appointment. In 1986 year she has continued her pedagogical activity as a head assistant laboratory and as a teacher in "Foreign Languages" department of Azerbaijan State Academy. But from 1993 year R. Memmedova is an assistant professor of the same department. In 1992 year Rehime Vasif qizi has defended candidate dissertation on the theme "Using peculiarities of demonstrative pronouns" in order English and Azerbaijan languages materials, and she has got scientific degree of philology sciences candidate and an assistant professor scientific title. During her leading years to department Heydar Aliyev's coming back to Republic leadership and his reforms carrying out on educational sphere has influenced deeply to the activity o the departments leading by R. Vasif qizi and there were achieved successes in the department and were creative rich scientific material basic. According her pedagogical activity Rehime khanum continues her scientific works regularly. She takes part closely in scientific conferences holding at high schools of Republic. Rehime Vasif qizi is an author of 37 scientific works. R. Memmedova has passed experience in England and according to TEMPUS - TASIS programs in Italy and France during her working years in ASOA. Devoting her life to the sacred work as a science and preparing high professional specialists for our country Rehime khanum's activity was always prized highly by leaders. By the decision of Azerbaijan Republic Education Ministry board R. Memmedova was awarded honorable diploma on the occasion of 80 years anniversary of Academy and for efficient scientific pedagogical activity in preparing high professional cadres. In 2006 year she was a winner of "Azerbaijan Well-known Scientists" International project and she was awarded "XXI century Well-known Scientist" International diploma.




Məmmədova Lətifə

Ziya nuru insanların dərin təxəyyülü, güclü elminin bəhrəsidir. Bu nurdan güc alıb bəhrələnənləri, xalqının xoş güzaranı, ölkəsi üçün çalışanları isə xalq özü qiymətləndirir, sevir. Vətənini, xalqını dərin məhəbbətlə sevən, elm aləmində dəyərli xidmətləri olan xanımımız, ADNA - nın "Yüksəkmolekullu birləşmələrin texnologiyası" kafedrasının dosenti, Məmmədova Lətifə Rəsul qızı 1959- cu ildə Qutqaşen rayonunda anadan olmuşdur. Qutqaşen Şəhər 1 saylı orta məktəbini əla qiymətlərlə başa vurmuş, M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun "Kimya texnologiya" fakultəsini bitirmiş, Lenin təqaüdçüsü olmuşdur. İlk əmək fəaliyyətinə təyinatla Bakı Yod zavodunda mühəndis - kimyaçı vəzifəsi ilə başlamışdır. 1986-1988- ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasının "Yüksəkmolekullu birləşmələrin texnologiyası" kafedrasının əyani aspirantı olan L. Məmmədova 1990- cı ildə Moskva şəhərində "Mineral gübrələrin texnologiyası" ixtisası üzrə namizədlik dissertasiyası müdafiə etmiş və texnika elmləri namizədi elmi dərəcəsi almışdır. L. Rəsul qızı 1988 - 1994 cü illərdə "Yüksəkmolekullu birləşmələrin texnologiyası" kafedrasında elmi işçi, 1994 - 1996 cı illərdə assistent vəzifələrində işləmiş, 1996-cı ildən hazırkı dövrə qədər "Yüksəkmolekullu birləşmələrin texnologiyası" kafedrasının dosentidir. 1998 ci ildən dosent elmi adını alan L. Məmmədova 1995 - 1997 ci illərdə "Kimya texnologiya" fakultəsi Elmi Şurasının elmi katibi olmuş, 1997- ci ildən hazırkı dövrədək Azərbaycan Dövlət Neft Akademiyasının tədris şöbəsinin rəisi vəzifəsində çalışır. Ömrünü elmə, vətən övladlarının yüksəkixtisaslı mütəxəsis kimi yetişməsi naminə, ali bir məqsədə həsr edən Lətifə Rəsul qızının əməyinə yüksək qiymət verilmiş və o, 2000- ci ildə "Əməkdar Müəllim" fəxri adına layiq görülmüşdür. 2001- ci ildə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Azərbaycan Respublikası Komitəsinin fəxri - fərmanı ilə təltif edilən L. Məmmədova 50 - yə yaxın elmi və elmi- metodiki işlərin, o cümlədən 4 patent, 3 müəlliflik şəhadətnaməsi və 3 tədris - metodiki vəsaitin müəllifidir.







Light of knowledge is a harvest of deep imagination, and strong science. The people who benefit from this light as getting power, trying for their country and pleasant life of people are prized and loved by people themselves. Loving her country and people with deep love, having valuable services on science sphere, our lady, an assistant professor of "High molecule joins technology" department of ASOA, Memmedova Letife Resul qizi was born in Qutqashin region in 1959 year. She finished school number 1 in Qutqashin town with excellent marks, graduated from "Chemistry technology" faculty of Azerbaijan Oil and Chemistry Institute named after M. Ezizbeyov. She was a student of Lenin grand. She began her first work activity on the post of engineer - chemist in Baku Iodine plant. During 1986 -1988 years she has been full time master course student of "High molecule joins technology" department of Azerbaijan State Oil Academy, in 1999 year Letife Memmedova defended candidate dissertation according the profession "Mineral fertilizers technology" department in Moscow city and she has got scientific degree candidate technical sciences. During 1988 - 1994 years Letife Resul qizi has worked on the post of scientific worker in "High molecule joins technology" department, in 1994 -1996 years on the post of assistant, since 1996 year till present time she is an assistant doctor of "High molecule joins technology" department. Sine 1998 year getting an assistant doctor scientific title Letife Memmedova was been scientist secretary of Scientific Council in "Chemistry technology" department during 1995 - 1997 years. From 1997 year till present time Letife khanum has been trying on the post of chief of teaching department in Azerbaijan State Oil Academy. Devoting her life to science for bringing up as high professional specialist of motherland sons, for her high purpose Letife Resul qizi's work were remarked highly and in 2000 year she was awarded honorary title "Honor teacher". In 2001 year she was awarded honor diploma of Azerbaijan Republic Committee of Educational workers Free Trade Union. Letife Memmedova is an author about 50 scientifics and scientific - methodic work, also for patents, 3 authority certifications and 3 teaching - methodic manuals.





Nəcəfova Məlahət

İnsan ömrü axar suya bənzəyir. Zamanın, dövrün bəzən də şəxsi hisslərin ahənginə uyğun, tale yazısı ilə baş - başa gah coşur çağlayır, gah da sakit - sakit yoluna davam edir. Axar - baxarlı, layiqli bir ömür yaşayan xanımımız, Azərbaycan Dövlət Neft Akademiyasının aparıcı mühaşibi Nəcəfova Məlahət Azər qızı 1953 cü ildə Bakı şəhərində anadan ilmuşdur. Orta təhsilini Bakıdakı 199 saylı məktəbdə almış, 1971 - 1972 ci illərdə Azərbaycan Dövlət Statistika Komitəsinin nəzdindəki Tədris kombinatında mühasib kursunu, 1972 - 1976 cı illərdə Tusi adına Azərbaycan Dövlət Pedoqoji Universitetinin ibtidai sinif müəllimi ixtisası üzrə tam kursu bitirmişdir. İlk əmək fəaliyyətinə 1976 - 1978 ci illərdə Sabunçu rayonundakı 108 saylı məktəbdə ibtidai sinif müəllimi kimi başlamışdır. 1979 cu ildən bu günə qədər Azərbaycan Dövlət Neft Akademiyasında aparıcı - mühasib vəzifəsində çalışır. 32 illik əmək fəaliyyətində öz işinə məsuliyyətlə yanaşan nəcib xarakterli bu xanım işlədiyi illər ərzində kollektivdə özünə böyük hörmət qazanıb, səmimiliyı, yüksək insani xarakteri ilə fərqlənib. Vətənini, xalqını dərin məhəbbətlə sevən,daim dövlətçiliyimizi dəstəkləyən, Ulu Öndərimiz Heydər Əliyev ideyalarına sadiq qalan M. Nəcəfova 1993 - ci ildən Akademiyada YAP yarandığı gündən partiya sıralarında fəaliyyət göstərir. Hal - hazırda o, YAP Nəsimi Rayon Təşkilatı Qadınlar Şurasının üzvü, ADNA - da YAP Qadınlar Şurasının sədri və idarə heyətinin üzvüdür. M. Nəcəfovanın işi həmişə yüksək qiymətləndirilmiş və İnstitutut rəhbərliyi, İnstitutun Həmkarlar Təşkilatı tərəfindən dəfələrlə təşəkkürnamələrə layiq görlmüşdür.

Man life looks like flowing water. Sometimes it rages together and purls of the time by suitable destiny to harmony of the private senses, it sometimes continues to way quietly. Good-looking, living life worthy, leader accountant of Azerbaijan State Oil Academy, our lady - Necefova Melahet Azer qizi was born in 1953 year in Baku. She got her secondary education school number 199 in Baku, during 1971 - 1972 years she finished the accountant course of Azerbaijan State Statistics Committee attached to Training centre, and during 1972 -1976 years she finished the total course according to primary class teacher profession of Azerbaijan State Pedagogical University named after Tusi. In 1976 - 1978 years she began her first work activity as a primary class teacher at school number 108 in Sabunch region. From 1979 year till today she tries as a leader accountant in the Azerbaijan State Oil Academy. In her 32 years activity approaching her work with responsibility this noble character lady gained a great respect to herself in her work place during her working years, and she was always distinguished with her kindness and her higher humane character as loving her country and people with deep love, and always supporting our government, Melahet Necefova has devoted great leader Heydar Aliyev's ideas. From 1993 years she is acting on the party rows from the day of founding New Azerbaijan Party in Academy. At present time Melahet khanum is a member of Women's Society of Nesimi region organization of NAP. She is also a chief of Women's Council of NAP in Azerbaijan State Oil Academy and a member of Administrative Personnel. M. Necefova's work is always marked highly and she was repeatedly awarded with "a message of thanks" by the leadership of Institute and Trade - Union of Institute.





# AMEA-nın Kimya Problemləri İnstitutu
# Chemistry Problems Institute of ANSA



*Chemistry problems Institute was established according the decision of Azerbaijan Republic Ministry study's - 21.05.02 date number 81 and the decision of Azerbaijan National Sciences Academy Presidium - 03.06.02 date, number 2 25. Institute of ASA - first Institute: in 1935 year creating Chemistry Institute*



*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.05. 02 il tarixli 81 saylı və Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 03.06. 02il tarixli 225*



*(from 1965 year it was named Inorganic and Physician Chemistry Institute) and from 1965 year it was created in the basic carrying out activity Chemistry Technology Theoretical Problems institute. About 370 women try at the University. 7 of them sciences doctor, but 170 of them are candidate of sciences.*

*saylı qərarları əsasında yaradılmışdır. İnstitutut AEA - nın ilk institutu: 1935 - ci ildə yaradılmış Kimya İnstitut 1965 - ci ildən Qeyri - üzvi və Fiziki Kimya İnstitutu adlandırılmış və 1965 - ci ildən fəaliyyət göstərən Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutu bazasında yaradılmışdır. İnstitututda 370 - ə yaxın qadın çalışır. Onlardan 7 nəfəri elmlər doktoru, 170 nəfəri isə elmlər namizədidir.*





Salahova Elza

Taleyimiz alın yazımızdır. Ömrümüz Tanrı tərəfindən verilmiş sınaq müddətidir. Əməllərimiz yaddaşlarda yaşayan ömür səlnaməmizdir. Qəlbində, ruhunda Allah nurunu yaşadan, ömür yollarında öz elmi fəaliyyəti, xeyirxah əməlləri ilə dəyərli izlər salan xanımımız, AMEA - nın Kimya Problemləri İnstituda qrup rəhbəri vəzifəsində çalışan Salahova Elza Əbdüləziz qızı 1950 ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini Bakıdakı 172 saylı məktəbdə almış, APİ - nin "Kimya" fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1972 ci ildə Azərbaycan EA - nın QÜFKİ - nin "Elektrokimya" ixtisası üzrə qiyabi aspiranturasına daxil olmuş və həmin ildə elmi fəaliyyətə başlamışdır. Elmə olan böyük marağı E. Salahovanı bu müqəddəs yolda daha inamlı addımlar atmağa həvəsləndirmiş və o, 1979 cu ildə Lensovet adına Leninqrad Texnologiya İnstitunda "Renium ilə tellurun birgə elektrolik çökmə prosesinin tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, "elektrokimyəvi istehsalat" ixtisası üzrə texniki elmlər namizədi alimlik dərəcəsi adını almışdır. Elza Əbdüləziz qızı 1980- 1993 cü illərdə kiçik elmi işçi, elmi işçi, 1993 cü ildən böyük elmi işçi vəzifələrində çalışmış, 1996- 2004 cü ilə qədər institutda aparıcı elmi işçi, 2004 cü ildən qrup rəhbəri vəzifəsini icra edir. Elmi fəaliyyətini müntəzəm olaraq davam etdirən Elza xanım, dəfələrlə ümumittifaq və respublika daxili elmi konfransların iştirakçısı olmuşdur.Hazırda o, "Renium ilə selenin elektrolitik çökməsi prosesinin"tədqiqi ilə məşğuldur. 1997 ci ildə institun elmi şurasında E. Salahovanın doktorluq dissertasiyasının mövzusu təsdiq edilmiş və o, 2009 cu ildə müvəffəqiyyətlə müdafiə etmişdir. Pedoqoji fəaliyyətində özünəməxsus dəyərli xidmətləri və bir çox elmi kadrların hazırlanmasında da böyük əməyi olan Elza xanım, elektrokimya ixtisası üzrə iki maqistrın və bir dissertantın rəhbəri olmuşdur. O, iki ixtiranın, 86 elmi əsərin müəllifidir. Pedoqoji və elmi fəaliyyəti ilə yanaşı, E. Salahova institun ictimai işlərində də fəal iştirak edir. 1994 - 2003 cü illər institun Həmkarlar Təşkilatının sədri vəzifəsini icra edən Elza Əbdüləziz qızı, hazırda institun Həmkarlar Təşkilatının sədr müavinidir. O, I və II Azərbaycan Qadınlar Qurultayının nümayəndəsi olmuşdur. Hazırda Salahova Azərbaycan Qadınlarının Milli Konfederasiyasının Milli Elmlər Akademiyası bölməsi üzrə həmsədrdir. Ailəlidir. Ailəsini və övladlarını dərin məhəbbətlə sevən anadır. İki övladı var.







Our fate is forehead writing. Our life is trail period given by great God. Our action is life chronicles living in the memories. Immortalizing God's light on his spirit and soul, putting valuable traces with her well-wisher actions and scientific activities on her life ways - one of our ladies trying on the post of group leader in the Chemistry Problems Institute of ANSA Salahaova Elza Ebduleziz qizi was born in the intellectual family in Baku in 1950 year. She got her secondary education at school number 172 in Baku and graduated from Azerbaijan Pedagogical Institute Elza khanum entered correspondence post graduate course according "Electro Chemistry" specialty in Inorganic Chemistry and Physician Institute of ANSA and in the same year she began scientific activity. The great interest of Elza Salahova to the science on this holy way encouraged her to make more resolute steps. In 1979 year Elza Ebduleziz qizi has defended the candidate dissertation on the theme "The Investigation of Electrolytic Settling Process of Rhenium together Tellurium" in Leningrad Technological Institute named after Len Soviet. And so she has got the name of scientist degree the candidate of technical science according profession "Electro - chemistry production". During 1980 -1993 years Elza Salahova was been junior scientific worker, scientific worker, from 1993 year she has tried on the post of senior scientific worker, till 1996 - 2004 years Elza khanum has been a leading scientific worker in the institute, from 2004 year she fulfilled the post of group leader. Continuing her scientific activity regularly Elza khanum was been representative in All-Union inside Republic scientific conferences for several times. At present she is busy with the investigation of "The Investigation of Electrolytic Settling Process of Rhenium together Selenium". In 1997 year the theme of Elza Salahova's doctor's dissertation was affirmed in Scientific Council of Institute and in 2009 year she has defend it successfully. Having valuable private services in pedagogical activity and a great work in preparing a lot of scientist cadres Elza khanum was a leader of one dissertator and 2 masters according the electro - chemistry profession. She is an author 86 scientific works and 2 inventions. Adjoining her pedagogical and scientific activity Elzza Salahova takes an active part in public work of Institute. In 1994 - 2003 years she has fulfilled the post of the chairman of Trade - Union. At present Elza Ebduleziz qizi is a chief assistant of Trade - Union of Institute. She has been a representative of I, II Azerbaijan Women Conference. At present Elza Salahova is a co-chairman according the section of National Scientific Academy of Azerbaijan Women National Confederation. She is married and a mother who loves her family and children with great love. She has 2 children.



**Elmin fəziləti, ibadətin fəzilətindən əfzəldir.**

*(Məhəmməd Peyğəmbər s.ə.v.s)*



Münşiyeva Mina

Ulu Peyğəmbərimizin yüksək qiymətləndirdiyi elm aləmində, özünəməxsus yer tutan, bilik və bacarığı, dərin elmi zəkası ilə elmimizə böyük töhfələr verən, taleyin ağrı - acıları ilə baş - başa keşməkeşli bir ömr yaşayan xanımımız, kimya elmləri doktoru Münşiyeva Mina Kərim qızı 1945 ci ildə Qazaxstanın Semipalatinsk şəhərində anadan olmuşdur. Represiyaya məruz qalmış valideynlərinin qürbətdə qalmaq məcburiyyəti ilə əlaqədar, bir müddət burada yaşayan Mina Kərim qızı, 1947 ci ildə ailəsi ilə birlikdə vətənə dönmüş, Bakıda icazə verilmədiyindən 1955 ci ilə qədər respublikanın bir sıra rayonlarında yaşamışdır. Bakının 29 saylı məktəbində 7 illik təhsil almış, təhsilinin qalan hissəsini isə 164 saylı məktəbdə (11 - ci sinfə qədər) davam etdirmişdir. S. M. Kirov adına Azərbaycan Dövlət Universitetinin "Kimya" fakultəsini bitirmişdir. Ailə vəziyyəti ilə əlaqədar azad təyinat alan Mina Münşiyeva Leninqrada köçmüşdür. Bir müddət burada yaşamış, 1971 ci ildə Bakiya qayıtmış, AEA - nın Qeyri Üzvi və Fiziki Kimya (Kimya Problemləri ) İnstitunda əmək fəaliyyətinə başlamışdır. Elmə böyük həvəs göstərən Mina xanım, 1973 cü ildə "Fiziki Kimya" ixtisası üzrə aspiranturanın qiyabi şöbəsinə daxil olmuş, 1983 cü ildə dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmiş, kimya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1987 - 1988 ci illərdə SSRİ Elmlər Akademiyasının H.D. Zelinskiy adına Üzvü Kimya İnstituna, Moskva şəhərinə ezam olunan M.Kərim qızı burada kiçik molekullu olefinlərin oliqomerləşmə prosesinin yumşaq şəraitdə aparılması üçün namizədlik dissertasiyasının davamı olaraq müxtəlif katalitik sistemlərin axtarışı üzrə tədqiqat işləri aparmışdır. Bütünlükdə ömrünü elmə həsr edən, elm aləmində uğurlu addımlar atan Mina Kərim qızı 2004 cü ildə "Kimyəvi kinetika və kataliz" ixtisası üzrə doktorluq dissertasiyası müdafiə etmiş, kimya elmləri doktoru alimlik dərəcəsini almışdır. O, 1998 ci ildə baş elmi işçi (dosent)adına layiq görülmüş, AMEA - nın fəxri - fərmanı ilə təltif olunmuşdur. 1971 ci ildən 1996 cı iLədək AEA Qeyri - Üzvi və Fiziki Kimya İnstitunda mühəndis vəzifəsindən böyük elmi işçi vəzifəsinədək yüksələn M. Münşiyeva 1996 cı ildən institutun elmi katibi vəzifəsində çalışır. O,1997 - 2002 ci illərdə institutda fəaliyyət göstərən doktorluq müdafiəsini keçirən İxtisaslaşdırılmış Müdafiə Şurasının elmi katibi olmuşdur. Elmi fəaliyyətini müntəzəm olaraq davam etdirən Mina xanım, bir aspirantın elmi rəhbəri, 90 elmi əsərin müəllifidir. (onlardan 8 - i müəlliflik şəhadətnaməsi, 3 - ü Azərbaycan Respublikasının patentidir). Mina Münşiyeva vətənimiz üçün gərəkli bir elm adamı olmaqla yanaşı, fədakar anadır. Bir qızı var.





**Virtue of the science is more preferable than virtue of the praying.**

*(Prophet Muhammad)*

Taking private part on the science area which is marked highly by the old Prophet, giving a great prizes to our nation with her deep intellect knowledge, ability, living a hard life with the difficulties of her fate one of our ladies, a doctor of chemistry science, Munshiyeva Mina kerim qizi was born in Semypalatinsk city of Kazakhstan in 1945 year. Adjoining the compulsion of her parents who exposing to repression living abroad, Mina Kerim qizi lived here for a while, in 1947 year they returned to their country with family. As not permitting to live in Baku till 1955 they have lived in different regions of republic. She got 7 years education in compulsory school number 29 in Baku. The remainder part of her education Mina khanum continued at school number 164 (till 11th form). In 1969 year she graduated from "Chemistry" faculty of Azerbaijan State University named after S.M.Kirov, connected her family status she got free fixing and moved to Leningrad. Living here for a while, Mina khanum return Baku in 1971 year and began her work activity in Inorganic - Physical Chemistry Problems Institute of ANSA. Showing great interest to science Mina khanum entered extra-mural master course according "Physical - Chemistry" profession in 1973 year and in 1983 year she defended her dissertation work successfully and got the scientific degree candidate of Chemistry sciences. During 19987 - 1988 years Mina kerim qizi was sent on an official journey to Moscow, Organic Chemistry Institute named after N.D. Zelinski of scientific academy in USSR. Here she has carry out researches according search of different catalytic systems as the continuing the candidate dissertation for carrying small molecule olephims change to oligomer process in softy condition. Devoting her all life to science, making lucky steps on the science sphere Mina Kerim qizi defended doctor dissertation on profession "Chemical Kinetics and Catalysis" in 2004 year and she has got the scientific degree doctor Chemical science. In 1998 year she has been honored with the name head scientific (assistant professor) and was awarded honor diploma of ANSA. From 1971 year till 1996 year Mina Munshiyeva has risen from the engineer post to high scientific worker in Inorganic and Physician Chemistry of ANSA. But from 1996 year till present she is trying on the post of scientific secretary of Institute. During 1997 - 2002 years she has been a scientific secretary of Specialized Defense Council where is passing doctor dissertation carrying out activity at this institute. As continuing her scientific activity regularly Mina khanum is a scientific leader of one aspirant and an author 90 scientific works (8 of them are authority certifications and 3 is Azerbaijan Republic patent). As Munshiyeva Mina is not as an only useful scientific worker, but she is also selflessness mother. She has a daughter.





Məhərrəmova Zemfira

**Alimləri eşidin, çünki onlar dünyanın çırağı,axirətin nurudurlar.**

*(Məhəmməd Peyğəmbər s.ə.v.s)*

Müdrik Peyğəmbərimizin dərin, hikmət dolu kəlamları əsrlərdən bəri yaddaşlarda həkk olunaraq, elmin nə dərəcədə vacib və gərəkli olduğunu yada salır. Alimləri dünyanın çırağı, axirətin nuru adlandırmaqla elmlə məşğul olan insanların böyüklüyünü və aliliyini vurğulayır. Elm aləmində özünəməxsus dəyərli xidmətləri olan xanımımız Zemfira Yusif qızı Məhərrəmova 1937 ci ildə gözəl Qarabağımızda, Şuşa şəhərində anadan olmuşdur. Orta təhsilini Bakıda 150 saylı məktəbdə almış, Bakı Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir. Zemfira xanım elmi fəaliyyətini hələ institutda oxuyarkən akademik Y. Məmədəliyevin rəhbərliyi altında başlamış və sonrakı fəaliyyətini də onun laboratoriyasında davam etdirmişdir. Z. Məhərrəmovanın birinci elmi əsəri Y. Məmmədəliyevlə birlikdə nəşr olunmuşdur. 1961 - 1965 ci illərdə Azərbaycan Elmlər Akademiyasının Neft Kimya Prosesləri İnstitunnun aspiranturasında təhsilini davam etdirən Z. Məhərrəmova kiçik və böyük elmi işçi vəzifələrində çalışmışdır. 1968 ci ildə "Fitalimidin alınması məqsədi ilə 0 ksilol, 1, 2- dimetilsikloheksan, tetralin və dekalinin oksidləşdirici ammonoloiz reaksiyasının tədqiqi" mövzusunda namizədlik, 1993 cü ildə isə, "Kimyəvi kinetika və kataliz" ixtisası üzrə "Buxar fazasında toluolun və onun xlorlu törəmələrinin oksid katalizatorlar üzərində oksidləşdirici ammonolizi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Xalqımız üçün dəyarli elmi xidmətləri olan Z. Məhərrəmova apardığı elmi tədqiqatlar nəticəsində mühüm xalq təsərrüfatı məhsulları olan benzonitrilin və benzoquanaminin istehsalı yaradılmışdır. Bu məhsulların əsasında yeni növ aminoplastlar, qətranlar, suyadavamlı yapışqanlar işlənib hazırlanmış və istifadəyə verilmişdir. Zemfira Yusif qızının tədqiqatları ABŞ, Almaniya, Yaponiya, İngiltərə, Fransa, İtaliya, Belçika, İsveç və İran patentləriylə müdafiə edilmiş və 120 elmi əsərdə o cümlədən 27 patentdə və 13 müəlliflik şəhadətnaməsində öz əksini tapmışdır. Onun rəhbərliyi altında bir neçə elmlər namizədi yetişmişdir. Zemfira Məhərrəmova BDU - nun nezdindəki elmlər doktoru və elmlər namizədi alimlik dərəcəsi verən, İxtisaslaşdırılmış Elmi Şuranın üzvüdür. Ailəlidir. İki övladı, üç nəvəsi var.







**Hear the scientists, because they are lamp of the world, light of the future life.**

*(The Prophet Muhammad)*

Our wisdom prophet Muhammad remains how the science is necessary and useful as be carving on the memories his deep and full of wisdom aphorism since century. The scientist are named the lamp of the world and the light of the future god by Prophet Muhammad, and he also remarks greatness and higher of the people who are being busy with science. One of the ladies being private valuable services in science area - Zemfira Yusif qizi Meherremova was born in Shusha, one of the most beautiful places Qarabag in 1937 year. She got her secondary education at school number 150 in Baku and graduated from "Chemistry" faculty of Baku State University. Zemfira khanum began her scientific activity under the leading by academician Y. Memmedeliyev when she studied at the Institute, she has conrined her next activity at his laboratory. Zemfira Meherremova's first scientific work was published together ac. Y. Memmedeliyev's. During 1961 - 1964 years Zemfira Yusif qizi studying in the master course of Oil Chemistry Processes Institute, has tried on the post of junior and senior scientific worker. In 1968 year Zemfira khanum has defended the candidate dissertation on theme "The investigation of the oxidizing ommonolaiz reaction of dekalin, tetralin, 0 ksilol and 1 -2 dimetiltsikloheksan by purpose of receiving fitalimid". But in 1993 year Zemfira khanum has defended the doctor's dissertation on the theme "oxidizing ammonoloiz on the oxsid catalyzer of toluol and its reproduction on the steam phase" according the profession "Chemical Kinetics and catalysis". Having a valuable scientific services for our people, Zemfira khanum has carry out scientific investigation and at the result of these sientific investigations the production main nation econmy goods - benzolitrilin and benzoguanomin. On the basis of these products it was prepared and given to use new kind of aminoplast resins oil, duarble glues to water. The investigations of Zemfira Yusif qizi was protected by the patent for invention in USA, in Germany, Japane, England, France, Italy, Belguim, Swich and Iran. At the same time it was reflected on 120 scientific work, 27 patent and 13 authority certificate. A number of science candidates have been ripended under her leading. She is also a member of specialized scientific council given scientific degree as doctor and candidate attached to Baku State Univrsity. She is married and has 2 children and 3 grandchildren.





Əliyeva Sevər

Tarixin öz qanunauyğunluqları var. Möcüzələrlə dolu dünyamız bəşər övladının nələrə qadir olduğunu zaman - zaman isbatlayıb. Elmin tərəqqisi cəmiyyətin inkişafına gətirib çıxardığı kimi, qədim qaynaqladan qopub gələn faktlara əsaslanan şəxsiyyətlərin elm aləmində xidmətləri də tarixin yaddaşında əbədi həkk olunub, insanlar, cəmiyyət bundan faydalanıb, yararlanıb. Elm aləmində dəyərli xidmətləri olan xanımımız AMEA - nın Kimya Problemləri İnstitunun sektor müdiri, kimya elmləri namizədi Əliyeva Sevər Ələkbər qızı Bakıda ziyalı ailəsində anadan olmuşdur. İbtidai təhsilinə 1949 cu ildə Tomsk vilayətinin Bakçar kəndində başlamış, təhsilinin qalan hissəsini Bakıdakı 134 saylı məktəbdə almışdır. S. M. Kirov adına Azərbaycan Dövlət Universitetinin "Kimya" fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə təyinatla A. Caparidze adına Neft - Yağ Zavodunda laborant vəzifəsi ilə başlamışdır. 1965 - 1970 ci illərdə Bakı Səhiyyə Şöbəsinin Şəhər Dezinfeksiya Stansiyasında həkim - kimyaçı vəzifəsi ilə fəaliyyətini davam etdirən Sevər Ələkbər qızı,1969 cu ildə AEA - nın Neft Kimya Prosesləri İnstitunun qiyabi aspiranturasında təhsil almış, 1973 cü ildə müdafiə edərək kimya elmləri namizədi adını almışdır. Öz fəaliyyəti illərində müntəzəm olaraq elmi fəaliyyətini davam etdirən S. Əliyeva 1970 - 1975 ci illərdə NKPİ - da baş texnik və kiçik elmi işçi vəzifələrində çalışmış, 1975 ci ildən işlədiyi laboratoriya KTNPİ - na keçdiyinə görə həmin institun "Oksidləşmə Prosesləri" laboratoriyasında kiçik elmi işçi, baş elmi işçi vəzifələrində işləmişdir. 1986 cı ildə sektor müdiri, 1991 - 2002 ci illərdə "Polifunksional birləşmələr" laboratoriyasının müdiri vəzifələrini icra edən, 2002-2003 cü illərdə isə AMEA - nın Kimya Problemləri İnstitunda laboratoriya müdiri vəzifəsində işləyən Sevər xanım, 2003 cü ildən hazırkı dövrə qədər sektor müdiri vəzifəsini icra edir. Onun rəhbərliyi altında bir sıra bioloji xassələrə malik olan polifunksional üzvü birləşmələr alınmış, tətbiq olunmuş və onların tətbiq sahələri tapılmışdır. S. Əliyeva 3 nəfərin elmi namizədlik dissertasiyasına rəhbərlik etmişdir. O, 89 elmi əsərin, 10 ixtiranın müəllifidir. 1985 ci ildən institun elmi seminarlarının, hazırda institutun Elmi Şurasının və Dissertasiya Şurasının üzvü, 2006 cı ildən KPİ nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının elmi katibidir. Vətənini, xalqını dərin məhəbbətlə sevən S. Ələkbər qızı, , dəyərli elmi tədqiqatları, ixtiraları ilə elm aləminə lazımi töhfələr verən yüksək potensial enerjiyə malik elm işçisi kimi tanınmış, eyni zamanda cəmiyyətdə, institut əməkdaşları arasında da böyük hörmət və nüfuz qazanmışdır. S.Ələkbər qızı, nəinki elm adamı, eyni zamanda yeganə qız övladını dərin məhəbbətlə sevən müqəddəs ana və sevimli nənədir.





The history has its own law-governed. The Earth full of miracles has proved time by time what the mankind child is capable. As the progress of science carries out the development of the society, the services on the science of the persons who are guided the facts came from the oldest welding and it is scraped on the memory of history. And the people, societies benefit and profit by it. Being valuable services on the science area, one of the well-known Azerbaijan ladies, the section chief of Chemistry Problems Institute of Azerbaijan National Science Academy, candidate chemistry sciences Eliyeva Secer Elekber qizi was born in intellectual family in Baku. In 1949 year she began her primary education in Bakchar village of Tomsk region, the remained part of her education Sever khanum got at school number 134 in Baku. She graduated from "Chemistry" faculty of Azerbaijan State University named after S.M.Kirov. Sever Elekber qizi began her first work activity by appoint,ment on the post of assistant laboratory in Petrol - Oil Plant named after A.Chaparadze. During 1965 - 1970 years she continued her activity on the post of doctor - chemist at the City Disinfection Station of Baku Medical department. In 1969 year Sever khanum has got education the tuition by correspondence master course in Oil Chemistry Process Institute of ASA, then 1973 year as defending she has got the scientific name the candidate of chemistry sciences. During her activity years, continuing regularly her scientific work Sever Aliyeva has tried on the post head technician and junior scientific worker in OCPI during 1970 - 1975 years. From 1975 year the laboratory where she worked moved to CTOPI because she has worked on the post of junior scientific worker, head scientific worker in the laboratory "Oxidizing Processes" of the same Institute. In 1986 year Sever khanum was the section chief, during 1991 -2000 years she has fulfilled the post of the chief "Half-functional joins" laboratory. In 2002 -2003 years Sever khanum is a chief of the laboratory in the Chemistry Problems Institute of Azerbaijan National Scientific Academy, from 2003 year till present she id a section chief. Under her leading there have been received half-functional organic joins which have some biological property, they were applied and found their employment area. Sever khanum has yet lead the scientific candidate dissertation of 3 persons. She is an author of 89 scientific works, 10 inventions. From 1985 year she is a member of scientific seminars of Institute, at present time she is a member of Scientific and Dissertation Council of Institute. From 2006 year Sever khanum is a scientific secretary of Dissertation Council acting attached to CPI. Loving her country, people deeply, Sever Elekber qizi was known a scientific worker having high potential energy, giving necessary presents to the science area with her inventions. At the same time Sever khanum has gained great respect and love among the workers of the Institute and society. As Sever Elekber

qizi is not only the scientific worker, bout also she is a sacred mother and lovely grandmother who loving her only daughter with great affection.





Bənənyarlı Səadə

Elm, şəfəq saçan bir nur, fikirlərə zənginlik gətirən, cəmiyyətin, dövlətin tərəqqisinə təkan verən ilahi qüvvədir. İlahi qüvvələrdən güc alan bu nur isə, Tanrının insanlar üçün seçib dəyərləndirdiyi şəxslərə məxsusdur. Elm kimi müqəddəs bir yolun əbədi yolçusu, daxilən zəngin və potensial enerjiyə malik xanımımız, AMEA KPİ - nin "Oksid materiallarının kimyası" sektorunun rəhbəri k. e.n. Bənənyarlı Səadət İzzət qızı 1951 ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Bakıdakı 176 saylı orta məktəbini gümüş medalla başa vurmuş, V. İ. Lenin adına APİ - nin kimya fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1972 ci ildə QÜFKİ - da əyani aspiranturaya qəbul olunan S. Bənənyarlı 1978 ci ildə Moskva şəhərində "Tsiklofosfazenlərin çoxvalentli elementlərin halogenidləri ilə reaksiyası" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, kimya elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür. İlk əmək fəaliyyətinə 1975 ci ildə Azərb. SSR EA - nın QÜFKİ - nin 11 saylı laboratoriyasında əvvəlcə mühəndis, sonra kiçik elmi işçi, 1993 cü ildən 2002 ci ilədək isə həmin laboratoriyanın müdiri vəzifəsində çalışmış, hazırda " Oksid materiallarının kimyası" sektorunun rəhbəridir. Onun rəhbərlik etdiyi laboratoriyada oksidlər əsasında mikroelektronikada istifadə olunan xüsusi xassəli qeyri üzvi materialların sintezi və fiziki - kimyəvi xassələrinin tədqiqi istiqamətində elmi tədqiqat işləri aparılır. Bu məqsədlə bor anhidridi ilə I,II, III qrup nadir torpaq elementləri oksidlərinin mürəkkəb sistemləri ardıcıl olaraq öyrənilir. S. Bənənyarlı müxtəlif vaxtlarda laboratoriyada müqavilə əsasında görülən işlərin rəhbəri olmuşdur.

Hələ institututda oxuduğu illərdə TEC - nin üzvü olan Səadət xanım, bir sıra elmi konfransların iştirakçısı olmuşdur. Yüksək potensial enerjiyə malik olan, pedoqoji və elmi fəaliyyəti ilə bərabər, respublikanın ictimai və siyasi həyatında da fəal iştirak edən, vətənini, xalqını dərin məhəbbətlə sevən S. Bənənyarlı Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması istiqamətində fəaliyyət göstərən Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli bölməsinin rəhbəridir. Onun rəhbərlik etdiyi Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Qrupu BMT - nin İnsan Hüquqları Ümumdünya Bəyamnaməsində əks olunan bütün insan hüquqlarının qorunması, inkişafı və həyata keçirilməsini, Azərbaycanda demokratiyanın inkişafı və vətəndaş cəmiyyətinin quruculuğuna köməklik göstərməyi,özünün əsas missiyası hesab edir. Bənənyarlı Azərbaycanda fəaliyyət göstərən İnsan Hüquqları Monitorinq Qrupunun üzvüdür. İki ildən artıqdır ki, Avropa Şurasının insan hüquqları üzrə ekspertidir. S. Bənənyarlı qadın hüquqlarının müdafiəsi, qadın problemlərinin həlli istiqamətləri, qadının sosial həyatı, mövzularında bir sıra məqalələrin müəllifidir.

Özünə və işinə qarşı yüksək tələbkarlığı, məsuliyyəti ilə fərqlənən Səadət İzzət qızı, elmi işlərin ən yaxşı təşkilatçısı və 40 - dan artıq elmi məqalənin müəllifidir. Ailəlidir. İki övladı var.





Science is shining light, bringing richness to thoughts, giving impetus to progress of the society, state is divine strength. But receiving this light from divine strength is belonging to person who has selected and valued by God. Eternal traveler of the holy way as science, having rich and potential energy inwardly - our lady, the chief of "Chemistry of Oxide Materials" sector of Chemistry Problems Institute of ANSA, chemistry scientist candidate Seadet Benenyarli Izzet qizi was born in the intellectual family in Baku city in 1951 year. She has got her secondary education at school number 176 with silver medal in Baku, and she had graduated from Chemistry faculty of Azerbaijan Pedagogic Institute named after Lenin with honor diploma. Entering to visual post graduate course in Inorganic Physician - Chemistry Institute in 1972 year S.Benenyarli was honoring with the candidate science degree of chemistry sciences as defending candidate dissertation on theme "Reaction with Tsiklofosfazen valence elements halogens" in Moscow city in 1978 year. She began her first work activity as an engineer of Physician - Chemistry Institute laboratory number 11 of SA Azerbaijan USSR in 1975 year, then junior science worker, but from 1993 year till 2002 year she tried chief post in the same laboratory, at the present time she is leader of "Oxide chemistry materials" sector. Scientific researches are carried out in the direction of synthesis of the special property inorganic materials which is using in the microelectronics and investigation of physical - chemical properties on the basis of oxides in the laboratory where she led. For this purpose complex systems oxides of I, II, III group rare land elements with boron anhydride is learnt systematically. S. Benenyarli has been a chief of the work carrying out on the basis treaty in different times in the laboratory.

Seadet khanum was been participator in some scientific conferences and was been a member of Student Scientific Society in her studying years at institute. Having high potential energy being equal her pedagogical and scientific activity, taking an active part on social and political life of republic, loving her country and people with deep love Seadet khanum Benenyarli is a leader of Azerbaijan National section of International People Rights Society which is acting on the direction of founding of Azerbaijan citizen society. The Azerbaijan national group of International People Rights Society leading by Seadet khanum considers its main mission to assist on establishing citizen society and development democracy in Azerbaijan, saving of all people rights, development and implementing them which are respected on the People Rights International Statement of Union nation Organization. Benenyarli is a member of People Rights Monitoring Group which is acting in Azerbaijan. She is an expert according to the Europe Council People Rights more than 2 years. Seadet khanum is an author of number of articles on theme of social life of women, the directions of solving women problems and defends of women rights. Distinguishing by her responsibility and high exactingness against her work and herself Seadet Izzet qizi is the best organizer of scientific work and she is an author of more than 40 articles. She is married and has 2 children.



Məlikova İradə

Zamanın gərdişi, dövrün tələbinə uyğun insanların taleyində mühüm rol oynayır. Keşməkeşli ömür yollarında nələri itirir, nələri qazanırıq? Sanki Ulu Tanrı sınağa çəkir bizi. İllər ötdükcə kamilləşirik. Ömür yollarında inamlı addımlar atan, elm aləminə dəyərli töhfələr verən xanımımız, AMEA- nın Kimya Problemləri İnstitunun böyük elmi işçisi Məlikova İradə Həsən qızı 1959 cu ildə Bakının Buzovna qəsəbəsində anadan olmuşdur. Orta təhsilini Buzovnada almış, Azərbaycan Politexnik İnstitunu bitirərək, mühəndis - sistemtexniki ixtisasına yiyələnmişdir. İlk əmək fəaliyyətinə KPİ - nin "Riyazi Modelləşdirmə"şöbəsində baş laborant vəzifəsi ilə başlamışdır. 1990 - 1992 ci illərdə Azərbaycanın 73 şəhər və rayonlarında tətbiqini tapmış, ilk milli "Mühasibat uçotu" paketinin müəlliflərindən olan İ. Məlikova 1997 ci ildə "Azərbaycanın Kimya Jurnalı"nın bərpasında fəal iştirak etmiş, hazırda isə həmin jurnalın texniki redaktoru və məsul katibinin müavini vəzifəsini icra edir. 2003 cü ildən nəşr edilən "Kimya problemləri"jurnalının yaradıcısıolmuş, eyni zamanda bu jurnalın məsul katibidir. Elmi istiqaməti: Geniş tətbiq sahəsi tapmamış tullantı məhsulu olan xlorkarbohidrogenlərin çox geniş tətbiq sahələri olan malein anhidridi və onun xlorlu törəmələrindən monoxlormalein (MXMA) və dixlormalein (DXMA) anhidridləri, xlormalein xlorsirkə, xlorpropion turşularına çevrilmələrinin araşdırılmasından ibarət olan İ. Məlikova 2007 - 2009 cu illərdə iki respublika qrand layihəsində, layihənin koordinatoru və layihə rəhbərinin müavini kimi fəaliyyət göstərmiş, təşkilatçılıq bacarığı ilə fərqlənmişdir. İnstitutda yeni təşkilati texnikanın və kompüter proqramlarının tətbiqi, işlənməsi və tədrisində də böyük dəyərli xidmətləri olan İradə Həsən qızı, 2002 - 2007 ci illərdə iki dəfə respublika təşviqat avtorallilərində avanqard dəstədə yer almış, və çıxış etmişdir. O, bir sıra nüfuzlu xarici elmi konfransların iştirakçısı olmuşdur. İ.Məlikova respublika və xarici ölkələrdə çap olunmuş 70- dən çox elmi məqalənin müəllifidir və elmlər doktoru adını almaq üçün elmi fəliyyətini genişləndirərək davam etdirir. Ailəlidir. Övladlarının nəaliyyətləri ilə qürur duyan, onları dərin məhəbbətlə sevən anadır.







Motion of time plays an important part in the fate of the people for the suitable time. In the hard life what we learn and what we earn? As if great God puts to the test us. We become perfect outdistance years. Making resolute steps in life ways, giving valuable gifts to the science world, our lady, the great scientific worker of Chemistry Problems Institute of Azerbaijan National Science Academy, Melikova Irade Hesen qizi was born in Buzovna village in Baku in 1959 year. She got her secondary education in Buzovna, and graduated from Azerbaijan Polytechnic Institute, and she has owned the profession of engineer system technician. She began her first activity as a head laboratory assistant in the department of "Mathematical Model" in KPI. During 1990 - 1992 years Irade Melikova was one of the authors of the first national packet "Book - keeping Account" which was found employment of new production in 73 cities and regions of Azerbaijan. In 1997 Irade khanum took an active part in restrotation of "Azerbaijan Chemistry magazine", but at present time she is a technical redactor of this magazine and fulfils the post of the assistant responsible secretary. She was a creator of the "Chemistry Problems" magazine which is published from 2003 year, at the same time she is the responsible secretary of this magazine. Scientific direction: the malein anhibrit which has the largest application areas of chlorine-hydrocarbon being waste product unfound large application area and its reproduction chlorine mono chlorine malein (MXMA) and dichloride monolein (DXMA) unhybrid consist of researches changing to chlorine acetic acid, chlorine propion acid. During 2007 - 2009 years Irade khanum has active as an assistant of the leader project and she was coordinator of the project on 2 republic grand projection and she was distinguished with her organization ability. Irade Hesen qizi has also been great valuable services on teaching, using and application of the computer programs and new organization technical in Institute. In 2002 -2007 years she got a place in vanguard group of republic agitation avtoralls and reported there 2 times. Irade khanum was been a participation of some influence foreign scientific conferences. Irade Melikova was an author more than 70 scientific articles which were published in our republic and other foreign countries. She continues to enlarge her scientific activity for getting the name doctors science. She is married. She is a mother feeling pride with the achievement of her children, loving them with great love.



# Azərbaycan Dövlət Pedoqoji Universiteti

## The Azerbaijan State Pedagogical University

*Azərbaysai Xalq Komissarları Sovetinin sədri N. Nərimanovun imzaladığı 1921 - ci il 26 avqust tarixli dekreti əsasında milli dildə fəaliyyətə başlamışdır. Universitetdə 989 qadın çalışır. Onlardan 10 - u kafedra müdiri, 4 - ü professor, 111 - i dosent, 142 - si baş müəllim, 145 - i müəllimdir.*

*The university began to carry activities in 1921 as an Azerbaijan Pedagogical Educational institution in national language firstly on the basic of 26th August datied decree signed by N. Nerimanov - the chief of Azerbaijan Nation Commissar Soviet.*

*At present time there are trying 989 women in university, 10 of them are the chiefs of department, 4 of them are professor, 111 of them are assistant professor, 142 of them are head - teachers and 145 of them are teachers and 577 women try at other places of university.*











Verdizadə Nailə

**Bir saat elm öyrənmək, 60 il ibadətdən yaxşıdır.**

*Məhəmməd peyğəmbər (s.ə.s.)*

Tarix şəxsiyyətlər yetişdirir. Əməlləri zaman-zaman əsrlərdən süzülüb gələn yaddaşlarda bərkiyən bu qeyri-adi insanların, elm adamlarının təfəkkürü, dünyagörüşü, elm aləmində xidmətləri əvəzsizdir.

ADPU-nun Analitik və fiziki kimya kafedrasının müdiri, kimya elmləri doktoru, professor, əməkdar müəllim, "Humay" Milli mükafatı və "Qızıl qələm" mükafatı laureatı Verdizadə Nailə Allahverdi qızı da məhz elm aləmində yüksək xidmətləri olan xanımlardandır. Nailə xanım 1945-ci ildə Bakıda ziyalı ailəsində anadan olub. Orta təhsilini Bakıdakı 36 saylı məktəbində almış, (keçmiş) V.İ.Lenin adına ADPİ-nun kimya-biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. İnstitutda oxuduğu illərdə TEC-nin xətti ilə elmi-tədqiqat işi aparan Nailə xanımın, üç elmi məqaləsi çap olunmuşdur. Tələbə elmi konfranslarında fəal iştirak edən Nailə xanım institutun ümumi kimya kafedrasında assistent kimi saxlanmış, 1972-1973-cü illərdə isə Neft Akademiyasında, sonralarsa ADPU-nun analitik və fiziki kimya kafedrasında baş müəllim işləmiş, 1976-cı ildən hazırkı dövrə qədər isə həmin kafedranın müdiri vəzifəsini icra edir. 1978-ci ilin mayından analitik və fiziki kimya kafedrasının dosentidir. 1970-ci ildə "Qələvi torpaq metallarının periodatları talliumun təyinində bir reaqent kimi" mövzusunda analitik kimya üzrə namizədlik, 1991-ci ildə isə "Fotometrik analizdə d-keçid metalların amin-rodanid kompleksləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, Analitik kimya ixtisası üzrə elmlər doktoru dərəcəsini almışdır. Nailə xanımın apardığı elmi-tədqiqat işlərini keçmiş SSRİ-də ümumittifaq respublika konfrans və simpoziumlarında, ümumi və tətbiqi kimya üzrə XII Mendeleyev qurultayında (1981), ekologiya üzrə Rusiya-Amerika Beynəlxalq konfranslarda (1996-1998), Polşada keçirilən qurultayda (2000), Avstriyanın Vyana şəhərində (1990) Evroanaliz VII konqresində məruzələrlə iştirak etmişdir. Voronejdə (2003, 2005, 2008) Beynəlxalq forumlarda məruzələrdə çıxış etmiş, həmin forumların beynəlxalq koordinasiya komitəsinin üzvü olmuşdur. Nailə xanımın işləri, eyni zamanda ekologiya sahəsindəki işləri, beynəlxalq jurnallarda "Ekological conqress" adlı Rusiya-ABŞ beynəlxalq jurnalında sistematik çap olunur. O, elmi kadrlar yetişdirmək sahəsində də çox işlər görmüş, 6 nəfər elmlər namizədi yetişdirmişdir. Onun rəhbərliyi altında kafedra Moskva Əlvan Metalların Emalı İnstitutun nəzdindəki, Mtsensk şəhərində yerləşən keyfiyyətli ərintilər eksperimental zavodu ilə təsərrüfat müqaviləli iş aparmış, nəticədə ildə 200 min rubldan çox iqtisadi səmərə əldə edilmişdir. Nailə xanım 1989-cu ildə, hazırkı dövrə qədər kafedranın nəzdindəki "Koor-

dinasion birləşmələr kimyası" elmi-tədqiqat laboratoriyasının rəhbəridir. O, namizədlik və doktorluq dissertasiyaları müdafiəsi üzrə elmi şuralarının, Təhsil Nazirliyinin "Kimya və Kimya texnologiyası" şöbəsinin, elmi-metodiki şuranın, ali məktəblər üzrə tələbələr arasında respublika səviyyəsində kimya olimpiadalarının keçirilməsi üzrə Təhsil Nazirliyi komissiyasının üzvüdür. Azərbaycan Qadınları və Azərbaycan müəllimləri qurultayının nümayəndəsidir. 1978-1988-ci illər institutun partiya komitəsinin üzvü və fakültə "Bilik" cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. N.Verdizadə dəfərlərlə rektorluğun fərmanı ilə D.İ.Mendeleyev adına Ümumittifaq Kimya Cəmiyyətinin Azərbaycan bölməsinin diplomu ilə, ADPU-nun 60 illiyi münasibəti ilə, təhsil sistemində yüksək ixtisaslı kadrların hazırlanmasına, 1981-ci ildə SSRİ Ali və Orta Təhsil Nazirliyi tərəfindən "Əla xidmətə görə" döş nişanı ilə təltif olunmuşdur. Şimali Karolina Ştatında yerləşən Amerika Bioqrafiya İnstitutu tərəfindən elm sahəsindəki nailiyyətlərə və xidmətə görə, 2001-ci ildə "Kim kimdir" beynəlxalq nəşrin 8-ci buraxılışına daxil edilmişdir. Respublika Prezidenti tərəfindən "Əməkdar müəllim" adını almış Humay-2005 Milli mükafatına, layiq görülmüşdür. Universitet üzrə 2007-ci ildə "İlin alimi", 2008-ci ildə isə "Qızıl qələm" mükafatı ilə təltif edilmişdir. Bir neçə kitabda Nailə Verdizanin və onun əmək fəaliyyəti haqqında ətraflı məlumat verilmişdir. O, 250-dən artıq elmi əsərlərin, 40 dərslik, dərs vəsaiti, elmi-kütləvi kitablar və metodik göstərişlərin müəllifidir. Ailəlidir.

The manager of the analytical and physical chemistry department, Doctor of Chemical Sciences, the winner of the national prizes "Humay" and "Gold pen", and a professor Verdizade Naila Allahverdi was born in Baku in an intellectual family in 1945. She got her secondary education at 36th school in Baku, and graduated from the chemistry-biology faculty of (former) Azerbaijan State Pedagogical Institute named after Lenin with honored diploma. While studying at the institute 3 scientific articles of her were published. After graduating she stayed at the institute as an assistant, in 1972-1973 she worked in Oil Academy, then as a head teacher of the analytical and physical chemistry department of APU, from 1976 till today she is the manager of this department. From May, 1978 she is an assistant professor of the analytical and physical chemistry department. In 1970 she defended thesis for a Ph. Degree name in 1991 for a doctor's degree on analytical chemistry "Amid - rodanid complexes of dekelid metals on totometrik analysis" and was honoured with the degree of Doctor of Analytical Sciences. She had a speech with different lectures in XII Mendeleyev congress on general and applied chemistry (1981), Russian-American international conferences on ecology (1996-1998), in the congress held in Poland (2000), and in Austria, Vienna city (1990). In 2003, 2005, 2008 she took part with lectures in international forums and was the





member of the international co-ordination committee of those forums. The works of Mrs. Verdizade has been published in Russian-USA international magazine. From 1989 till today she is the chief of "Coordinated joins" laboratory of scientific research. She is the member of scientific councils, "Chemistry and chemical technology" department of Ministry of Education, and also is the member of Ministry of Education commission on holding Chemistry Olympiads among students. She is the representative of Azerbaijan Women and Azerbaijan Teachers congress. In 1978-1988 she was the member of party committee of the institute and worked as the chairwoman of "Rnowledge" society. N.Verdizade has been honoured with the diploma of All-Union chemistry society named after Mendeleyev and in 1981 she was honoured with the emblem "For excellent service" by USSR Secondary and Higher Education Ministry. In 2001 she was entered the 8th issue of the international publication "who is who" for her achievements in science by Biography Institute of America situated in North Carolina. She has been honoured to receive the name "Honoured teacher" by President of our Republic and has been rewarded with the national prize "Humay" and with the name "The teacher of year". In 2007 she was honoured with the name "The scientist of a year" and in 2008 with the prize "Gold pen". She is the author of more than 250 scientific works, 37 textbooks and methodic instructions.

She is married.




Dadaşova Minarə

İstedad tanrı vergisidir deyirlər. O, insan xöşbəxtdir ki, həyatdakı prosesləri qəlbinin gözü ilə görür, duyur, hiss edir. Şair, yazıçı gördüklərini, duyduqlarını sözlə ifadə etdiyi kimi, musiqi ilə məşğul olanlar da fikirlərini, duyduqlarını musiqi ilə ifadə edir, nəğmələri, musiqiləri ilə insanların ruhunu oxşayırlar. Musiqi təhsili sahəsində uzun illər çalışan, bu sahədə pedoqoji fəaliyyəti ilə yanaşı elmi fəaliyyəti ilə də özünəməxsus xidmətləri olan xanımımız, N. Tusi adına ADPU - nun "Musiqi alətləri fənninin tədrisi metodikası" kafedrasının müdiri Dadaşova Minarə Rəhim qızı 1948 ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakıdakı 34 saylı məktəbdə almış, Milli Təhlükəsizlik nəzdindəki orta ixtisas onbirillik musiqi məktəbində, 1966 - 1971 ci illərdə Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının "Fortopiano ifaçılığl" şöbəsində musiqi təhsili almışdır. 1984 - 1987 ci illərdə Azərbaycan Dövlət Pedoqoji Universitetinin "Ümumi pedaqoqika" kafedrasının aspiranturasını bitirən, M. Dadaşova 1989 cu ildə "Musiqi şöbəsi tələbələrində yaradıcı təxəyyülün inkişafı adlı namizədlik, 2006 cı ildə isə "Fortopiano sinfində tələbələrin musiqi, bilik, bacarıq və vərdişlərinin formalaşdırılması üzrə işin sistemi", mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Pedoqoji elmləri doktoru, proffessordur. 1966- 1982 ci illərdə orta ixtisas musiqi məktəbində işləmişdir.1982 ci ildən ADPU - da çalışır. Uzun illər ömrünü sevdiyi peşəsinə, tələbələrinin daha yaxşı təhsil almasına, savadlı mütəxəsis kimi yetişməsinə həsr edən Minarə Rəhim qızı, zəhmətsevərliyi, elmi və pedoqoji fəaliyyətinin səmərəliliyi ilə yanaşı, cəmiyyətdə, onu sevən və dəyərləndirən insanlar arasında da böyük hörmət və nüfuz qazanmışdır. Minarə Dadaşova 1989 cu ildə "Musiqi alətləri" kafedrasında baş müəllim, 1994 cü ildə dosent, 1994 cü ildən proffessordur. 2001 ci ildən "Musiqi alətləri fənnlərinin tədrisi metodikası" kafedrasının müdiri vəzifəsində çalışır. 70 - dən çox elmi məqalənin, 8 monoqrafiyan, dərs vəsaiti və dərsliyin müəllifidir. Təhsildəki xidmətlərinə görə, M. Dadaşova Azərbaycan Respublikası Təhsil Nazirliyi kollegiyasının qərarı ilə fəxri fərmanla təltif edilmiş(2006), "Müəllim hazırlama siyasəti və Problemləri" Beynəlxalq konfransında çıxışına görə sertifikat almışdır(2007). Universitet üzrə "İlin müəllimi" müsabiqəsinin qalibi olmuşdur. Ekspert və Müdafiə Şurasının üzvüdür. Fəal ictimaiyyətçidir. 2000 ci ildən universitet üzrə YAP-ın idarə heyyətinin büro üzvüdür. Eyni zamanda Minarə Rəhim qızı universitetin Pedoqoji fakultəsinin Həmkarlar Təşkilatının sədri, elm üzrə dekan müavini vəzifələrində də çalışıb. Ailəlidir. İki övladı var. Övladlarını və nəvələrini bütün varlığı ilə sevən müqəddəs ana, sevimli nənədir.







The talent is the God's tax - they say. Such man is happy that, who feels, recognizes, sees processes in life with eye of soul. As the poet and writer expresses all the thing which, she or he sees and feels with the words, the musicians expresses their feelings and seeing by the music and they amuse people's spirit with their songs and music. Trying along years on music educational system, having private services on this area adjoining pedagogical activity with her scientific work, one of the ladies, the chief of department "The method of teaching Musical Instruments" of the Azerbaijan State Pedagogical University named after N.Tusi subject - Dadashova Minare Rehim qizi was born in Baku in 1948 year. She got her secondary education at school number 34 compulsory 11th Music school what of National Safety. Durin 1966 - 1971 years Minare khanum has got music education on the department "Fortepiano Mastery" of Azerbaijan State Conservatory named after Uzeyir Hacibeyov. In 1984 - 1987 years Minare Dadashova graduated from master course of the department "General Pedagogy" in Azerbaijan State Pedagogical University. In 1989 year Minare khanum has defended candidate dissertation named "Developing Creative Imagination of students of Musical department" but in 2006 year she has defended doctor dissertation on the theme "The Work system according forming the student's music knowledge, abilities and habits in fortepiano form". She is a pedagogical science doctor and professor. During 1966 - 1982 years she has been working secondary specialty music schools. From 1982 year she is trying in Azerbaijan State pedagogical University. Devoting her life for long years to her lovely profession, bringing up her students better, growing up them as an intellectual specialist Minare Rehim qizi has gained authority and great respect among the people who love and mark her hard-working, the efficiency of her scientific and pedagogical activity in the society. Minare Dadashova is a head teacher of the departmenr "Musical Instrument" in 1989 year, an assistant professor in 1994 year, but from 1994 year she is a professor. Shi is trying on the post of chief of the department "Teaching Method of Musical Instrument Subject" from 2001 years. She is an author of more than 70 scientific articles, 8 monographic, manual book and text book. For her eduactioanl services Minare Dadashova was awarded with honorable diploma by the decision of collegial of Educational Ministry of Azerbaijan Republic in 2006 year. She has got a certificate for her report in the International Conference "The problems and policy preparing teacher" in 2007 year. She was also in a winner of the compotation "The teacher of a year" according university. Minare khanum is a member of Expert and Defend Council and active public woman. From 2000 year she is a member of bureau of administrative personnel of New Azerbaijan Party. At the same time Minare Rehim qizi is a chairman of Trade - Union of pedagogical faculty of university. She is tried on the post of assistant of dean according science. She is married has 2 children. Minare khanum is a lovely granny and sacred mother who love her children and grandchildren with her whole being.





Tağıyeva Zemfira

**Dünyada ən yaxşı natiq uğurdur.**

*Napaleon*

İnsan övladı əsrlər boyu mübarizə aparır. Yaşayır, yaradır. Elm sahəsində uğurlu addımlar atılır. Alimlərimiz daha çox uğurlara nail olmaq, cəmiyyətimizin, xalqımızın, mədəniyyətimizin, eyni zamanda iqtisadiyyatımızın inkişafı naminə yorulmadan çalışır, elmi təfəkkürü, elm sahəsində nailiyyətləri ilə tarixdə özünəməxsus izlər qoymaqla yanaşı isə ali təhsil ocaqlarında müəllim kimi öyrəndiklərini həvəslə gələcək nəsillərə öyrədirlər. Gələcəyimiz olan gənclərin xoşbəxt gələcəyinin təminatının yorulmaz yolçusuna çevrilirlər. N.Tusi adına ADPU-nun "Hesablama riyaziyyatı və informatika" kafedrasının müdiri Tağıyeva Zemfira Əsgər qızı 1940-cı ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakı şəhəri 190 saylı məktəbdə almış, məktəbi qızıl medalla başa vurmuşdur. (Keçmiş) V.İ.Lenin adına (indiki ADPU) institutun riyaziyyat fakültəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1962-cı ildən 1963-cü ilə kimi Ağdaş rayonunda, şəhər 8 saylı orta məktəbində riyaziyyat müəllimi kimi başlamış, 1963-cü ildə isə Bakıya qayıdan Zemfira Əsgər qızı AMEA-nın Kibernetika İnstitutunda kiçik elmi işçi kimi fəaliyyətini davam etdirmişdir. 1966-cı ildə aspiranturada qiyabi təhsil alan Zemfira xanım, 1967-ci ildə ADPU-də baş müəllim işləmiş, 1971-ci ildə Hesablama riyaziyyatı ixtisası üzrə müdafiə etmiş, fizika-riyaziyyat elmləri namizədi adını almışdır. Dosentdir. 1985-1990-cı illərdə universitetin riyaziyyat fakültəsinin dekan müavini vəzifəsində çalışmış, 1998-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetində "Hesablama riyaziyyatı və informatika" kafedrasının müavinidir. 50-dən artıq elmi məqalələrin və 6 tədris vəsaitinin müəllifidir. Dövrü mətbuatda vaxtaşırı olaraq öz elmi məqalələri ilə çıxış edən Zemfira Tağıyeva elmi fəaliyyəti ilə yanaşı, eyni zamanda cəmiyyətimiz üçün daha savadlı gənclər yetişməsi naminə əsl müəllim fədakarlığı göstərir. İctimai işlərdə, bir çox tədbirlərdə fəal iştirak edən, Zemfira Əsgər qızı YAP-ın və İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvüdür və bir sıra beynəlxalq konfransların iştirakçısı olub. Ailəlidir.İki övladı var.

*****

The manager of "Calculation mathematics and information technology" department of Azerbaijan Pedagogical University Tagiyeva Zemfira Asger was born in Baku city in 1940. She got her secondary education at 190th school in Baku and finished the school with gold medal. She graduated from the mathematics faculty of APU. Her first work activities lasted from 1960 till 1963 as a teacher of mathematics in Aghdam region, 8th school. In 1963 returning to Baku she continued her activities as a junior research worker in Cybernetics Institute of Azerbaijan National Academy of Sciences. In 1965 she studied in post graduate course by correspondence, in 1967 worked as a head teacher of APU, in 1971 defended a thesis on speciality of calculation mathematics and was honoured with the name of Master of physics-mathematics. She is an assistant professor. In 1985-1990 she worked as the dean deputy of mathematics faculty of the university, from 1998 she is the deputy of "Calculation mathematics and information technology" department in APU. She is the author of more than 50 scientific articles and 6 means of teaching. At the same time she actively takes part in social works. Mrs. Tagiyeva is the member of Azerbaijan New Party and Specialized Defence Council and has been the participant of a few international conferences.

She is married.





Əsrlər, qərinələr ötür. Hər dövr özünəməxsus hadisələrlə bir iz qoyaraq, tarixə çevrilir. Tarixin dərin qatları nələri yaşatmır qoynunda? Tariximizi öyrətmək isə müqəddəs bir vəzifə kimi müəllimlərimizin, elm adamlarının, ümumilikdə isə təhsil işçilərinin üzərinə düşür.

Tariximizin tədrisi ilə məşğul olan, elm adamı, Qaibova (Əliyeva) Gülarə Nəcəf qızı 1940-cı ildə Gəncə şəhərində anadan olub. Orta təhsilini Gəncə şəhəri 4 saylı orta məktəbində almış Azərbaycan Dövlət Pedaqoji İnstitutun tarix fakültəsini bitirmişdir. 1971-1974-cü illərdə institutun aspiranturasında təhsil almışdır. 1974-cü ildə ilk elmi işi üzrə "Müharibədən sonrakı illərdə Azərbaycan qadınlarının elm aləmində rolu" (1946-1970) mövzusunda dissertasiyasını müdafiə edən Gülarə Nəcəf qızı 1974-cü ildə tarix elmləri namizədi adına layiq görülmüşdür. 1984-cü ildən ADPU-nun Azərbaycan tarixi kafedrasının dosenti vəzifəsində çalışır. Rəhbərlik tərəfindən təşəkkürnamələr alan Gülarə xanım, tarix fakultəsinin dekan müavini, sonralar isə Məktəbəqədər fakultənin dekanı vəzifəsinə irəli çəkilmişdir.Azərbaycan tarixi ilə bağlı bir sıra elmi tədqiqatlarla məşğul olan Gülarə xanım əsrlərdən bəri müxtəlif dövrlərdə xalqımız, onun mədəniyyəti, ictimai-siyasi həyatında baş verən hadisələr barədə tələbələrə ətraflı məlumat verir, bu fənni sevə-sevə tədris edir. Gülarə xanımın elmi tədqiqatlarının əsas istiqaməti Azərbaycan qadınlarının problemi, mədəniyyətinin, elminin, təhsilinin inkişafı problemidir. Gülarə Nəcəf qızı bir çox diplom işlərinin rəhbəri, eyni zamanda 10 nəfər dissertasiya müdafiə edən namizədlərin opponenti olmuş və bir çox Respublika və beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişdir.

1977-ci ildə Türkmənistanın Aşqabad şəhərində, 1980-ci ildə Gürcüstanın Marneuli şəhərində, 1982-ci ildə Kazaxstanın Almata şəhərində, 1982-ci ildə Litvanın Vilnüs şəhərində, 1983-cü ildə Özbəkistanın Daşkənd şəhərində, 1985-ci ildə Yuqoslaviyada Sülh fondu ümumittifaq nümayəndələrinin tərkibində iştirak etmişdir. 1979-cu ildə Tusi adına ADPU-nun tarix fakültəsinə dekan müavini təyin edilmiş, 1985-ci ildən isə universitetdə məktəbəqədər fakültənin dekanı vəzifəsini icra edir. Gülarə xanım 40 elmi məqalənin müəllifidir. "Sosializm yarışının qalibi" (1976), "Azərbaycan xalq təhsilinin qalibi"(1981), Azərbaycan Müəllimlərinin IV qurultayının iştirakçısı (1972), Azərbaycan Respublikasının "Əmək veteranı" və Azərbaycan Qadınlarının II qurultayının nümayəndəsidir.



Qaibova Gülarə

*****

Gaibova Gulara Najaf was born in Ganja city in 1940. She got her secondary education at 4th school in Ganja and graduated from the history faculty of Azerbaijan State Pedagogical University. In 1971-1974 years she studied at post graduate course of this university. In 1974 she was honoured with the name of the Master of History for her thesis "Role of the women in science after the war". She is an assistant professor of history department of Azerbaijan Pedagogical University from 1984. The basic direction of her scientific researches is the problem of the women of Azerbaijan and the problem of the development of the culture. Mrs. Gaibova has been a chief of a few diploma works, at the same time has been an opponent of the masters being examined on a doctoral thesis. She also spoke with different lectures in a few international conferences.

She took part in structure of All-Union representatives of Peace fund during the years 1977 in Turkmenistan, Ashgabat city, in 1980 in Armenia, Marneoli city, in 1982 in Kazakhstan, Alma-Ata city, in 1982 in Lithuania, Vilnius city, in 1983 in Uzbekistan, Tashkent city and in 1985 in Yugoslavia. In 1979 being appointed dean deputy of history faculty of APU, has been working as a dean of pre-school faculty of the university since 1985. Mrs. Gaibova is the author of 40 scientific articles. She is the conqueror of socialism competition (1976), the conqueror of education of Azerbaijan people (1981), the participant of Azerbaijan Women congress (1972), and thé member of Azerbaijan Women congress.



Məmmədova Rəfiqə

Azərbaycan qadınları. Respublikamızın müxtəlif sahələrində çalışan xanımlarımızın əməyi, fədakarlığı ölçüyə gəlməzdir. Peşəsinə məhəbbət, işə məsuliyyət, siyasi və ictimai işlərdə fəal iştirakı ilə bərabər, xanımlarımızın bir çoxu yüksək intellektual səviyyəsi, nəcibliyi, gözəl insani xarakteri ilə seçilir, müdrik ailə başçısı olmaqla yanaşı, eyni zamanda ölkəmizin inkişafı naminə əvəzsiz və dəyərli xidmətləri ilə fərqlənərək, səmərəli fəaliyyət göstərirlər.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Üzvi kimya və kimya texnologiyası kafedrasının dosenti Məmmədova Rəfiqə Kazım qızı da məhz belə qadınlarımızdandır. Rəfiqə xanım 1943-cü ildə Əli Bayramlı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Bakı şəhəri 3 saylı orta məktəbi bitirmiş, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin(indiki BDU) kimya fakültəsini bitirmişdir. Elmi-pedaqoji fəaliyyəti universitetdə oxuduğu illərə təsadüf edən Rəfiqə Kazım qızı ilk əmək fəaliyyətinə 1966-cı ildən 1968-ci ilə qədər, universitetin üzvi kimya və kimya texnologiyası kafedrasında laborant kimi başlamışdır. 1968-1969-cu illərdə isə assistent vəzifəsində çalışmış, 1969-cu ildə ADU-nun əyani aspiranturasına daxil olmuş, 1972-ci ildə oranı müvəffəqiyyətlə bitirmiş, namizədlik dissertasiyasını müdafiə etmişdir. Dissertasiyanın mövzusu "1,2 propandiolun və propantriolun əvəz edilmiş törəmələrinin sadə və mürəkkəb efirlərinin sintezi və tətbiqi" olmuşdur.

1972-1977-ci illərdə isə Rəfiqə Məmmədova üzvi kimya və kimya texnologiyası, kafedrasının assistenti, 1977 ci ildən hazırkı dövrə qədər dosent vəzifəsində çalışır. Kimya fənnindən mühazirələr Azərbaycan və Rus dillərində Rəfiqə xanım tərəfindən aparılır.

Pedaqoji fəaliyyəti illərində Rəfiqə xanım müxtəlif ictimai vəzifələrdə çalışmış, fəallığı ilə seçilmişdir. Azərbaycanda və Rusiyada dərc edilmiş 80-dən çox elmi məqalənin, o cümlədən 3 tədris-metodik vəsaitin, bakalavr və magistrlər üçün tədris proqramlarının müəllifidir. 1 müəlliflik şəhadətnaməsi var. Rəfiqə Kazım qızı Yeni Azərbaycan Partiyasının və S.Əliyeva adına Respublika Qadınlar Şurasının üzvüdür. Ailəlidir. Bir oğlu və bir qızı var.

*****

An assistant professor of the department Organic chemistry and chemistry technology Mammadova Rafiqa Kazim is one of the women having irreplaceable and valuable services for our country. Mrs. Mammadova was born in Ali-Bayramli city in an intellectual family in 1943. She studied at 3rd school in Baku and graduated from the chemistry faculty of Azerbaijan State University. Her first work activities lasted from 1966 to 1968 as an assistant of organic chemistry and chemistry technology department. In 1969 she entered the post graduate course of former Azerbaijan State University named after S.M.Kirov, in 1972 successfully finishing the course she defended a thesis for a Ph. Degree. She has been working as an assistant of organic chemistry and chemistry technology department since 1972-1977. She lectures chemistry in Azeri and Russian languages.

During her activities she worked in different social posts and was differed for her diligence. She is the author of more than 80 scientific articles were published in Azerbaijan and in Russia, including 3 teaching-methodic textbooks and educational programs for bachelors and holders of a master's degree. She has an authorship certificate. Mrs. Mammadova is the member of Azerbaijan New Party and Women Council of Republic named after S.Alieva.

She is married, has a daughter and a son.





Ömür var - yaşanır, yaddaşlardan silinib gedir. Ömür var ki, qoynundakı izləri əsrlər, qərinələr aşır. Unudulmur. Tarixin qaynaqlarında bərkiyir, nəsillərdən nəsillərə ötürülür. Cəmiyyət, insanlar üçün tarixə çevrilir. İnsanlar onun əməllərindən, zaman-zaman faydalanırlar. Bu tip insanlara isə bir çox görkəmli şəxsiyyətlər, sənət sahibləri ilə yanaşı, elm adamlarını da aid etmək daha məqsədəuyğundur.

Belə insanlardan, xanımlarımızdan biri də ADPU-nun Azərbaycan dilçiliyi kafedrasının müdiri Qızqayıt Hacıağa qızı Mustafayevadır. Qızqayıt xanım 1946-cı ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakıdakı 172 saylı məktəbdə almış (keçmiş) V.İ.Lenin adına APİ-nin (indiki ADPU) tarix-filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. İlk əmək fəaliyyətinə təyinatla institutun Azərbaycan dilçiliyi kafedrasında müəllim kimi başlamışdır. 1980-ci ildə "Azərbaycan bədii ədəbiyyatında şəxs adlarının üslubu imkanları" mövzusunda namizədlik dissertasiyası müdafiə edən Qızqayıt xanım 1984-cü ildən Azərbaycan dilçiliyi kafedrasının dosentidir.

Pedaqoji fəaliyyətə başladığı dövrdən Qızqayıt Hacıağa qızı "Azərbaycan dilinin üslubiyyatı", "Müasir Azərbaycan ədəbi dili", "Azərbaycan dili tarixi" fənləri üzrə mühazirə və seminar məşğələləri aparır. Bu ali təhsil ocağında işlədiyi 40 il müddətində minlərlə dil-ədəbiyyat müəlliminin hazırlanmasında var-qüvvəsini əsirgəməyən Qızqayıt Mustafayeva eyni zamanda tələbələrin ən sevimli müəlliməsinə çevrilmiş, universitetdə özünə böyük hörmət və nüfuz qazanmışdır. Qızqayıt Hacıağa qızı pedaqoji fəaliyyətini, elmi tədqiqatlarla əlaqələndirən istedadlı alimlərdəndir. Onun ilk elmi məqaləsi 1970-ci ildə universitetin "Gənc müəllim" qəzetində dərc olunmuşdur. Namizədlik dissertasiyasından sonra, Qızqayıt xanım dilçiliyin müxtəlif problemlərinə aid 100-ə qədər elmi məqaləsini BDU-nun, Tusi adına ADPU-nun elmi əsərlərində, *"Советская тюркология"* jurnalında və bir sıra qəzet və jurnalların da çap etdirmiş, "Adların üslubi imkanları" (1990), "Onomastik vahidlərin üslubi-linqvistik xüsusiyyətləri" (2001), *"Лингво-стилистические особенности антропонимов в Азербайджанской литературе"* (2002) adlı monoqrafiyasını nəşr etdirmişdir.

Q.Mustafayeva uzunillik elmi tədqiqatlarının nəticəsində "Onomastik vahidlərin üslubi-linqvistik xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası yazmış və müzakirəyə təqdim etmişdir. Qızqayıt xanım gözəl pedaqoq, elm adamı olmaqla yanaşı, respublikamızın ictimai-siyasi işlərində də fəal iştirak edir. Ailəlidir.



Qızqayıt Mustafayeva

******

One of the diligent women of our country is the manager of Azerbaijan Linguistics department of Azerbaijan Pedagogical University Gizgayit Mustafayeva. Mrs. Mustafayeva was born in Baku, in 1946. She got her secondary education at 172nd school in Baku and graduated from the history-philology faculty of Azerbaijan Pedagogical University with honors diploma. She began her first work activities as a teacher in the department of Azerbaijan linguistics of APU. In 1980 she defended a thesis for a Ph. Degree under the name "Stylistic opportunities of the names in Azerbaijan art literature" and is an assistant professor of this department from 1984. From the beginning of her pedagogical activities she lectures on different subjects. During 40 years she gained great respect and authority at the university. In 1970 her first scientific article was published in "New teacher" newspaper. 100 scientific articles of her about the different problems of linguistics were published in scientific works of Baku State University and Azerbaijan Pedagogical University, also in "Soviet Turkish" magazine and in a few newspapers. At the same time different monographs of her "Style Purpose of the names" (1990), "the style Linguistic characters of Anosmatic unit" (2001), "the linguistics style character of Anosmatic in Azerbaijan Literature" (2002) were published. She also actively takes part in social works of

She is married.



Əfəndiyeva Kəmalə

Elm elə bir zirvədir ki, bu zirvəni, yalnız Tanrının seçib dəyərləndirdiyi, sevdiyi insanlar fəth edə bilər. Elmin inkişafı cəmiyyətin, iqtisadiyyatın və mədəniyyətin inkişafı ilə sıx əlaqədardır. Təhsil və elm sahəsində xüsusi xidmətləri olan elm adamı, Azərbaycan Pedaqoji Universitetinin botanika kafedrasının dosenti Əfəndiyeva Kəmalə Qafar qızı da məhz Tanrının seçib dəyərləndirdiyi xanımlarımızdandır. Kəmalə Qafar qızı 1952-ci ildə Bakı şəhərində tanınmış ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini Bakı şəhər Yasamal rayon 172 saylı orta məktəbdə almış, məktəbi əla qiymətlərlə başa vurmuşdur. BDU-nun biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirən Kəmalə xanım təhsil aldığı ilk illərdən Tələbə Elmi Cəmiyyətinin xətti ilə elmi-tədqiqat işləri aparmış, elm aləmində ilk addımlarını atmışdır. Elm sahəsində bütün çətinlikləri dəf etməyə çalışan Kəmalə Qafar qızı bütün varlığı ilə elmin sirlərinə dərindən yiyələnməyə can atmış və buna nail olmuşdur. O, bir çox dəyərli elmi məqalələr çap etdirib, müxtəlif elmi konfranslarda iştirak edib. Elmin zirvəsinə doğru gedən çətin zəhmət və fədakarlıq tələb edən müqəddəs bir yolu cəsarətlə fəth edən Kəmalə Qafar qızı daha geniş yaradıcılıq axtarışları aparmaq üçün 1975-ci ildə Sankt-Peterburqdakı H.İ.Vavilov adına Ümumittifaq Bitkiçilik Akademiyasının aspiranturasına daxil olmuşdur. 1979-cu ildə keçmiş SSRİ EA-nın Sitologiya İnstitutunda namizədlik dissertasiyası müdafiə etmişdir. Kəmalə Əfəndiyeva 1979-82-ci illərdə Azərbaycan EA Əkinçilik İnstitutunda çalışmış, 1982-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin botanika kafedrasında işləyir. Kafedranın dosenti Kəmalə Əfəndiyevanın gərgin əməyi həmişə öz dəyərli bəhrəsini vermiş və o, 40-dan artıq elmi-metodiki nəşrin müəllifidir. Eyni zamanda bir sıra beynəlxalq elmi konfransların iştirakçısıdır. Pedaqoji və elmi fəaliyyəti ilə yanaşı Kəmalə Qafar qızı işlədiyi uzun illər ərzində öz zəhmətsevərliyi ilə seçilmiş, nəinki ADPU-nun, eləcə də respublikamızın ictimai-siyasi həyatıylı bağlı bir çox tədbirlərdə fəal iştirak etmişdir. Kəmalə Əfəndiyeva 2006-cı ildən ADPU-nun Yeni Azərbaycan Partiyasının Qadınlar Cəmiyyətinin sədri və YAP-ın Səbail Rayon Qadınlar Təşkilatının idarə heyətinin üzvüdür. Millətini, xalqını sevən bu vətənpərvər ziyalı xanım xanımlarımızın problemləri ilə də ciddi məşğul olmuş, öz köməkliyini onlardan əsirgəməmişdir. Ailəlidir. Bir oğlu var.

*****

An assistant professor of botany department of Azerbaijan Pedagogical University Efendiyeva Kamala Gafar was born in Baku in a well-known intellectual family in 1952. She got her secondary education at 172nd school in Yasamal district and graduated from the biology faculty of Baku State University with honoured diploma. A few scientific articles of her have been published and she has taken part in a few scientific conferences. In 1975 Mrs. Efendiyeva entered the post graduate course of the Academy of All-Union Plant-growing in St. Petersburg named after Vavilov. She defended a thesis for a Ph. Degree in Cytology Institute in 1979. She worked in Agriculture Institute of Azerbaijan Academy of Sciences in 1979-1982 and has been working in botany faculty of Azerbaijan Pedagogical University since 1982. She is the author of more than 40 scientific-methodic publications. At the same time is the participant of international scientific conferences. Efendiyeva Kamala is the chairwoman of Women Society of New Azerbaijan Party and is the member of staff of New Azerbaijan Party in Sabail district.

She is married, has a son.





Elmin tərəqqisi cəmiyyətin tərəqqisidir. Alimlərimizin kəşfi, ixtiraları isə bu tərəqqinin əsasını təşkil edir. Elmin bir çox sahələri ilə yanaşı, kimya elminin inkişafı, kimyəvi elementlərdən istifadə də bu cəhətdən mühüm rol oynayır və bu sahədə çalışan fədakar və elmli xanımlarımız da az deyil. Azərbaycan Dövlət Pedaqoji Universitetinin kimya fakültəsinin dekan müavini, Mahmudova Ədilə Əliyoldaş qızı da məhz belə xanımlarımızdandır. Ədilə xanım 1963-cü ildə Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi qızıl medalla başa vurmuş, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kimya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, ilk əmək fəaliyyətinə təyinatla AMEA-nın akademik Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutunda mühəndis vəzifəsi ilə başlamışdır. 1988-ci ildə instituta əyani aspiranturaya daxil olan Ədilə Mahmudova "N-benzoilaminsirkə turşusunun mürəkkəb efir tipli sintetik yağlara oksidləşməyə qarşı aşqar kimi" mövzusunda müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmişdir.

Elm, təhsil sahəsində bir sıra xidmətləri olan Ədilə pedaqoji fəaliyyətində təhsillə bağlı bir sıra problemlərin həllində özü yaxından iştirak edir, gənclərimizin savadlı bir mütəxəssis kimi yetişməsində əlindən gələn köməkliyi əsirgəmişdir. Vaxtaşırı dövrü mətbuatda elmi məqalələri ilə çıxış edən Ədilə Mahmudova Azərbaycanda və Rusiyada dərc edilmiş 40-a qədər məqalənin,o cümlədən 2 patent, dərs vəsaitləri, bakalavr və magistratura pilləsi üçün bir sıra tədris proqramlarının müəllifidir.

Ədilə Əliyoldaş qızı Mahmudova 1995-ci ildən ADPU-nun üzvi kimya və kimya texnologiyası kafedrasında Fəaliyyət göstərir.Hal-hazırda ADPU-nun kimya fakültəsinin dekan müavini vəzifəsində çalışır.Pedaqoji fəaliyyəti ilə yanaşı, bir çox ictimai işlərdə də fəal iştirak edən Ədilə xanım Yeni Azərbaycan Partiyasının üzvüdür. Ailəlidir. İki qızı və bir oğlu var.



Mahmudova Ədilə

*****

The dean deputy of the chemistry faculty of Azerbaijan Pedagogical University Mahmudova Adila Aliyoldash was born in Baku in 1963. She finished her secondary school with gold medal and graduated from the chemistry faculty of former Azerbaijan State University named after S.M.Kirov with honours diploma. Her first work activities began as an engineer at the Chemistry Institute of Admixtures named after an academic Guliev of Azerbaijan National Sciences Academy. In 1988 entering the post graduate course she defended a thesis for a Ph. Degree.

40 articles of her were published Azerbaijan and in Russia. She is also the author of two textbooks and a few teaching programs for bachelors and holders of a master's degree.

Mrs. Mahmudova has been working in organic chemistry and chemistry technolog department of Azerbaijan Pedagogical University since 1995. At present she is the dean deputy of chemistry faculty of APU.

She also takes part in different social works. She is the member of Azerbaijan New Party.

Mrs. Mahmudova is married, has two daughters and a son.



Vəzirova Leyla

Təhsil millətin gələcəyidir. Ulu Öndərimiz Heydər Əliyevin müdriklik dolu, dərin mənalı sözlərinə rəğmən, övladlarımızın, millətimizin təhsillənməsi naminə ömürlərini fəda edən, bütün varlığı ilə enerjisini, gücünü bu işə həsr edən, gözlərinin nurunu, qəlbinin sönməz hərarətini verən təhsil işçisi xanımlarımız çoxdur. ADPU-nun Rus dili kafedrasının müdiri Leyla Orxan qızı Vəzirova da məhz belə xanımlarımızdandır. Leyla xanım 1967-ci ildə Bakı şəhərində görkəmli ədib Yusif Vəzir Çəmənzəminlinin ocağında anadan olmuşdur. Orta təhsilini Bakı şəhərində almış Azərbaycan Dövlət Universitetinin (BDU) filologiya fakültəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1989-cu ildən 1990-cı tədris ilinə qədər Politexnik (indiki Texniki Universitet) İnstitutunda rus dili kafedrasında saathesabı müəllim kimi başlamış, 1990-cı ildən hazırkı dövrə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetində müəllimlik fəaliyyətini davam etdirir.

Neçə illər bu ali təhsil ocağında pedaqoji fəaliyyət göstərən Leyla xanım universitetin əksər fakültələrində praktiki və müasir rus dili fənlərini tədris edir. İşlədiyi müddətdə çoxsaylı müxtəlif ixtisaslara yiyələnən tələbələrin hazırlanmasında əlindən gələn köməkliyi əsirgəməyən, bu işə var-qüvvəsini həsr edən Leyla Orxan qızı dərs dediyi tələbələrin sevimlisinə çevrilmiş, özünə hörmət və nüfuz qazanmışdır.

Leyla Vəzirova pedaqoji fəaliyyətlə yanaşı, həm də elmi fəaliyyət göstərir. O, 2002-ci ildə "Y.V.Çəmənzəminlinin publisistikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş elmlər namizədi adına layiq görülmüşdür. 2004-cü ildən dossentdir. Bir sıra elmi əsərlərin "Y.V.Çəmənzəminlinin publisistikası", *"Особенные члены предложения в современном русском языке"*, *"Практический курс русского языка"*, *"Программа по практическому курсу русского языка для бакалавров педагогических вузов и университетов"* adlı ümumilikdə isə 47 məqalənin müəllifidir. Bu məqalələr respublikamızda və ondan kənarda bir sıra nüfuzlu elmi və mətbuat orqanlarında çap edilib. Hazırkı dövrdə də çap edilməkdədir. L.Vəzirovanın elmi tədqiqatlarının əsas istiqamət və problemi rus dilçiliyi məsələlərindən ibarətdir və o, bu istiqamətdə elmi konfrans və tədbirlərdə iştirak və çıxış edir. Hazırda Leyla xanım doktorluq *"Сопоставительный анализ русской и азербайджанской синонимики. Распределение коннотации"* mövzusu üzərində işləyir. Leyla xanım ailəlidir.

*****

The manager of Russian language department of Azerbaijan Pedagogical University Vezirova Leyla Orxan was born in the family of prominent writer Y.V.Chemenzeminli in Baku city 1957. She got her secondary education in Baku, graduated from the philology faculty of Baku State University. Her first work activities lasted from 1989 to 1990 as a teacher in the Russian language department of Technical University. From 1990 till today she continues her activities as a teacher in Azerbaijan Pedagogical University.

In 2002 she defended a thesis for a Ph. Degree under the name "The publistics of Y.V.Chemenzeminli?" and was honored with the name of Master of Sciences. She is an assistant professor from 2004. She is the author of a few scientific works like: "The sociopolitical literature of Y.V.Chemenzeminli", "Special part of sentences in modern Russian language", "Practical course of Russian language", "Program for practical course of Russian language for bachelors" and 47 articles. These articles were published in our republic and abroad. The basic direction in L.Vezirova's scientific researches consists of linguistics problems of Russian language. At present she works on her thesis for a doctor's degree called .Vezirova is married.





Zaman mübarizlik tələb edir. Cəmiyyətdə gedən proseslərdə yaxından iştirak etmək, millətinin, xalqının xoşbəxt gələcəyi naminə fəaliyyət göstərmək hər bir ölkə vətəndaşının, ziyalılarının, eyni zamanda kişilərlə bərabər çiyin-çiyinə çalışan ziyalı xanımlarımızın da ən müqəddəs borcudur.

Belə xanımlarımızdan biri Təranə Yusif qızı Rəhimli 1970-ci ildə Bakıda anadan olmuşdur. Orta təhsilini Bakıda almış, ADPU-nun filologiya fakültəsini bitirmişdir. 2003-cü ildən ADPU-nun Azərbaycan və Dünya Ədəbiyyatı tarixi kafedrasının baş müəllimidir. 2004-cü ildə namizədlik dissertasiyası müdafiə edən Tərane xanım filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Onun hələ tələbəlik illərində "Qar çiçəyi", "Addımlar" ədəbi birliklərinin yaradılmasında, "Addımlar" poeziya almanaxının nəşrində xüsusi rolu olmuşdur. Tərane xanım Azərbaycan Aşıqlar Birliyinin (poeziya şöbəsi üzrə) (1992), Azərbaycan Jurnalistlər Birliyinin (1994), Dünya Gənc Türk Yazarlar Birliyinin (1998), Azərbaycan Yazıçılar Birliyinin(1999) üzvü ,1997-ci ildə Prezident iqamətgahında ölkə başçısı Heydər Əliyevin gənc yazıçılarla görüşünün iştirakçısı, Azərbaycan Yazıçılarının X qurultayının, Azərbaycan Qadınlar qurultayının nümayəndəsi olmuş, 10-dan artıq elmi, bədii və publisistik kitabın redaktoru, ön söz müəllifi və rəyçisidir.

T.Rəhimli görkəmli ədəbiyyatşünas, akademik Kamal Talıbzadənin elmi fəaliyyətinə həsr olunmuş "Böyük nəslin layiqli yadigarı" adlı monoqrafiyanın, "Dərdin pıçıltısı" adlı şeirlər kitabının, "Ədəbiyyat və tənqidin yaradıcılıq problemləri" adlı dərs vəsaitinin, 200-dən artıq elmi-nəzəri məqalənin, oçerk və publisist yazıların müəllifidir. Eyni zamanda o, müxtəlif illərdə "Gənc müəllim" qəzetinin məsul katibi, baş redaktoru, "Zaman" qəzetinin məsul katibi, "Təhsil problemləri" qəzetinin redaktoru, olmuş"Azərbaycan Mübarizləri"qəzetinin baş redaktorudur.Tərane xanım respublikanın siyasi həyatında da fəal iştirak etmiş, YAP-ın ilk üzvlərindəndir. O, YAP Səbail Rayon təsis konfransının nümayəndəsi seçilmiş, "Gənc Anavətənçilər" assambleyasının üzvü kimi səmərəli fəaliyyət göstərmişdir. Tərane Rəhimli "1960-1970-ci illər Azərbaycan nəsri ədəbi tənqiddə" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir. O, eyni zamanda ADPU-nun filologiya fakültəsinin magistratura və bakalavr pillələrində müxtəlif fənlərdən mühazirələr aparır. Tələbə gənclərin elmi işə marağının artması yönümündə təbliğati işlər görən Tərane Yusif qızı onların elmi tədbirlərdə təmsil olunmasında köməklik göstərir, hazırladıqları məruzə və tezislərə elmi rəhbər qayğışını əsirgəmir. T.Rəhimli "Batı Trakya türkləri ədəbiyyatı"nın, Azərbaycan ədəbi tənqidinin və bədii nəsrinin müxtəlif problemlərinə dair tədqiqatlar üzərində işləyir və müntəzəm olaraq mətbuatda çap etdirir. T. Yusif qızı 2007 ci ildə "Qafqaz Media" İB - nin fəxri- fərmanı ilə təltif edilmiş, 2006 - 2007 ci ildə filologiya fakultəsinin dekanlığı tərəfindən rəsmi təşəkkür almışdır.



Rəhimli Tərane

Rahimli Tarana Yusif was born in 1970 in Baku city. She got her secondary education in Baku and graduated from the philology faculty of APU. She has been working as a teacher in history of Azerbaijan and World literature department of APU since 2003. Defending a thesis for a Ph. Degree under the name "The creative activities of Kamal Talibzade", she was honored with the academic degree of Master of Philology in 2004. Still, in her student years she had a specific role in the publication of literary unities "Snow flakes", "Steps" and in the publication of anthology "Steps". She has been the member of Ashugs' Union (1992), Azerbaijan Journalists' Union (1999), the World Young Turkish Writers' Union (1998) and Azerbaijan Writers' Union. In 1997 she was the participant of the meeting of young writers with Heidar Aliev in President's Residence. At the same time she was the representative of Azerbaijan Writers' X Congress and Azerbaijan Women Congress. She is the editor, author of front word, and reviewer of a few scientific books and works of art.

Tarana Rahimli is the author of the monograph "Worthy successor of big generation" devoted to scientific activities of prominent academic Kamal Talibzade, book of poems under the name "Whisper of the grief", textbook named "Creative problems of literature and criticism", more than 40 scientific articles and 200 essays and publicist information. At the same time in different years she has been the secretary and editor-in-chief of the newspaper "The Young Teacher", the secretary of the newspaper "Time" and the editor of the newspaper "Educational Problems".

At the same time Tarana Rahimli has actively taken part in political life of our republic, she is the member of Azerbaijan New Party. She has been elected the representative of the conference of Yasamal district NAP and has acted as the member of "Young motherland lovers " assembly. She works on her thesis for a doctor's degree called "Literary criticism of Azerbaijan prose in 1960-1970". At the same time she lectures different subjects in philology faculty of Azerbaijan Pedagogical University. Tarana Rahimli works on researches about the problems of Azerbaijan literary criticism and literary prose.







## Azərbaycan Dillər Universiteti
## The Azerbaijan University of Languages



*1937 - ci ildə " Xarici dillər"fakultəsi kimi APİ - nin nəzdində açılmışdır.*

*1973 - cü ildə M. F. Axundov adına ADPİ - nin "Qərbi Avropa dilləri" fakultəsinin bazasında yaradılmış Azərbaycan Pedoqoci Dillər İnstitutu kimi fəaliyyətə başlamışdır. Hazırda Azərbaycan Dillər Universiteti adı ilə fəaliyyətini davam etdirir. Universitetdə 756 - ya yaxın professor - müəllim heyyəti çalışır. 176 nəfəri elmlər namizədidir. Onlardan 99 - u qadındır.*

*36 elmlər doktorundan 17 - si, 7 dekandan 3 - ü, 7 prorektordan 1 - i qadındır. Həmçinin şöbə müdirlərindən : 7 - si , Amerike mərkəzi : TRK 4 -ü, 35 kafedra müdirindən 17 - si, rəhbər vəzifələrdə çalışanlardan 28 - nəfərini qadınlar təşkil edir.*

*It was opened attached to API as "Foreign Languages" faculty in 1937 year.*

*In 1973 year it was founded on the basic of "Western Europe Languages" faculty of ASPI named after M. F.Akhundov and began, to act as the Azerbaijan Pedagogical Institute of Languages. At prsenet it continues her activity by the name of the Azerbaijan of Languages University. There are trying about 756 professors - teachers crew, in the University and 176 of them are candidates of sciences. 99 of them are women. 17 of 36 doctor scientists, 3 of 7 deans, 1 of 7 pre-rectors are women. Also from department chiefs: 7 American Centre, 4 of TRC, 17 of 35 chief departments and 28 persons from trying leader posts are consist of women.*



Hüseynzadə Gülnar

Zaman mübarizləri sevir. Zamanın nəbzinə uyğun cəmiyyətdə fəal mövqe tutanların, vətən, xalq üçün çalışanların da qiymətini elə zaman özü verir. Elm sahəsində özünəməxsus xidmətləri olan, fədakar xanımımız, Azərbaycan Dillər Universitetinin "Xarici dillərin tədrisi metodikası" kafedrasının müdiri, pedoqoji elmlər doktoru, professor Gülnar Cabbar qızı Hüseynzadənin də qiymətini elə zaman, insanlar, onu dərin məhəbbətlə sevən tələbələri verib. Məşhur Topçubaşovlar ailəsindən olan, Hüseynzadə Gülnar (Bağırova) 1953-cü il may ayının 13-də Bakıda ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini Bakıdakı 23 saylı məktəbdə almış, Azərbaycan Xarici Dillər İnstitunu fərqlənmə diplomu ilə bitirmişdir. Elmi Şuranın qərarı ilə institutda saxlanan Gülnar Cabbar qızı, ilk əmək fəaliyyətinə də məhz təhsil aldığı institutda müəllim kimi başlamışdır. 1977- 1978-ci illərdə Leninqrad Pedoqoji İnstitunun aspiranturasında təhsilini davam etdirən, Gülnar xanım namizədlik dissertasiyası müdafiə edərək, elmlər namizədi alimlik dərəcəsini almışdır. 1995-ci ildə "Xarici dillərin tədrisi metodikası" kafedrasının müdiri vəzifəsinə seçilən, Gülnar Hüseynzadə, hazırkı dövrə qədər də bu vəzifəni icra edir.O, 2004-cü ildə "Xarici dildə nitq ünsiyyətinin linqvo- didaktik təhlili" adlı doktorluq dissertasiyası müdafiə etmiş, pedoqoji elmlər doktoru adına layiq görülmüşdür. Gülnar Cabbar qızı 1999-cu ildən Beynəlxalq İngilis dili Assosiyasının üzvüdür. O, bir çox ölkələrdə- Rumıniyada, Slovakiyada, İngiltərədə, Şotlandiyada, İrlandiyada, Avstriyada, Belçikada və digər ölkələrdə, beynəlxalq elmi konfranslarda iştirak etmiş və məruzələrlə çıxış etmişdir. 1998-ci ildə Britaniya şurasının xətti ilə Kembridc Universitetində təkmilləşmə kursu keçmişdir. Gülnar Hüseynzadə 1999-cu ildən Britaniya ELTEKS şurasının üzvü, Avropa Şurasının nəzdində Avstriyanın Qras şəhərindəki Avropa Dilləri Mərkəzinin eksperti seçilib. 2007-ci ildə Avropa təhsil sisteminin inteqrasiya çərçivəsində Belçikada treninq və seminarlarda iştirak etmişdir. Gülnar Cabbar qızı hazırda ADU-nun professorudur. Universitetin YAP- Qadınlar Şurasının sədridir. O, təhsildəki yüksək xidmətlərinə görə müxtəlif dövrlərdə, müxtəlif fəxri-fərmanlarla və diplomlarla təltif olunmuşdur. Hüseynzadə Gülnar (Bağırova) 2001-ci ildə nəşr olunmuş, "Xarici dildə nitq kommunikasiyasının tədrisi" adlı monoqrafiyanın, orta məktəbin V sinfi üçün ingilis dili dərsliyinin, 70 - dən artıq elmi elmi məqalələrin müəllifidir. O, bir çox aspirant və dissertantlara rəhbərlik edir və onların bir neçəsi artıq müdafiə etmişdir. Gülnar xanım ailəlidir. İki övladı var.







Azayeva Sabira Agha Rza was born in Baku in 1953. She got her secondary education at 18th school of Yasamal district and graduated from the Institute of National Economy named after D.Bunyadzade. Her first work activities began as a head economist in the head office on Calculation of State Statistics Committee in 1976. In 1985 she was elected the chairwoman of the Council of Labour Collective of the Head Calculation Centre of Azerbaijan State Statistics Committee. Azayeva Sabira was appointed the deputy of the chief of department in 1992. At present she works as a deputy of "Demography statistics" department of the Head Calculation Centre of State Statistics Committee. She is the member of New Azerbaijan Party and Azerbaijan Women Council. She actively takes part in conferences and meetings held in the republic. She was honoured with honorary decrees by State Statistics Committee for her high deserts. She is married, has a son and a grandchild. Mrs. Azayeva is proud of her only grandchild Farid and takes pleasure in his successes.



Əliyeva Sona

Ömr insanlara Tanrı əmanətidir. Layiqli ömr yaşayanlar, öz dəyərli xidmətləri, xeyirxah əməlləri ilə ömr səhifələrinə iz salanlar, Tanrı və insanlar qarşısında ən böyük mükafata layiqdirlər. Layiqli ömr yaşayan xanımımız, Əliyeva Sona Qədir qızı 1938 - ci ildə Ağdam rayonunun Şıxbabalı kəndində anadan olmuşdur. Orta təhsilini Şıxbabalı kəndində almışdır. 1956-cı ildə D.Bünyadzadə adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstituna daxil olmuş, 1959 - cu ildə Gəncə şəhər Kənd Təsərrüfatı İnstitunun "Plan İqtisadiyyat" fakultəsinə keçmiş, 1961- ci ildə təhsilini başa vurmuşdur. 1961 - 1963 cü illərdə Mərkəzi Statistika İdarəsində iqtisadçı, 1964 cü ildə həmin idarənin nəzdində olan Maşın Hesablama Stansiyasında baş iqtisadçı vəzifələrində çalışmış, 1975 ci ildən Tikinti Statistikası Məlumatları şöbəsinin rəisi vəzifəsində fəaliyyət göstərir. İşlədiyi illər ərzində Sona xanım daim işinə məsuliyyətlə yanaşmış, qarşısına qoyulan vəzifələri layiqincə yerinə yetirmişdir. Əməli fəaliyyəti ilə yanaşı, ictimai işlərdə də iştirak edən, Sona Qədir qızı Respublikada keçirilən konqreslərin, iclasların və digər tədbirlərin də fəal iştirakçısı olmuşdur. İşindəki yüksək göstəricilərinə görə, Sona Əliyeva dəfələrlə orden və medallarla təltif edilmiş, bir sıra fəxri - fərmanlara və mükafatlara layiq görülmüşdür. İşlədiyi kollektivin hörmət və sevgisini qazanmışdır. Sona xanım ailəlidir. Bir oğlu və beş nəvəsi var.

Aliyeva Sona Gadir was born in Shikhbabali village of Aghdam region in 1938. Getting her secondary education in Shikhbabali village, in 1956 she entered Azerbaijan State Institute of National Economy, in 1959 passed to the "Plan economy" faculty of Agricultural Institute of Ganja and graduated from the institute in 1961. In 1961-1963 she worked as an economist in Central Statistics Office, in 1964 as a head economist in Station of Counting Machine and from 1975 she is the chairwoman of Statistical Information of Construction department. During her work activities she has always been responsible to her work. Also she takes part in social works; she has been the participant of a few congresses, meetings held in our Republic. Aliyeva Sona has repeatedly been rewarded with order and medals, and has been honoured with a few honorary decrees and prizes. She has earned love and respect of the collective at her work. Mrs. Aliyeva is married, has a son and 5 grandchildren.







İnsan müsbət keyfiyyətləri, əməlləri ilə yüksələr deyirlər. İşlədiyi uzun illər ərzində öz müsbət keyfiyyətləri ilə fərqlənən, pillə - pillə yüksələn xanımımız, Almaz Cəfər qızı Suleymanova 1950 ci ildə Qax rayonunun Qaxmuqal kəndində anadan olmuşdur. Orta təhsilini Qax rayon səkkizillik məktəbində almış və 1 saylı məktəbdə davam etdirərək başa vurmuşdur. Bakı Plan İqtisad Texnikomunu iqtisadçı texnik ixtisası üzrə bitirmişdir. İlk əmək fəaliyyətinə Qax rayon 11 saylı Tikinti İdarəsində başlamış, 1969 - 1970 ci illər burada mühasib vəzifəsində çalışmış, əmək fəaliyyətini 1970 - 1974 cü illərdə Qax rayonunun "Qəbələ" kolxozunda mühasib köməkçisi vəzifəsi ilə davam etdirmişdir. 1974 - 1976 cı illərdə onu Azərbaycan LKGİ-nin Qax rayon komitəsində uçot və maliyyə bölməsinin müdiri vəzifəsinə irəli çəkmişlər. Ali təhsil almaq arzusu ilə Almaz xanım 1970 ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitunun "Xalq Təsərrüfatının Planlaşdırılması" fakultəsinə daxil olmuş, 1975 ci ildə əməyin iqtisadiyyatı ixtisası üzrə təhsilini müvəffəqiyyətlə başa vurmuşdur. Almaz Suleymanova 1977 - ci ildən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Baş Hesablama Mərkəzinin Mühasibat Uçotu şöbəsinin müdiri, baş mühasib vəzifəsində çalışır. O, işlədiyi sahə ilə yanaşı, ictimai işlərdə də fəal iştirak etmiş, 1972 - 1976 cı illərdə iki çağırış Qax Rayon Xalq Deputatları Sovetinə deputat seçilmiş, yüksək əmək fəaliyyətinə görə "Əmək veteranı" medalı ilə təltif olunmuşdur. Almaz xanım ailəlidir. Bir qızı, iki oğlu,1nəvəsi var.



Süleymanova Almaz

Suleymanova Almaz Jafar was born in Qakhmuga village of Qakh region in 1950. She got her secondary education first at eight-year school of Qakh region and continued her study at 1st school. She graduated from Baku Plan technical school of Economy on speciality of economist technician. Her first work activities began in 11th Office of Construction of Qakh, in 1969-1970 worked as a book-keeper, then continued her activities in the kolkhoz "Gabala" of Qakh as a book-keeper assistant in 1970-1974 years. In 1974-1976 she worked as the manager of the calcualation and finance department in Qakh region committee of Azerbaijan LKGI. In 1970 Mrs. Suleymanova entered the faculty "Planning of National Economy"of the Institute of National Economy, and in 1975 she successfully finished her study on speciality of the economy of the labour. Almaz Suleymanova has been working the head book-keeper in the Calculation of the book-keeping department of the Head Calculation Centre of State Statistics Committee since 1977. Also she actively takes part in social works. In 1972-1976 years she was elected the deputy to the Soviet of People's Deputies of Qakh region, for her high deserts she was honoured with the medal "Labor veteran". Mrs.Suleymanova is married, has a daughter and 2 sons.



Cəfərova Qumru

Fədakarlıq insan övladına məxsus ali bir hissdir. İşinə sevgi və məsuliyyətlə yanaşan, öz dəyərli xidmətləri ilə cəmiyyətdə özünəməxsus yer tutan fədakar xanım, Cəfərova Qumru Vaqif qızı 1968 ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakıda almış, Bakı Dövlət Universitetini bitirmişdir. 1994 cü ildə Azərbaycan Dövlət Statistika Komitəsinə iqtisadçı vəzifəsinə işə qəbul edilmiş, 1995 ci ildən 1977 ci illədək Əsaslı Tikinti Statistikası şöbəsi müdirinin müavini, 1977 ci ildən 2003 cü ilədək Əsaslı Tikinti Statistikası İdarəsinin podratçı və Mənzil Kommunal Təsərrüfatı Statistikası şöbəsinin müdiri vəzifələrində çalışmış, 2003 cü ildən hazırkı dövrə qədər Tikinti Statistikası şöbəsinin sektor müdiri vəzifəsini icra edir. Qumru xanım vəzifə borcunu layiqincə yerinə yetirir. İctimai işlərdə və rəhbərlik etdiyi sektorun üzərinə düşən işlərin və şöbənin ümumi işlərinin icra edilməsində fəal iştirak edir. Beynəlxalq standartlara uyğun şöbəyə və sektora aid olan rəsmi statistika hesabatlarının təkmilləşdirilməsində, sadələşdirilməsində, hesabatların tərtib edilməsinə dair metodoloji izahatların hazırlanmasında tabeliyində olan işçiləri də cəlb etməklə fəal iştirak edir və eyni zamanda şöbəyə və sektora dair beynəlxalq təşkilatlardan daxil olan bütün sorğuların cavablandırılmasını təmin edir. Rəhbərlik etdiyi sahəyə və şöbənin bütün işlərinə dair yerli statistika orqanlarının işçilərinə tikinti statistikasına dair metodoloji tövsiyyələrin verilməsini və onlara praktik köməklik göstərilməsini təmin edir. Q. Cəfərova ölkədə baş verən sosial - iqtisadi dəyişikliklərin rəhbərlik etdiyi sektor və şöbə üzrə məruzələrin və digər statistik məlumatların hazırlanmasını layiqincə yerinə yetirir. İşlədiyi sahəyə və şöbəyə aid beynəlxalq layihələrin yerinə yetirilməsində iştirak edir. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanuna uyğun olaraq 2003 cü ildə Q. Cəfərovaya Dövlət qulluğunun kiçik müşaviri ixtisas dərəcəsi verilmişdir. Ailəlidir. İki övladı var.

*****

Jafarova Gumru Vagif was born in Baku in 1968. She got her secondary education in Baku and graduated from Baku State University. In 1994 she was accepted to the work as an economist to Azerbaijan State Statistics Committee, from 1995 till 1977 she was the deputy of the Capital Construction Statistics department, from 1977 till 2003 was the contractor of the Office of Capital Construction Statistics and the manager of the Flat Communal Economy Statistics, and from 2003 till today she works as the manager of the sector of Construction Statistics. She actively takes part in improvement and simplification of the reports of official statistics of the department and sector which are suitable for international standards and also in preparing methodological explanations about the compiling of the reports by involving the workers being in her subordination and at the same time she secures answering all questions asking by international organizations. Gumru Jafarova fulfils decently preparing lectures and other statistical information on socio-economical changes in the department and sector led by her. In 2003 she was given a speciality degree of the adviser of state service according to "About state service" Law of Azerbaijan Republic. Mrs. Jafarova is married, has 2 children.





## Daxili İşlər Orqanlarının əməkdaşları
## The Employees of Internal Affairs Organs



*Daxili İşlər Nazirliyi 1918 - ci il 21 iyul tarixində Azərbaycan Xalq Cumhuriyyəti tərəfindən yaradılmışdır. Müxtəlif illərdə müxtəlif adlar altında fəaliyyət göstərmişdir.*

*1. 1921 - ci ildə Azərbaycan SSRİ - nin Xalq Daxili İşlər Komissarlığı.*

*2. 1931 - ci ildə Fəhlə- Kəndli baş milis və Cinayət axtarışı idarəsi.*

*3. 1945 - ci ildə Azərbaycan SSRİ - nin İctimai Asayişin Mühafizə Nazirliyi.*

*4. 1965 - ci ildə Azərbaycan SSRİ - nin Daxili İşlər Nazirliyi.*

*5. 1991 - ci ildən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi.*

*Azərbaycan Respublikadsı Daxili İşlər Nazirliyində 2009 - cu tarixdən 691 qadın çalışır. Onlardan 217 - si zabitdir.*

***Internal Affairs Ministry was founded by Azerbaijan Nation Democracy on the date of July of 1918. It was acted under various names in different years:***

***1. In 1921 Azerbaijan SSR Nation Internal Affairs Commissars***

***2. In 1931 Worker Peasant Head Police and Criminal Research Office***

***3. In 1945 Azerbaijan SSR Guarding Ministry of the Public Tranquility***

***4. In 1965 Azerbaijan SSR Internal Affairs Ministry***

***5. In 1991 Azerbaijan republic Ministry of Internal Affairs***

***There are trying 691 women at Azerbaijan Republic Ministry of Internal Affairs since 2009 year. 217 of them are officer.***



Bəşər tarixinin inkişaf yolu əsrlərdən üzü bəri mübarizələr yolu olub. Öz amalı, əqidəsi uğrunda mübarizə aparanlar həmişə son anda qalib gəlib, xidmətləri ilə tarixin əbədiyaşar səlnaməsində silinməz izlər salıblar. Yalnız o kəslər nəsillərin qəlbində yaşayıblar ki, onlar misilsiz şücaətləri, inam və etiqadları, bacarıq və istedadları ilə cəmiyyətdə özlərinə layiqli yer tutublar. Cəmiyyətdə özünə layiqli yer tutan, vətənini, millətini dərin məhəbbətlə sevən, xalqının asayişi keşiyində məğrur dayanan ləyaqətli və mübariz xanımımız, Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin baş inspektoru, polis polkovniki leytenantı Şıxəliyeva Rəbiyə Allahverdi qızı 1961 - ci ildə Azərbaycanın dilbər guşələrindən birində Göyçay rayonunda anadan olmuşdur. Orta təhsilini Göyçay şəhər 7 saylı məktəbində almış, Azərbaycan Dövlət Tibb Universitetinin "Jurnalistika" fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə universiteti bitirdikdən sonra 1985 - ci ildə Azərnəşrdə korrektor vəzifəsi ilə başlamışdır. Bir neçə il burada çalışan Rabiyə Şıxəliyeva sonralar, 1992 - ci ildən 1996 - cı ilə qədər Milli Təhlükəsizlik Nazirliyinin mətbuat xidmətinin əməkdaşı kimi fəaliyyətini davam etdirmişdir. R. Allahverdi qızı 1996 - cı ildən hazırki dövrə qədər Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin baş inspektoru, polis polkovniki leytenantı vəzifəsində çalışır.

Ömrünün 13 ilini bu peşəyə həsr edən Rəbiyə xanım işlədiyi illər ərzində həmişə xidməti vəzifəsini layiqincə yerinə yetirib, işinə sevgi və məsuliyyətlə yanaşıb. Əsl jurnalist və vətənpərvər xanım kimi peşəsinə sədaqətli olub. O, müxtəlif dövrlərdə dövrü mətbuatda Daxili İşlər Orqanlarında işləyib təqaüdə çıxan, sonralar isə respublikamızın müxtəlif sahələrində yüksək vəzifələrdə çalışan insanlar haqqında dəfələrlə məqalələr yazıb nəşr elətdirib. R. Şıxəliyeva müstəqil Azərbaycanın 1998 - ci ildə keçirilən ilk Qadınlar Qurultayının iştirakçısı olub. Vətəninin, xalqının ağrı - acılarını qəlbində daşıyan, millətini sevən ziyalı xanım - jurnalist kimi, Rəbiyə xanımın ən ağrılı və ən çox qələmə aldığı, şəhid mövzusu olub. Qarabağda şəhid olan Daxili qoşunların və Daxili İşlər Orqanlarında çalışan, torpaqlarımız uğrunda şəhid olanları böyük ürək yanğısı ilə qələmə alıb. "- Bu mənim üçün daim ən məsuliyyətli mövzu olub"- deyən Rəbiyə xanım özü də vaxtaşırı olraq Şəhidlər xiyabanına gedərək şəhidləri ziyarət edir. Qəlbində vətənə qarşı məhəbbəti aşıb - daşan Rəbiyə Allahverdi qızı, bütün varlığı ilə ruhən ana torpağa, xalqımıza, peşəsinə bağlıdır. Rəbiyə xanım ailəlidir. İki övladı var.







The developing way of mankind history was been the fights' way since centuries. Those who are fighting for their faith and purpose have always won at the end. And they have made indelible tracks immortal chronicle history by their services. Only those people lived in heart of generation that they have taken valuable place for themselves in the public with their unexampled prowess, trust and faith, ability and talent. Taking valuable place to herself in public, loving her country and nation with deep love, standing in guard to tranquility of people our decently and fighter lady, the head inspector of press service of Internal Affairs Ministry, police colonel lieutenant Shikheliyeva Rebiye Allahverdi qizi was born in one of the charming corner of nature of Azerbaijan Goychay region in 1961 year. She has got her secondary education at school number 7 of Goychay town and graduated from "Journalist" faculty of Azerbaijan State University. After graduating from univwrsity she began her first work activity as a corrector post in Azerbaijan publish house in 1985 year. She tried here some years and then Rebiye Shikheliyeva had been continuing her activity as an employee of press services of Ministry of National Security from 1992 till 1996 year. From 1996 till present time Rebiye Allahverdi qizi has tried on the post of police colonel lieutenant, head inspector of press services of Internal Affairs Ministry.

Devoting her 13 years of her life Rebiye khanum has always fulfilled her service duty decently during her working years and she has approached her work with love and responsibility. As a real journalist and patriotic lady she was been devoted to her profession. She wrote and published articles about the people after retiring on a pension who was trying on the high post of different spheres of Internal Affairs Organs of our republic. Rebiye Shikhieliyeva was been the first participation of women Conference of Independent Azerbaijan. This intellectual lady who is carrying her country and people's troubles in her soul, and loving her people as a journalist, the main and the most describing theme of Rebiye khanum was "victim". She described being killed for faith, who was trying at Internal Affairs Organs and Internal Troops in Qarabag war with heart thirst - "It was a responsible theme for me always". - Says Rebiye khanum and she timely goes to "Shehids' Avenue" and visits victims of our country. Boiling up the love in her soul to her country Rebiye Allahverdi qizi is connected to her profession, motherland and people with her whole being cordially. Rebiye khanum is married and has 2 children.





Əliyeva Aygün

Vətən, xalq igid övladları ilə tanınar, deyiblər. Vətənini, xalqını sevənlər Tanrı qarşısında ən böyük mükafata layiqdirlər. Cəbhə bölgələrində əsgərlərimizlə çiyin - çiyinə vuruşan, həyat yoldaşı milli qəhrəman şəhid, Əliyev Vasiliy Əhməd oğlunun adına layiq ömür yaşayan Həcər qeyrətli xanımımız, Qarabağ veteranı, "Əla xidmətlərə görə" döş nişanlı, Sumqayıt şəhər 3- cü Polis bölməsinin kadrlar şöbəsinin inspektoru, Yetkinlik yaşına çatmayanlarla iş üzrə polis mayoru Əliyeva Aygün 1963 - cü ildə Qubadlıda anadan olmuşdur. Orta təhsilini Qara İlyasov adına qəsəbə məktəbində almış, Bakı Kooperativ Texnikomunun "Sənaye malları əmtəəşünaslığı" fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1980- ci ildə Qubadlı Rayon İstehlak Cəmiyyətində əmtəəşünas kimi başlamışdır. Qarabağ müharibəsinin başlanması, Qubadlı Rayon Polis İdarəsinin əməkdaşı olmuş, həyat yoldaşı Vasilinin döyüşlərin birində qəhrəmancasına şəhid olması, Aygün Əliyevanın qəlbində dərin ağrılı izlər buraxmış və o, 1993 - cü ildə qəhrəman həyat yoldaşının yolunu davam etdirmək məqsədi ilə Qubadlı Rayon Polis İdarəsinə işə girmiş, sıravi polis nəfəri işləmişdir. Elə həmin ildə Polis Akademiyasına qəbul olmuş, akademiyanı 1999- cu ildə bitirmişdir. 2 - 3 aydan sonra ona zabit rütbəsi verilmişdir. Bir müddət Azyaşlılar üzrə inspektor vəzifəsini icra edən Əliyeva, sonralar pasport masa rəisi vəzifəsinə təyin edilmiş, Qubadlının işğalından sonra, Qubadlı Polis şöbəsinin yarısı Sumqayıta, yarısı Fizuliyə köçürülmüş və Aygün xanım 1998 - ci ilə qədər burada xidmət etmişdir.1998- ci ildən Sumqayıt şəhər Polis İdarəsinə dəyişdirilmiş, Azyaşlılar üzrə baş əməliyyat müvəkkili vəzifəsinə təyin edilmişdir. 2004 - ci ildən Sumqayıt şəhər 3 - cü Polis bölməsində kadrlar şöbəsinin inspektoru vəzifəsini icra edir. 15 il polis sistemində çalışan Aygün Əliyeva xidməti vəzifəsini layiqincə yerinə yetirir. O, 2004 - cü ildə Daxili İşlər Nazirliyi tərəfindən "Əla xidmətlərə görə" döş nişanı ilə təltif edilmişdir. 2 övladı, 2 nəvəsi var. Həyat yoldaşının yolunu fəxrlə davam etdirən, onun adına layiq övladlar böyüdən A. Əliyeva övladları və nəvələri ilə qürur duyur.







The country, people should be known by their brave children, it was said. Those who love her country and people in front the Great God are deserved the greatest prizes. The inspector of the Personnel Department of the 3rd Police station in Sumgayit city is the wife of our national hero, martyr Aliyev Vasili Ahmad oglu. Agun khanum fought with our soldier shoulder to shoulder in the front regions, she is a veteran of Qarabag and was awarded with breast emblem "For Excellent Services". Aygun khanum Aliyeva was born in Qubadli in 1963 year, she has got her secondary education village school by named Qara Ilyasov. Then she finished Baku Cooperation College "Science of Commodities of Industry goods" faculty. She began her first work activity as the expert of commodities at the Consumer society in Qubadli region in 1980 year. The beginning of Qarabag war and being her husband Vasili's martyr as a hero in one of the battles have allowed deep painful tracks in her soul. In 1993 year she was taken on the employment in Police Office in Qubadli region and worked as a person of ordinary police for the aim of continuing her hero husband's way. At the same year she entered the Police Academy. And Aygun khanun graduated from Academy in 1999 year. After 2 - 3 months she was given an Officer rank. For some years she fulfilled the inspector post on Juvenile and then Aygun khanum was appointed the chief of Passport table. After the occupation of Qubadli the half of Qubadli Police Department was moved to Sumgayit, but another half part was moved to Fuzuli region. Till 1988 year Aygun khanum served here. From 1988 year the place of Qubadli Police department was changed to Sumqayit. And she was appointed on the post of Head operation commissioner on Juvenile. From 2004 year Aygun khanum carries out the post of the inspector of Personnel department in 3rd Police station in Sumqayit. Aygun khanum has tried for 15 years in Police system and has always fulfilled her duty decently. She was awarded with breast emblem "For Excellent Services" by the Internal Affairs Ministry. She has two children and two grandchildren. Aygun Aliyeva feels pride of her children and grandchildren as she continues her husband's way proudly. And she brings up her children suitable her husband's name.





Nağızadə Umara

Zaman mübarizlərindir. Öz peşəsini dərin məhəbbətlə sevən, mübariz, dəyanətli və qeyrətli xanımımız, Bakı şəhər Baş Polis İdarəsinin polis mayoru Nağızadə Umara Aytəkin qızı 1969 - cu ildə Bakıda anadan olmuşdur. Orta təhsilini Bakı şəhəri Şəbael rayon 6 saylı məktəbində almış, Bakı Dövlət Universitetinin Hüquq fakultəsini qızıl medalla bitirmişdir. İlk əvvəl Moskva Ümumittifaq Hüquq Universitetinə daxil olan Umara xanım, təhsilinin yarısını Bakı Dövlət Universitetində davam etdirmişdir. İlk əmək fəaliyyətinə 1991 ci ildən Daxili İşlər Orqanlarında başlayan U. Nağızadə əvvəlcə Gəncə şəhər Polis İdarəsində polis nəfəri kimi çalışmış, 1992 ci ildən tədqiqatçı kimi fəaliyyətini davam etdirmişdir. Bir müddət sonra, Baş Nəqliyyat İdarəsinə müstəntiq təyin edilmiş, işdəki fəallığı nəzərə alınaraq, sonralar Baş Polis İdarəsinin müstəntiqi, Səbael Rayon Polis İdarəsinin müstəntiqi və baş müstəntiqi vəzifələrinə irəli çəkilmişdir. Polis mayoru vəzifəsinədək Umara xanım, düz 10 il Səbael Rayon Polis İdarəsində xidmət etmişdir. Xidməti vəzifəsini layiqincə yerinə yetirən, Nağızadə, 2006 ci ildən Bakı Baş Polis İdarəsinin Ağır Cinayətlərə dair İstintaq İdarəsinin müstəntiqidir. İşlə əlaqədar bir çox çətinliklərin öhtəsindən məharətlə gələn, peşəkar işçi kimi bir çox cinayətlərin açılmasında xüsusi əməyi olan, əsl qanun keşikçisi kimi xidməti vəzifəsində yüksək göstəricilərə malik olan bu xanımın fədakarlığı ölçüyəgəlməzdir. 17 illik əmək fəaliyyətində sənətə olan məhəbbəti onu daha ciddi - cəhdlə işləməyə sövq edib. Umara xanımın əməyi dövlətimiz tərəfindən qiymətləndirilmiş və o, Daxili İşlər Nazirliyinin Fəxri - fərmanı ilə təltif olunmuş, "İşdəki qüsursuz xidmətə görə" 1ci və 2 ci dərəcəli medala layiq görülmüşdür. Umara xanım ailəlidir. İki qız övladı var.

*****

Time is for fighter. Loving profession deep passionately, self-possessed and honorable fighter, Nagizade Umara Aytekin qizi was born in Baku in 1969 and she is Police major of the Head Police Office in Baku city. She had got her secondary education at school number 6 in Baku in Sabael region and she graduated from Law faculty of Baku State University with gold medal. At first she entered the Moscow University of All-Union right and then she continued her education at Baku State University. From 1991 years she began her first activity in the Internal Affairs Organs and at first Umara khanum fulfilled police person. From 1992 year she continued her work active as investigator. In the shortest time she was appointed the inspector of the Head Transport Office, taking into account her activity in the work, then Umara khanum was forwarded in the post of Inspector of the Head Police Office and head Inspector in Sabael region. Till post of Police Major, about 10 year she serviced in the in the Police Office in Sabael district. Fulfilling Official duties decently, from 2006 year Nagizade is an inspector of the Head Police Office concerning heavy crimes of interrogation Office in Baku. Connected with work Umara khanum manages the some difficulties skillfully and she is a professional special labor in the opening of the some crimes. Selflessness of this lady is immeasurable as a guardsman of origin law to high indicators in her official duties. Exciting love to her profession have stimulated her to work studiously and more serious in the 17 years labor activities. Umara khanum's work valued by Government and she has been rewarded honorary decree by the Ministry of Internal Affairs. She has been honored according the first and second medal "in accordance without proud service". Umara khanum is married. She has got two daughters.







Hüseynova Fatma

Qəlbində Allah nurunu yaşadan, bütün varlığı ilə Ulu Tanrımıza bağlı olan şərəfli peşə sahibi, Bakı şəhər Yasamal Rayon Polis İdarəsinin istintaq şöbəsinin müstəntiqi, Hacı xanım Hüseynova Fatma Abbas qızı 1959 cu ildə Sabirabad rayonunun Qalaqayın kəndində anadan olmuşdur. Orta təhsilini Bakıdakı Nizami rayon 201 saylı məktəbdə almış, Bakı Dövlət Universitetinin Hüquq fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1980 - ci ildə Daxili İşlər Orqanlarında Bakı şəhər BPİ rəisinin referenti kimi başlamışdır. 1986 - cı ildə Fatma xanım Hüseynovanın işdəki fəallığı nəzərə alınaraq, ona zabit rütbəsi verilmiş, 1988 - ci ilin mayından Bakı şəhər Yasamal Rayon Polis İdarəsi pasport şöbəsinin baş inspektoru vəzifəsinə təyin edilmişdir. 1992 ci ildən Bakı şəhəri Yasamal rayon Polis İdarəsi istintaq şöbəsinin müstəntiqi vəzifəsini icra edir. Sənətinin vurğunu olan, ömrünü bütünlüklə sənətinə, millətinin asayişinə həsr edən Fatma xanım, peşəkar işçi, sırf istintaqçı kimi işinin öhtəsindən layiqincə gəlir. Ömrünün 20 ilini orqan işinə həsr edən bu xanım, Yasamal Rayon Polis İdarəsi istintaq şöbəsində çalışdığı 10 ildən artıq bir müddət ərzində məhkəməyə bir çox mürəkkəb və çox epizodlu cinayət işləri göndərmişdir. 2001 ci ilin oktyabr ayında Daxili İşlər Nazirliyinin təşəbbüsü ilə ABŞ - da "Terrorizmə qarşı mübarizə" mövzusunda keçirilən seminarda iştirak üçün ezam olunmuş, kursu bitirərək diplom almışdır. Fatma Abbas qızı Hüseynova Ulu Tanrımız qarşısında da öz dini borcunu yerinə yetirir. Onun İş fəaliyyəti həmişə qiymətləndirilmiş və o, 2002 ci ildə xidməti vəzifəsinin öhtəsindən layiqincə gəldiyinə, verilən tapşırıqları vaxtlı - vaxtında və keyfiyyətlə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən fəxri - fərmana layiq görülmüşdür.

*****

Immortalizing the spirit of God in soul, being the master of honorable profession is closed with all reality to great God; Haci Khanum Huseynova Fatma Abbas qizi was born in the Qalaqayin village of the Sabirabad region in 1959. Haci khanum Huseynova is the investigator of the Interrogation Department of the Police Office in Yasamal region in Baku city. She has got her secondary education at school number 201 and graduated from Law faculty of Baku State University. Haci khanum Huseynova has begun her first activity as a Reviewer of the Head Police Office in the Internal Affairs Organs in Baku city in 1980 year. In 1986 year, taking into account her activity in the work, Fatma khanum Huseynova was given her Officer rank and she has been specified to the head inspector post in the Passport Department of the Police Office in Yasamal region in Baku from May, 1988 year. From 1992 she fulfills the investigator post of the Interrogation Department of the Police Office in Yasamal region in Baku city. Admiring of her profession devoting the whole life to her profession and tranquility of the nation, Fatma khanum copes with her task decently as a real investigator and as a professional employee. Devoting her 20 years life to organ work this lady has send a lot of difficult and very episode criminal cases to court during more than 10 years while she was trying in the Interrogation Department of the Police Office in Yasamal region in Baku city. In Octerber, in 2001 years Haci Fatma khanum was sent official journey to present in the seminar carrying out about the theme "Fight against the Terrorism" to United States of America by the initiative of the Ministry of Internal Affairs. There she finished the course and got a diploma. Fatma Abbas qizi Huseyniova fulfills her religious duty in front of the Great God too. Her work activity always was remarked and in 2002 years she has been rewarded honorary decree by the Ministry of Internal Affairs. Because of obligate her Official duties decently and fulfilled tasks with qualities in time which were given to her.



Şərifova Amalya

Sağlam mühit cəmiyyət üçün əhəmiyyət kəsb edən ən böyük amillərdən biridir. Gələcəvimiz olan uşaqların tərbiyəsi, həyata baxışının düzgün istiqamətləndirilməsi, mənəvi tərbiyə ilə yanaşı, bir sıra cinayətlərin qarşısının alınmasında mühüm rol oynayır. Bu sahə üzrə çalışan gənc vətənpərvər xanım, Sumqayıt şəhər 3cü Polis bölməsinin Yetkinlik yaşına çatmayanlarla iş üzrə baş inspektoru, polis mayoru Şərifova Amalya Məhərrəm qızı 1970 ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. Orta təhsilini Sumqayıt şəhər 4 saylı məktəbində almış, ilk əmək fəaliyyətinə orta məktəbi bitirdikdən sonra makinaçı kimi başlamışdır. Bakı Dövlət Universitetinin Hüquq fakultəsini bitirmiş, Sumqayıt şəhər Polis İdarəsinin maliyyə polis bölməsinin nəzdindəki təqaüd qrupunda inspektor kimi fəaliyyətini davam etdirmişdir. Hazırda o, Sumqayıt şəhər 3cü polis bölməsinin Yetkinlik yaşına çatmayanlarla iş üzrə baş inspektoru vəzifəsini icra edir. Məktəblərlə, təhsil ocaqları ilə əlaqədar işləyən Amalya xanım üçün iş nə qədər çətin olsa da o, xidməti vəzifəsini layiqincə yerinə yetirir. Müxtəlif psixologiyaya malik, tüfeyli həyat sürən, təhsildən yayınan uşaqlarla qanun tələb etdiyi ölçüdə iş aparır. Bu yolda var - qüvvəsini həsr edir. Amalya Məhərrəm qızı həmişə işinə məsuliyyətlə yanaşır. Ona verilən tapşırıqları vaxtlı - vaxtında yerinə yetirir. Rəhbərlik tərəfindən xidməti işi həmişə qiymətləndirilən, A. Şərifova məktəblərdən, təhsil müəsisələrindən də neçə - neçə təşəkürnamələr alıb. Ailəlidir.

Healthy environment is one of the greatest factors assumed importance for society. Upbringing of the future children, correct direction of look to the life, adjoining with spiritual upbringing plays the important part in the prevention of the number of crimes. Young patriot lady work on this area, head affairs inspector not reach the mature age of the Police department number 3 in Sumgayit town, Police major Sharifova Amaliya Maharram qizi was birn in Sumqayit in 1970 years. She got her secondary education at school number 4 in Sumgayit and she began her first work activity as a typist after finishing the secondary school. Then Amaliya khanum graduated from Baku State University, Law faculty. She continued her activity as the inspector in grant group attached to Sumgayit Police office financial Police department. At present moment she carries out the main inspector post according to not reach the mature age of Sumgayit city, the 3rd Police department. Amaliya khanum, who works associated with educational, institutions and schools, she fulfills official duty decently in spite of the work is difficult much. She carries out the work in the measure demanding law, with children who having different psychology, avoiding from the education,

living as a parasite in life. She devotes her strength in this way. Amaliya Maharram qizi always approaches her work with great responsibility. She carries out all the tasks given her in time. Amaliya khanum's service work is always valued by the leads of institution. And she also got a message of thanks from different schools and educational institution. She is married.





# *Azərbaycan Respublikası Ədliyyə Nazirliyi*
# Justice Ministry of Azerbaijan Republic





*Azərbacanda ədliyyə sistemi 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə başlanır. Belə ki, Ədliyyə Nazirliyinin təsis edilməsinə xüsusi əhəmiyyət verilərək 1918-ci il may ayının 28-də - Azərbaycan Demokratik Respublikasının elan edildiyi gün Ədliyyə Nazirliyi də yaradılmışdır. 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir. Azərbaycan Demokratik Respublikasının 1920-ci il aprel ayının 27-28-də Rusiyanın XI Qızıl Ordusu tərəfindən işğal edildikdən sonra inqilab komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılmışdır. 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir. 1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni Əsasnaməsi təsdiq edilmişdir. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi tə'sis edilmişdir.*



*Justice system in Azerbaijan begins with the establishing of Azerbaijan Demecratic Republic in 1918 year. On 28 May 1918 the day of declaring of Azerbaijan Democratic Republic Justice Ministry was also founded. The regulation of Azerbaijan Court Chamber was affirmed on November 14 of 1918 and the registration of Justice Ministry on November 22. After occupying of Azerbaijan Democratic Republic on April 27-28 of 1920 by 11th Red Army of Russia, the Justice Ministry was deleted by the decision dated 13 May 1920 of revolution committee and the Nation Justice Commissar was founded. In 1930 year this Commissar was again deleted and its functions were given to Procurator, High Court, Central Executive Committee and other organs. A new registration of Nation Justice Commissar was affirmed in 1937. on October 1970 Justice Ministry was established by the decision of Azerbaijan SSR High Soveit.*



*İsgəndərova İradə*

Qanunun aliliyi hamı üçün müqəddəsdir. Gender ekspertizasının qənaətinə görə, hər sahədə olduğu kimi Azərbaycan qanunvericiliyi sahəsində də çalışan qadınların sayı az deyil və onların fəallığı təqdirəlayiqdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı, Bakı şəhəri Səbael rayonu Vətəndaşlıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatı şöbəsinin müdiri İsgəndərova İradə Həbib qızı da məhz belə qadınlarımızdandır. İradə xanım 1958 ci ildə Bakıda anadan olmuşdur. Orta təhsilini Bakı şəhəri Nəsimi rayon 15 saylı məktəbdə almış, Bakı Dövlət Universitetinin Hüquq fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. İlk əmək fəaliyyətinə 1980 ci ildə Azərbaycan Respublikası Ali məhkəməsinin məsləhətçisi kimi başlamışdır. Sonralar sədr köməkçisi, 1985 ci ildə Ali Məhkəmənin üzvü, eyni zamanda Plenum katibi kimi fəaliyyətini davam etdirmişdir. Bir müddət Bakı Şəhər Məhkəməsində işləmiş, 1998 ci ilin noyabr ayından Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində İnzibati hüquq, Ədalət Məhkəməsi Ədliyyə Məsələləri şöbəsinin müdiri vəzifələrində çalışmışdır. Haqqın, ədalətin mübariz keşikçisinə çevrilən İradə Həbib qızı işlədiyi illər ərzində əsl vicdanlı hüquq işçisi kimi daim qanunun aliliyini qorumuş, millətin hüquqlarının qorunması naminə öz vəzifə borcunu layiqincə yerinə yetirmişdir. Yüksək insani keyfiyyətlərə və dərin biliyə malik, ömrünün sonuna qədər qanunun, haqqın müdafiəçisi olan, Azərbaycan hüquqşünaslarının fəxri nümayəndəsi, peşəkar hüquqşünas Həbib İsgəndərov kimi bir şəxsiyyətin qızı kimi, peşəsinə sıx tellərlə bağlı olan, atasının yolunu onun adına layiq davam etdirən İradə Həbib qızının ömür yolu peşəsiylə bağlı fədakarlıqlarla doludur. Onun işi həmişə yüksək qiymətləndirilmiş və o, 2006 cı ildə Azərbaycan Respublikasının Prezidentinin sərancamı ilə, Ədliyyə Nazirliyinin əməkdaşı, peşəkar hüquq işçisi kimi "Dövlət Qulluğunda fərqlənməyə görə" medalı ilə mükafatlandırılmışdır. İ. Həbib qızı bir neçə dəfə respublikada keçirilən Qadınlar Qurultayının nümayəndasi olmuşdur. Ailəlidir. İki övladı var.







It is holy higher of the law for everybody. According to the conclusion of the gender examination, the number of the women work in the sphere of Azerbaijan Legislation is not less as in the each sphere and their activities is estimable. Isgandarova Irada Habib qizi is namely such woman that, she is the collaborator of the Ministry of Justice of the Azerbaijan Republic and the head of the department of state registration of the acts of citizenship situation in Baku city, in Sabael region. Irada khanum was born in Baku in 1958 years. She had got her secondary education school number 15 in Baku, in Nasimi district and she graduated from Law faculty of Bake State University with honors diploma. Irada khanum began her first work as the adviser of the higher law-court of the Azerbaijan Republic in 1980 years. Then she continued her activity as the chairman assistant, the member of Law-court. And at the same time she was the plenum secretary in 1985 years. She worked in Law - Court for a time in Baku city. From November month, 1988 years she worked at the post of Azerbaijan Republic administrative right in the Constitutional Court, at the Court of Justice and the chief of the Department of Justice Issue. Being as warlike guard of rights and justice, Irada Habib qizi always defended higher of law as the base honest worker during her working years and she fulfilled her official duty decently for protecting of the rights of the nation. She has the highest human qualities and deep knowledge; she is also defender of rights and is an honorable representative of Azerbaijan Lawyers. Irada Isgandarova is the daughter of famous and professional lawyer Habib Isgandarov. As daughter of such famous personality Iarada khanum is closed her profession thickly bank and she continues her father's way decently. The life years of Irada Habib qizi is full of selfless nesses connected with the profession. Her work was always regarded highly and 2006 years she was awarded with the medal of "For differs State Service" as a professional Justice Worker and employee of Justice Ministry with the order of the President of our Republic. Irada Habib qizi was a representative of the Women's Assembly which is held in our Republic a few times. She is married and has two children.





Tağızadə Bəsti

Azərbaycan qanunları onun qoynunda yaşayan hər bir vətəndaş üçün müqəddəsdir. Qanunlarımıza riayət hər kəsin mənəvi borcudur. Bu sahədə uzun illər can qoyan, qanunlarımızın icrasına məsuliyyətlə yanaşan, öz vəzifə borcunu layiqincə yerinə yetirən xanım Tağızadə Bəsti Əskər qızı 1955- ci ildə Şəmkirdə anadan olmuşdur. Orta təhsilini Şəmkir rayon Nizami adına məktəbdə almış, Bakı Dövlət Universitetinin Hüquq fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1977 ci ildə Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ETMEİ - nin Xətt Ekspertizası Laboratoriyasında ekspert vəzifəsi ilə başlamışdır. 1981- 1992 ci ilə qədər Bakı şəhər 5 saylı Dövlət Natariat kontorunda dövlət natariusu vəzifəsində çalışan Bəsti xanım, 1992 ci ildən Bakı şəhər 36 saylı Natariat Kontorunda dövlət natariusu vəzifəsini icra edir. Ümumilikdə 32 ilə yaxın əmək fəaliyyəti olan, bu xanım peşəkar işçi kimi həmişə işinə məsuliyyəti ilə fərqlənib. İşlədiyi sahə ilə yanaşı Bəsti Əskər qızı elmlə də məşğul olur. O, müxtəlif dövrlərdə nəşr olunmuş, 7 elmi məqalənin, 1 metodik vəsaitin, "Natariat orqanlarının fəaliyyətində xüsusi biliklərdən istifadənin hüquqi və təşkilati - metodiki əsasları"(kriminalistik aspektlərdə) adlı kitabın müəllifidir. Bəsti xanım ictimai işlərdə, rayon üzrə keçirilən tədbirlərdə də fəal iştirak edir.O, əmək fəaliyyətində yüksək göstəricilərinə görə, müxtəlif dövrlərdə fəxri- fərmanlara və mükafatlara layiq görülüb. Ailəlidir. Bir övladı var. Bəsti xanım davamçısı olan yeganə qızı Nigarın nəaliyyətləri ilə qürur duyur.

Azerbaijan laws are holy for each citizen living in its bosom. To observe our laws is a duty all of us. Leap years putting soul in this area, approaching to the fulfillments of our laws with responsibility, carrying out her official duty worthily, Lady Tagizada Basti Askar qizi was born in Shamkir in 1955 years. She got her secondary education at Shamkir region school named Nizami. Then she graduated from Baku State University, the faculty of Laws. She began her first work activity in 1977 years, as an expert in the laboratory of Line Expert. From 1981 till 1992 years Basti khanum tried on the duty the State Notary Office number 5 in Baku, and from 1992 years she carries out the State Notary post in the Notaries Office number 36 in Baku. This lady who has completely 32 years work activities has always differed as a professional worker with the responsibility in her work. Adjoining by area she worked, Basti Asgar qizi is engaged by science too.

She is an author of the book by named "Legal organization of the usage in the activities of the Notary organs from special knowledge - Methodical

Bases" (Criminals aspects). She is also an author of 7 scientific articles which are published in different periods and a methodical means. Basti khanum takes part in social work, in official measure which is held according to the region actively. She has been honored with honorary decrees and prize in different periods for her high labor parameters. She is married and has a child. Basti khanum feels pride with her only daughter - Nigar khanum's success who is continue her mother's follower.





Cəmiyyətin möhkəmliyi ölkənin siyasəti və iqtisadiyyatı ilə yanaşı, ədalətli və düşünülmüş qanunlarından çox asılıdır. Azərbaycan qanunvericiliyi sahəsində çalışan fədakar xanımımız, Bakı şəhəri Xətai Rayon Vətəndaşlıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatı şöbəsinin müdiri Qənizadə Esmira Cəfər qızı Bakıda anadan olmuşdur. Orta təhsilini Bakıdakı Səbael rayon 190 saylı məktəbində almış, ADU - nun filologiya fakultəsini, Prezident Aparatı Yanında İdarəetmə Universitetini və BDU - nun Hüquq fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1978 ci ildə Bakının Novxanı kəndində dil - ədəbiyyat müəllimi kimi başlamışdır. 1980 ci ildə Bakı Dövlət Kooperasiya Universitetində kiçik elmi işçi, baş elmi işçi, 1987 ci ildə Sabunçu Rayon Qeydiyyat şöbəsində müşavir, 1993 cü ildə isə nigah müdiri vəzifələrində çalışmışdır. 2008 ci ilin fevralından Bakı şəhəri Xətai Rayon Qeydiyyat şöbəsinin müdiri vəzifəsini icra edir. - Azərbaycan qadınlarının isməti ən əvvəl onun vaxtında nikaha daxil olması ilə başlanır. Hər bir ana erkən yaşlarından övladını ailə qurmağa hazırlamalı və onlara ailənin möhkəmliyini qorumaq barədə məsləhətlər verməlidir - deyən Esmira Qənizadə hər bir vətəndaşa qanunlarımıza riayət etmələrini, gənclərimizə isə daim xöşbəxt ailə həyatı qurmalarını, elimizin adət - ənənələrinə hörmətlə yanaşmalarını tövsiyyə edir. Bir neçə kitabın müəllifi olan şair təbiətli bu xanım Türkiyədə - Ankarada Dünya Azərbaycanlilarinin I qurultayında "Qaçqın uşaqların sosial vəziyyəti" barədə çıxış edib. Fəal ictimaiyyətçidir. Esmira xanım 1998 ci il 1ci, 2008 ci il 3cü Qadınlar Qurultayının iştirakçısı olub. "Məshəti" şeir məclisinin sədr müavinidir. Bu vətənpərvər xanım həm də xeyriyyəçiliklə məşğuldur və onun narahat qəlbi daim elinə, obasına möhkəm tellərlə bağlıdır. Ailəlidir.

*****

Durability of the society adjoining by the policy and economy of the country is depending on laws thought justly. The chief of the department State Registration of Citizens' position acts of Khetai region in Baku, the selfless lady who is trying at the Azerbaijan Legislation, Qanizade Esmira Cafar qizi was born in Baku. She got her secondary education at school number 190 in Sabael region in Baku and she graduated from philological faculty of Azerbaijan State University, then Management University by President Apparatus and Law faculty of Baku State University. She began her first activity as a language - literature teacher in Novuxani village in Baku in 1978. In 1980 years Esmira khanum works as junior research worker in Baku State Cooperation University, then head scientific worker. In 1987 she worked councilor in Sabuchu district Registration Department. From 1993 years she has worked in the post of the chief of marriage settlement. From the February of 2008 year Esmira khanum fulfills the post of chief in Registration Department of Khetai Region in Baku. Chastity of Azerbaijan women first of all begins their entering the untimely marriage settlement. Each mother must prepare her children to marriage from early years-old and the parents must give them about how to keep the families' stability. - Says Esmira Qanizade. She recommends each citizen of our country to observe laws of our Government and to the young acquire a happy family and to approach our tradition and customs with respect. She is an author of some books. This poet of nature lady was presented in the first Assemble of the World Azerbaijanis in Turkey-Ankara about "the Social Position of Refugee Children". She is an active public woman. Esmira khanum was a member of the Congress Women first in 1998 year and the Congress Women third in 2008 year. She is the vice-president of the poem meeting "Mahsati". This patriot lady busies with charity too. And her anxious soul always is connected with durable fringes to her



Qənizadə Esmira

people and hamlet. She is married.



İsmayılova Səadət

Xalq üçün, cəmiyyət üçün çalışanların cəmiyyət, xalq özü qiymətini verir. Dövlətçiliyimizə, xalqa xidmət edən haqqa, ədalətə, qanunlarımıza arxalanan fədakar hüquq işçisi Bakı şəhəri Nərimanov Rayon Qeydiyyat Şöbəsinin rəisi I dərəcəli Ədliyyə Qulluqçusu İsmayılova Səadət Teymur qızı 1964 cü ildə Bakıda anadan olmuşdur. Orta təhsilini Yasamal Rayon 172 saylı məktəbdə almış, Bakı Dövlət Universitetinin Hüquq fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə Nərimanov Rayon 7 saylı Poliklinada hüquq məsləhətçisi vəzifəsi ilə başlamışdır. 2002 ci ildə Ombudsman Aparatında baş məsləhətçi vəzifəsində çalışan Səadət İsmayılova 2008 ci ilin aprel ayından Bakı şəhəri Nərimanov rayon Qeydiyyat Şöbəsinin rəisi vəzifəsini icra edir. Qanunlarımızın icrasına əsl fədakar Ədliyyə işçisi kimi yanaşır.O, hər bir vətəndaşa qanunlarımıza hörmət və məsuliyyətlə yanaşmağı tövsiyyə edir. Gələcəyimizin qurucusu olan gənclərə xöşbəxt və sağlam ailə qurmalarını arzulayan xanım İsmayılova, nigaha girən gənclərə ailənin müqəddəsliyini, onun bütövlüyünü qorumağı məsləhət görür.Bu təməlin ilk öncə qanunu nigahın bağlanmasından başladığını söyləyir. İşlədiyi sahə ilə bağlı digər əməliyyatların aparilmasında da öz vəzifə borcunu layiqincə yerinə yetirən, Səadət İsmayılova Vətənini, xalqını böyük məhəbbətlə sevir. Ədliyyə Nazirliyinin əməkdaşı kimi apardığı vəzifə ilə yanaşı həm də elmlə məşğul olur. O, "Kriminalistik homologiya" mövzusunda dissertasiyasını başa çatdırıb. Dissertasiya ilkin müzakirədən keçib və elmi şuraya təqdim edilib. Səadət Teymur qızı fəal ictimaiyyətçi və YAP- ın ilk üzvlərindəndir. O, iki dəfə Qadınlar Qurultayının iştirakçısı olub. İşlədiyi illərdə işi həmişə qiymətləndirilib, bir neçə diploma layiq görülüb. Ailəlidir. İki övladı var.

*****

Hər bir xəstəyə böyük qayğı ilə yanaşan bu həkim təbiətli fədakar həkimin əməyi həmişə ona müraciət edən xəstələri və müdiriyyət tərəfindən yüksək qiymətləndirilir. Gülşən xanım ailəlidir. 1 qızı və 1 nəvəsi var.



Human life is the trail period which, is presented to us from Great God. Our responsibility in front of God is our debt. And we must pay this debt with our well-wisher work and we must prove it with our high and human feelings as humanities.

The well-known, high degree gynecologist of Republic Clinical Hospital named after Academician Mirqasimov, Safaraliyev Gulshen Ahad qizi is known with her well-wisher work and beautiful human qualities. She was born in intellectual family in Baku. She got her secondary education at school number 56 of Khetai region in Baku and finished there with gold medal. Then Gulshen khanum graduated from Azerbaijan State Medical University, "Treatment Prophylactic" faculty with honor diploma. For 2 years she studied at the Clinical Ordinate at the gynecological department of the maternity home number 2 in Azizbeyov region. From 1987 year Gulshen khanum tries at the Gynecological Department of Republic Clinical Hospital named after academician Mirqasimov. Gulshen Ahad qizi approaches her work with responsibility. The great problems of modern time as childlessness and other gynecological diseases are always disturb Gulshen khanum as a gynecologist doctor. She is busy with the treatment of pregnancy, extra-genital and other gynecological diseases. Gulshen khanum acquainted with medical experience and the secrets of medical sciences. Her professionalism always helps her cures perfectly and exerts influence on her treatment highly. During her 32 year medical activity Gulshen khanum as a high degree gynecologist-doctor has gained great authority at medical activity. From different districts of our Republic a lot of people resort her for help and they are the witnesses of her medical hands the miracle of her curious hands. She always efforts improve her medical experience. From such reason Gulshen khanum passed probation 2 times in the gynecological department of Medical University Hospital of Zolygen city of Germany. At the same time she was to Moscow, Russia and in the American Texas state Huston city, Beylar College. And she passed probation at these places. Approaching each ill with great care this doctor's work is estimated highly by her patient and administration. Gulshen khanum is married. And she has a daughter and grandchild.







İllər ötdükcə kamilləşirik. Taleyin sınağından keçə-keçə yaşayır, mübarizə aparırıq. Tanrı insana bir ömür bəxş edir. Allahın bizə bəxş etdiyi bu ömrü isə daha yaxşı yaşamağa çalışır, öz xeyirxah əməllərimizlə tale yollarında özümüzə məxsus izlər salırıq.

Nəcibliyi, xeyirxahlığı ilə seçilən ömrünün neçə-neçə illərini sevimli peşəsinə həsr edən qoyduğu dəqiq diaqnozları ilə neçə-neçə insan həyatını təhlükədən xilas edən müqəddəs peşə sahibi Akademik Mir-Qasımov adına Respublika Klinik Xəstəxanasının USM həkimi Rəsulova Sevinc Tofiq qızı da məhz belə insanlardandır. Sevinc xanım 1959-cu ildə Bakıda anadan olub. Orta təhsilini Nəsimi rayon 46 saylı məktəbdə almış, Azərbaycan Dövlət Tibb Universitetinin "müalicə-profilaktika" fakültəsini sonra isə internaturanı bitirmişdir. İlk əmək fəaliyyətinə 1985-ci ildə Binəqədi rayon 24 saylı Bakı Baş Tikinti İdarəsinin terapiya şöbəsində həkim-terapevt kimi başlamış, 1987-ci ildən isə terapiya şöbəsinin müdiri vəzifəsini icra etmişdir. İşinə məsuliyyətlə yanaşan peşəkar həkim kimi, qabiliyyət və bacarığı ilə fərqlənən Sevinc xanım bu şöbədə 11 il çalışmışdır. 1998-ci ildə isə bir neçə klinikada USM üzrə kurs keçmiş, həmin sahə üzrə ixtisaslaşaraq, USM həkimi kimi fəaliyyətini davam etdirmişdir. Hazırda respublikanın ən tanınmış xəstəxanalarından olan Akademik Mir-Qasımov adına Respublika Klinik Xəstəxanasının "funksional diaqnostika" şöbəsinin USM həkimidir.

- Xəstəliyin düzgün müəyyən edilməsi, daxidi orqanlarında patalogiyaların vaxtından əvvəl təyin olunması USM vasitəsi ilə daha dəqiq aparılır. Dəqiq diaqnoz isə hər bir xəstənin düzgün müalicəsinin təminatıdır. Bu insan taleyidir və biz buna görə məsuliyyət daşıyırıq. Həm insanlar, həm də Tanrı qarşısında- deyən Sevinc xanım xəstələrə xüsusi qayğı ilə yanaşır. Qoyduğu dəqiq diaqnozların nəticəsi olaraq Azərbaycanın bir çox bölgələrindən də xəstələr böyük inamla ona müraciət edirlər. Peşəkar həkim kimi tanınan Sevinc xanımın yanında neçə-neçə çoxsaylı həkimlər təcrübə keçmiş, təkmilləşmişlər. Rayonlarımızda çalışan həkimlərin çoxu onun rəhbərliyi altında təkmilləşmə kursu keçmiş, hazırda yerlərdə fəaliyyət göstərirlər. Sevinc xanımın ADTU-nin tələbələrindən də çoxlu internaları var və o gələcəyin bu gənc həkimlərinə tibb elminin sirlərinə daha dərindən yiyələnməyi, müqədəds həkim adını layiqincə qorumağı öyrədir. 23 illik tibbi fəaliyyətində Sevinc xanım zəhmətsevərliyi müsbət insani keyfiyyətləri ilə tanınmış və eyni zamanda peşəkar həkim kimi özünə böyük hörmət qazanmış, işi müdiriyyət tərəfindən həmişə qiymətləndirilmişdir. Bir neçə dəfə dövrü mətbuatda və "Səhiyyə işçiləri" kitabında onun haqqında məlumat verilmişdir.



**Rəsulova Sevinc**



We became perfect when years pass. We fight and live passing out the tests of tale. God presents life to men. We try to live this life which is presented us by God better and drop tracks along the ways of our life with our well-wisher actions. The secret professional doctor of Clinical Hospital named after academic Mirqasimov in Ultra Sound Inspection Resulova Sevinc Tofiq qizi is one of such doctors. She saved a lot people's life from the dangerous which is putting with the exact diagnoses; she devoted many - many years of her life to her favorable profession and that is why she always distinguishes her well-wisher and kindness. Sevinch khanum was born in 1959 in Baku. She got her secondary education at school number 46 in Baku. And she studied at "Treatment Prophylactic" of Azerbaijan Medical University. The she graduated from Master Course. In 1985 year she began her first work activity as a doctor-therapist in Baku Held Building office hospital number24 in Bineqedi region. From 1987 year Sevinch khanum was a chief of this department as a professional and responsible doctor, distinguishing with her talent and ability. She has tried at this Departmen for 11 years. In 1998 year she passed training courses in some Clinics according "Ultra Sound Inspection". And she got a certificate at this section. Then Sevinc Khanum began to continue her Medical activity as a USI doctor. Now she is an USI doctor at "Functional Diagnostically" department of Republic Clinic Hospital named after academic Mirqasimov which is one the well-known Clinics of our Republic.

With the help of USI it is easy to appoint the diagnosis of any diseases before its time of inside organs and all other diseases. We know that the real diagnose of each patient is the guarantee of the correct cure.

It is human life and we bear responsibility for it in front of God and people - says Sevinc khanum. She approaches to her patient with special care. As the real reason result of her diagnose a lot of patient from different districts of our Republic Azerbaijan come here for find real reason of their diseases. As the professional doctor Sevinc khanum passed probation a number of young doctors and they improved here by her control. A lot of doctors who try in regions passed training courses under her leadership. And now they work in the rural areas. She teaches a number of students of Azerbaijan State Medical University as a interne. She helps them to learn the secrets of Medical sciences deeply and keep the doctor's oath decently. During 23 year medical activity Sevinc khanum was famous for her diligence, positive humane qualities. At the same time she has earned a great respect as a professional doctor. Her work is always regarded by administration. There are giving information about her on daily press and "Medical Workers" book.





İllər keçir. Hər ötən il ömrümüzə xatirələr dolu bir zənginlik gətirir. Yaşayırıq, ömrün dolaylarında zamanın min - bir sınağından keçə - keçə yaşa dolur, müdrikləşirik. Həyat gerçəklikləri ilə üz - üzə taleyin daş - kəsəkli yollarında müdriklik dolu bir ömür yaşayan Akademik Mir.Qasımov adına Respublika Klinik Xəstəxanasının ali dərəcəli feldşer laborantı Mirzəxanova Məlahət Pinəçi qızı 1952 - ci ildə şeir - sənət yurdu Qazax rayonunun Kirovkənd (hazırda Həsənsu) kəndində ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini Kirovkənddə almış, Bakıdakı Yasamal rayon 5 saylı Tibb məktəbini feldşer - laborant ixtisası üzrə bitirmişdir. İlk əmək fəaliyyətinə 1970 - ci ildən hazırkı dövrə qədər Akademik Mir. Qasımov adına Respublika Klinik Xəstəxanasında feldşer - laborant vəzifəsi ilə başlamışdır. Ali dərəcəli feldşer - laborantdır.

Bütün ömrünü sevdiyi peşəsinə həsr edən M. Mirzəxanova işlədiyi uzun illər ərzindəki 39 illik əmək fəaliyyətində öz dəqiq analizləri ilə neçə - neçə xəstənin düzgün müalicəsində və onların sağlamlığının bərpasında ilkin rol oynayıb. Məlahət Pinəçi qızı nəinki öz peşəkarlığı ilə tanınıb, eyni zamanda xeyirxahlığı, müsbət insani keyfiyyətləri ilə də cəmiyyət arasında və işlədiyi kollektivdə özünə hörmət qazanıb. Məlahət xanımın əməyi müdiriyyət tərəfindən də həmişə yüksək qiymətləndirilib. Ən böyük mükafatı isə xəstələrin minnətdarlığı olub. Məlahət Mirzəxanova 3 övlad anasıdır. Sevimli nənədir.



**Mirzəxanova Məlahət**

The years pass. Each passing year brings richness full of memories to our life. We are living, filling live, passing through one of thousand tests of the time at the roundabout life, and we are wising. Living full of life on the stones and clods way of fate, face by face to the life realty, the high degree medical attendant laboratory - assistant of 'Republic Clinical Hospital named after academician Mir. Qasimov Mirzexanova Melahet Pineci qizi was born in Kirovkent (now Hesenli) village of Qazakh region the poem - art land of Azerbaijan in the intellectual family in 1952. She got her secondary education in Kirovkent village school and finished Baku, Yasamal region medical college number 5 according medical attendant profesion. Melahet khanum began her first work activity as a medical attendant - laboratory assistant in Republic Clinical hospital named after academician MirQasimov from 1970 year till present time. She is a high degree medical attendant - laboratory assistant.

Devoting her life to her lovely profession Melahet khanum Mirzexanova played initial role on correct treatment of many patients and restoration of their health with her exact analysis during her 39 working years. Melahet Pineci qizi is not only known with her professionally but also she earned respect to herself among her working collective and in public with her perfect human qualities and well-wisher. Melahet's khanum work was always prized by administration but the greatest award to her was the thankful of patients. Melahet Mirzexanova is a mother of 3 children and lovely grandmother.

## Azərbaycan Daxili İşlər Nazirliyi Respublika Hospitalı

## Internal Affairs Ministry Republic Hospital



*Azərbaycan SSR İctimai Asayişi Mühafizə Nazirliyinin 1 dekabr 1964 - cü il tarixli əmri ilə yaradılıb. Açılışı 1965 - ci ilin may ayının 20 - də olub. 100 çarpayılıq və 93 nəfərə qədər tibb işçisi olan hospitalda 3 şöbə - terapiya, cərrahiyyə, nevroloji və 7 otaq - qulaq, boğaz, burun, funksional diaqnostika, rentgen, fizioterapiya, göz, diş kabinələri və laboratoriya fəaliyyət göstərib.*



*It was founded by the order dated 1st December 1964 of Azerbaijan SSR Guarding Ministry of the Public Tranquility. The opening ceremony was been on 20th May of 1965 year. There are about 93 Medical employees and 100 bedrooms in the Hospital. There are 3 departments: Therapy, Surgeon and neurological and 7 rooms - ear, throat, and nose - functional diagnose, X-ray and physiotherapies - eye, ear cabinets and laboratory was acted.*





Zaman gəlib keçir. Kamil insan yaşa dolduqca gördüyü işləri, əməlləri ilə ömür səhifələrində layiqli bir iz salır. Ömrünün 33 ilini sevdiyi peşəsinə həsr edən nurani simalı həkim xanımımız, Daxili İşlər Nazirliyi Hospitalının həkim ordinatoru və ali dərəcəli həkimi Abdullayeva Səidə Midhət qızı 1952-ci ildə Bakıda anadan olmuşdur. Orta təhsilini Səbael rayon 189 saylı məktəbdə almış, Azərbaycan Dövlət Tibb Universitetinin "müalicə-profilaktika" fakültəsini, sonra isə internaturanı bitirmişdir. İlk əmək fəaliyyətinə 1975-ci ildə Bakı şəhər Nəsimi rayon 1 saylı xəstəxanasında həkim-terapevt kimi başlamış, 1976-cı ildən Daxili İşlər Nazirliyi Hospitalında həkim-ordinator kimi fəaliyyətini davam etdirir. 1985-ci ildən xəstəxananın Həmkarlar Komitəsinin sədridir.

-Azərbaycanın müxtəlif bölgələrindən, xəstəliklə əlaqədar problemlərlə bizə müraciət edirlər - deyir Səidə həkim. Onlara lazımınca tibbi xidmət göstəririk

Uzun illər tibb sahəsində çalışan bu vətənpərvər xanımın bir həkim kimi xidmətləri böyükdür. Səidə xanım Həkimləri Təkmilləşdirmə İnstitutunda kordiologiya, ümumi terapiya, qastroenterologiya üzrə kurslarda olmuşdur. "Qastroenterologiya" Cəmiyyətinin üzvüdür. Ali dərəcəli həkimdir. Peşəkar həkim kimi ona müraciət edən xəstələr qarşısında özünə böyük hörmət və inam qazanmışdır. İşlədiyi illər ərzində Səidə Midhət qızı elmlə də məşğul olmuş, dövrü mətbuatda elmi məqalələri ilə çıxış etmişdir. O, həm də fəal ictimaiyyətçidir. Qospitalın bütün tədbirlərindən və bu tədbirlərin təşkilində fəal iştirak edir. Səidə xanımın işi peşəkar və bacarıqlı həkim kimi həmişə qiymətləndirilir. O, Daxili İşlər Nazirliyi və Daxili İşlər Nazirliyinin Hospitalından, Baş Səhiyyə İdarəsindən dəfələrlə təltiflərə, fəxri-fərmanlara layiq görülmüşdür. Sağlamlığı bərpa olunan hər bir xəstənin minnətdarlığı isə Səidə Midhət qızı üçün ən böyük mükafatdır. Səidə xanım ailəlidir. İki övladı və 3 nəvəsi var.



Abdullayeva Səidə

The ordinator doctor of the Hospital of Ministry of Internal Affairs and doctor with higher degree, devoting 33 years of her life to her lovely profsion Abdullayeva Saida Midhat was born in Baku in 1952. She got her secondary education at 189th school of Sabail district and graduated from "cure-prophylaxis" faculty of Azerbaijan Medical University. Her first work activities began as a therapist in 1st hospital situated in Nasimi district in 1975, and from 1976 continues her activities as an ordinator doctor in the Hospital of Ministry of Internal Affairs. She is the chairwoman of Colleagues Committee from 1985.

Mrs.Abdullayeva was in the courses of Doctors' Improvement Institute on cardiology, general therapeutics, and gastroenterology. She is the member of "Gastroenterology" Society. At the same time she has been engaged in science and her several scientific articles have been published. She is also a person actively engaged in public life. She actively takes part in the meetings held in the hospital. She has been rewarded repeatedly with honorary decrees by Ministry of Internal Affairs, by Hospital of Ministry of Internal and by Head Medicine Office. Mrs.Abdullayeva is married, has 2 children and 3 grandchildren.

## K. Fərəcova adına Elmi -Tədqiqat Pediatriya İnstitutu

## The Scientific - Investigation pediatric Institute named after K. Phereceva

*Pediatriya İnstitutu 1922 - ci ildən fəaliyyətə başlamış, Milyonçu Musa Nağıyev tərəf[illegible] inşa [illegible]. 1927 - ci ildə N.*



*Krupskaya adına "Ana və uşaq mühafizəsi" İnstitutu adı altında, 1990 - cı ildən isə K. Fərəcova adına Pediatriya İnstitutu adı ilə fəaliyyət göstərir.*

*Pediatric Institute has begun its activity since 1922 year it was built by milliner Musa Naghiyev. In 1927 year it has acted under the name "Mother and child safety" Institute named after N. Krupskaya, but since 1990 year it acts by the name Pediatric Institute K. Phereceva.*



## Travmotologiya və Ortopediya Klinik Xəstəxanası

## The Traumatology and Orthopedic Clinic Hospital



*1969 - cu ildə Həkimləri Təkmilləşdirmə İnstitutunun nəzdində Döş qəfəsi Cərrahiyyə Kilinikası adı altında fəaliyyətə başlamışdır. 1994 - cü ildən Travmotologiya və Ortopediya Kliniki Xəstəxana adı ilə fəaliyyətini davam etdirir.*

*Müxtəlif sahələrdə və müxtəlif vəzifələrdə 170 qadın çalışır.*

*In 1969 year it began to act under the name Thorax Operation Clinics attached to Doctor's Improving Institute. Since 1994 year it has been continuing it is activity by the name Traumatology and Orthopedic Clinic Hospital. There are trying 170 women in various and on different posts.*







Kamillik insan mənəviyyatının zənginliyidir. Mənəviyyatca zəngin olanlar, müdriklik dolu ömür yaşayanlar, öz xeyirxah əməlləri ilə neçə-neçə insana arxa-kömək duranlar, Tanrının ən sevdiyi bəndələridir. Ruhən Ulu Tanrımıza bağlı, yüksək intellektual səviyyəyə malik "İlin Pediatrı"adına layiq görülmüş, ali dərəcəli həkim, K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunun baş həkimi, Şahbazova Tamilla Heybət qızı da məhz belə insanlardandır. Tamilla Heybət qızı 1946-cı ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakıdakı 189 saylı məktəbdə almış, N.Nərimanov adına Azərbaycan Tibb İnstitunun "Pediatriya" fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə, K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunun "Qan Xəstəlikləri" şöbəsində həkim kimi başlamışdır. Sonralar şöbə müdiri, 1979-cu ildən - 1988-cu ilə qədər isə, "Pulmonologiya" şöbəsinin müdiri vəzifəsini icra etmişdir. Bir müddət sonra isə, Tamilla Şahbazova kollektivin iştirakı ilə, alternativ yolla K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunun baş həkimi vəzifəsinə seçilmişdir. Ömrünün neçə illərini səhiyyəyə həsr edən, Tamilla Heybət qızı uzun illər, (20 ilə yaxın) Ağır Cinayətlər üzrə Məhkəmədə xalq iclasçısı vəzifəsini icra etmiş, bu sahədə öz vəzifə borcunu layiqincə yerinə yetirmişdir. Tamilla xanım 1988 ci ildən K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunun baş həkimidir. Müqəddəs həkimlik peşəsini fəxrlə davam etdirən, insanların sağlamlığının fədakar keşikçilərindən olan Tamilla Şahbazova, sevdiyi peşəsiylə yanaşı elmlə də məşğul olur. Onun 54-dən çox elmi məqalələri respublika və ondan kənar bir neçə xarici ölkənin dövrü mətbuatında nəşr olunmuşdur. Öz peşə fəaliyyəti ilə bərabər, eyni zamanda fəal ictimaiyyətçidir.Yasamal rayon YAP Qadınlar Şurasının sədri, 2008-ci ildən isə Tamilla xanım Yasamal rayon Ağbirçəklər Şurasının sədri vəzifəsinə seçilib. I-II-III Qadınlar qurultayının, bir sıra respublika daxili elmi konfransların fəal iştirakçısıdır. Daxilən narahat, qəlbində Allah nurunu yaşadan bu müdrik və müqəddəs peşə sahibi bir xeyriyyəçi kimi də, dəfələrlə uşaq evlərinə, cəbhə zonalarındakı əsgərlərimizə qaçqın və köçkünlərimizə yardım təşkil edib. Tamilla Şahbazova vətənini, xalqını dərin məhəbbətlə sevir. Işlədiyi illər ərzində yüksək göstəricilərinə görə, 1995-ci, eyni zamanda 2006-cı illərdə Azərbaycan Səhiyyə Nazirliyinin, "Əhalinin sağlamlığının qorunması sahəsində göstərdiyi xidmətlərə görə," yenə həmin ildə Yasamal Rayon İcra Hakimiyyətinin fəxri-fərmanlarına, Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağ Mərkəzinin fəxri-fərmanına, bir sıra diplom və mükafatlara layiq görülmüşdür. 6 dəfə "Həcc" ziyarətində həkim və zəvvar kimi iştirak edən, bu ziyalı xanımın qəlbi həmişə Ulu Tanrımıza sıx tellərlə bağlıdır. Tamilla Heybət qızı müqəddəs ana və sevimli nənədir. Bir qızı, bir oğlu və 6 nəvəsi var.



**Şahbazova Tamilla**

The woman having high intellectual level, honoured with the name of A pediatre of a year", the doctor with higher degree, the head physician of Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova, Shahbazova Tamilla Heybet was born in Baku city in 1946. She got her secondary education at 189th school situated in Baku and graduated from the "Paediatrics" faculty of Azerbaijan Medical Institute named after N.Nerimanov. Her first work activities began as a doctor in "Blood diseases" department of Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova. Later she became the manager of the department, from 1979 till 1989 she worked as the manager of "Pulmonology" department. After a while, Mrs. Shahbazova was elected the head physician of Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova. Devoting much of her life to sanitary, Tamilla Shahbazova worked as the law assessor for a long time in Law-Court on Heavy Crimes. She is the head physician of Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova from 1988. Together with her lovely profession she is also engaged in science. More than 54 scientific articles of her were published in our Republic and in a few foreign countries. At the same time she is actively engaged in public life, so she is the member of Women Council of New Azerbaijan Party. From 2008 she was elected the chairwoman of Old Women Council of Yasamal district. She is the participant of I-II-III Women Congress and a few conferences held in the Republic. As a generous woman she repeatedly lent her helping hand to children's homes, to our soldiers in front-line and to our refugees and migrants. In 1995, also in 2006 she was honoured with " For services showing on the sphere saving peoples health" by Azerbaijan Republic Ministry of Sanitary and in the same year with honorary decrees of the Executive Authority of Yasamal district, at the same time she was rewarded with honorary decree of Azerbaijan Red Crescent Society of Karabakh Centre and a few diplomas and prizes. She has been in pilgrimage to Mecca as a doctor and a pilgrim for 6 times. She is married, has a son, a daughter and 6 grandchildren.







Günlər, aylar ötür. Yaş üstə yaş gəlir. Ömür səhifələrində qoyduğumuz izlər haçansa bizləri geriyə baxmağa səsləyir. Özümüz - özümüzə hesabat veririk. Yaddaşlarda qalan hansı əməllərimiz olub. Elm aləmində özünəməxsus xidmətləri olan, xeyirxah peşə sahibi K. Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunun baş elmi işçisi Mehtiyeva Afət Əlövsət qızı da, məhz belə insanlardandır. Afət Mehtiyeva 1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakı şəhəri Səbael rayon 6 saylı məktəbdə almış, Azərbaycan Tibb Universitetinin "Pediatriya" fakultəsini bitirmişdir. 1986- 1989 cu illər Moskva şəhərində nevrologiya üzrə elmi iş müdafiə edən Afət Əlövsət qızı, ilk əmək fəaliyyətinə də məhz 1989- cu ildə Qarayev adına xəstəxanada nevropotoloq kimi başlamışdır. Afət xanım 1993- cü ildən K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunda baş elmi işçi vəzifəsində çalışır. Peşəsinə qarşı məsuliyyətlə yanaşan bu xanım, xəstələrə qarşı da böyük qayğısı, peşəkarlığı ilə fərqlənir. Yüksək intellektual səviyyəyə malik olan bu xanımın elm sahəsində də özünəməxsus xidmətləri var. Afət Mehtiyeva 1 monoqrafiyanın 135 elmi məqalənin müəllifidir. Məqalələri respublika daxilində və ondan kənar bir sıra xarici ölkə mətbuatında nəşr olunub.O, bir neçə elmi konfransın iştirakçısıdır. Afət Əlövsət qızı ictimai işlərdə, institut daxili bütün tədbirlərdə və xeyriyyəçilik işlərində fəal iştirak edir. O,Yeni Azərbaycan Partiyasının üzvüdür. Ailəlidir. İki övladı var.



***Mehtiyeva Afət***

The head scientific worker of Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova, Mehtiyeva Afet Elovset was born in Baku city in 1961. She got her secondary education at 6th school of Sabail district and graduated from the "Paediatrics" faculty of Azerbaijan Medical University. In 1986-1989 she defended a scientific work on neurology in Moscow and in 1989 she began her first work activities as a neuropathologist in the hospital named after Garayev. She has been working as a head scientific worker in Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova since 1993. The woman having high intellectual level is also engaged in science. She is the author of a monograph and 135 scientific articles. Her articles have been published in our Republic and in a few foreign countries. Mrs.Mehtiyeva is the participant of a few scientific conferences; also she actively takes part in social works, in the meetings and charity works of the institute. She is the member of New Azerbaijan Party. Mrs. Mehtiyeva is married, has 2 children.



**İsayeva Zenfira**

"Mənim üçün bir ana minnətdarlığı, bir körpə təbəssümü ikidünyalıq sevincdir. Bu mənəvi sərvəti heç bir elmi ada, heç bir rütbəyə tay tuta bilmərəm." Şöhrət ordenli professor Adilə Namazovanın ürək döyüntüsü ilə söylədiyi bu sözlər, qəlbini vətən övladlarının sağlamlığı yolunda sevgi dolu bir atəşə çeviren, K. Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunun "Pulmonologiya" şöbəsinin müdiri İsayeva Zenfira Şükür qızına da aid etmək olar. İsayeva Zenfira Şükür qızı 1970 -ci ildə Cəlilabad rayonunda anadan olmuşdur. Orta təhsilini Cəlilabad şəhər Nizami adına 1 saylı məktəbdə almış, Azərbaycan Dövlət Tibb Universitetinin "Pediatriya" fakultəsini, 1995 - ci ildə isə internaturanı bitirmişdir. İlk əmək fəaliyyətinə hələ tələbəlik illərində ikən K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunda əvvəl tibb bacısı kimi başlamış, universiteti bitirdikdən sonra isə, 1996- cı ildə kişik elmi işçi kimi fəaliyyətini davam etdirmişdir. Zenfira Şükür qızının həkimlik və elmi fəaliyyəti də elə bu illərdən başlamışdır. O, 2004 - cü ildən "Pulmonologiya şöbəsinin müdiridir. 2004 cü ildə Zenfira xanım Səhiyyə Nazirliyinin xətti ilə Türkiyənin Ankara şəhərindəki Hacət Təpə Universitetində təcrübə mübadiləsi keçmiş, elmin sirlərinə dərindən yiyələnmişdir. Bir elm adamı kimi dəyərli elmi fikirləri ilə vaxtaşırı dövrü mətbuatda çıxış edən Zenfira xanım, "Mərkəzi sinir sisteminin perinatal - hipoksik zədələnməsi ilə doğulan südəmər yaşlı uşaqlarda kəskin pnevmaniyanın xüsusiyyətləri" mövzusunda dissertasiya müdafiə edib, tibb elmləri namizədi alimlik dərəcəsini almışdır. Zenfira xanımın həkim qəlbi daim sönməzdir. O, əsl vətənpərvər xanım kimi də cəmiyyətdə özünə layiqli yer tutub. YAP-ın üzvüdür. Elmi məqalələri Azərbaycandan kənar qardaş Türkiyə və qardaş Gürcüstan və Qırğızıstan respublikalarında da çap olunub. Ailəlidir. İki övladı var.

*****

The manager of "Pulmonology" department of Scientific Investigation Institute of Paediatric named after K.Ferejova, Isayeva Zenfira Shukur was born inJalilabad region in 1970. She got her secondary education at 1st school named after Nizami situated in Jalilabad region and graduated from the "Paediatrics" faculty of Azerbaijan Medical University, and in 1995 she graduated from the university. Her first work activities began in her studentship years at first as a nurse in Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova, after graduating the university in 1996 she continued her activities as a junior research worker. She is the manager of "Pulmonology" department from 2004. In 2004 Mrs. Isayeva passed probation in Turkey in Hacet Tepe University of Ankara. She has already defended and got the scientific degree candidate of medical science. Her thesis under the name "Sharp pnevmania features on the new burning babies the nerinational - hipoknik traumatized of central nervous system". The thesis has passed from the primary discussion, and has been presented to the Thesis Council in order to recieve the academic degree of Master of Medical Sciences. She is the member of Azerbaijan New Party. Her scientific articles have been published in our Republic, also in Turkey, Kyrgysztan and Georgia Republics. She is married, has 2 children.





Xəstəlik fiziki cəhətdən nə qədər mürəkkəbdirsə, xəstənin ruh aləmi də bir o qədər incə və zərifdir. Ona kömək etmək, qala kimi möhkəmləndirmək naminə, həkim ürəyinin atəşini, gözlərinin nurunu əsirgəməməlidir. Məşhur aftolmoloq alim, Zərifə Əliyevanın incə ruhlu müqəddəs həkim qəlbindən süzülən müdriklik dolu, dərin mənalı bu qiymətli kəlamları nə qədər də heyrətamizdir. Onun fikirlərinə rəğmən, beləcə qəlbinin atəşini, gözlərinin nurunu körpələrimizin sağlamlığına həsr edən, ali dərəcəli həkim, K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunun Dioqnoztik - İnfeksion şöbəsinin müdiri ali dərəcəli həkim Babayeva Nərgiz Nəriman qızı da məhz belə həkimlərimizdəndir. Nərgiz xanım 1962- ci ildə Bakıda anadan olmuşdur. Orta təhsilini Bakı şəhər Nəsimi rayon 211 saylı məktəbdə almış, məktəbi qızıl medalla başa vurmuşdur. Azərbaycan Dövlət Tibb Universitetinin "Pediatriya" fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. İlk əmək fəaliyyətinə 1989-cu ildə K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunun reanimasiya şöbəsində həkim reanimatoloq - neonatoloq kimi başlamışdır. 3 il bu vəzifədə çalışan Nərgiz xanım, 1992 - ci ildən Dioqnoztik İnfeksion şöbəsinin həkimi kimi fəaliyyətini davam etdirmiş, 2005 - ci ildən həmin şöbənin müdiridir. O, hər bir xəstənin sağlamlığının bərpası naminə əlindən gələn köməkliyi əsirgəmir. N.Babayeva Yasamal rayon YAP- ın üzvüdür. Peşəsi ilə yanaşı, ictimaiyyətçi kimi də rayon və xəstəxana daxili bütün tədbirlərdə iştirak edir. Gələcəyimiz olan körpələrimizin sağlamlığı onun üçün çox önəmlidir. O, hər bir xəstə körpənin başı üzərində bir ana qayğısı ilə həyəcan keçirir. Ömrünün 20 ilini səhiyyəyə həsr edən bu xanım Həkimləri Təkmilləşdirmə İnstitunda dəfələrlə kurslarda olub. İşdəki fəaliyyəti müdiriyyət tərəfindən həmişə yüksək qiymətləndirilib. Nərgiz xanım ailəlidir. Üç övladı var.



**Babayeva Nərgiz**

*****

If the disease is heavier, then the spirit world of the patient is more tender and finer. In order to help and to strengthen the patient like a rock, the doctor must not refuse the passionate of his heart and the light of his eyes. These are valuable words of the well-known ophthalmologist Zarifa Aliyeva.

One of such doctors, the manager of the Diagnosis-Infectious department of Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova, Babayeva Nergiz Neriman was born in Baku in 1962. She got her secondary education at 211th school in Nasimi district and finished the school with gold medal. She graduated from the "Paediatrics" faculty of Azerbaijan Medical University with honours diploma. Her first activities began in 1989 as an expert in resuscitation in reanimation department of Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova. Working here for 3 years, in 1992 she continued her activities as a doctor of the Diagnosis-Infectious department, and is the manager of that department from 2005. N.Babayeva is the member of New Azerbaijan Party of Yasamal district. As a person actively engaged in public life she takes part in all meetings held in the hospital and in the district. Devoting 20 years of her life to sanitary, she has repeatedly been in the courses of Doctors' Improvement Institute. Her activities at work have always been estimated highly by management. Mrs. Babayeva is married, has 3 children.



Kazımova Təranə

Xeyirxahliq insan övladına xas olan ən ali və müqəddəs hissdir. Bu müqəddəs hissin işığında öz gözəl əməlləri ilə, seçdiyi peşəsində özünəməxsus yer tutan, hörmət və nüfuz qazanan, K. Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunun həkimi Kazımova Təranə Yusif qızı 1958- ci ildə Mingəçevir şəhərində anadan olmuşdur. Orta təhsilini şəhər 3 saylı məktəbdə almış, Azərbaycan Tibb Universitetinin "Pediatriya" fakultəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1984 - cü ildə Mingəçevir Uşaq Poliklinikasında həkim - pediatr kimi başlamışdır. 1990 - cı ildən K. Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunun konsultativ poliklinika şöbəsində əvvəl lor həkim işləmiş, sonra şöbə müdiri vəzifələrində çalışmış, hazırda da bu vəzifəni icra edir. Təranə Yusif qızı nəinki öz vəzifə borcunu layiqincə yerinə yetirən, eyni zamanda neçə - neçə xəstənin həyatını təhlükədən qurtaran, dəyərli müalicələri ilə insanların köməyində duran fədakar həkim kimi, eyni zamanda şöbə müdiri kimi də, işinə və işçilərinə məsuliyyətlə yanaşır. Daim dövlətçiliyimizi dəstəkləyən, xalqını böyük məhəbbətlə sevən TəranəYusif qızı, YAP Qadınlar Şurasının və Sevil Qadınlar Cəmiyyətinin üzvüdür.Təranə, ictimai işlərdə və tədbirlərdə də fəal iştirak edir. Xeyriyyəçiliklə bağlı tədbirlərə isə xüsusi həvəslə qoşulur. Təranə xanım ailəlidir. İki övladı var.

*****

The doctor of Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova, Kazimova Tarana .Yusif was born in Mingechevir city in 1958. She got her secondary education at 3rd school and graduated from the "Paediatrics" faculty of Azerbaijan Medical University. Her first work activities began in 1984 as a paediatrician in Mingechevir Child Polyclinic. From 1990 she first worked as a doctor in consultative polyclinic of Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova, and then she was the manager of the department. Mrs. Kazimova is the member of NAP Women Council and Sevil Women Society. Also she actively takes part in social works and meetings. She joins willingly the meetings especially connected with charity. Mrs.Kazimova is married, has 2 children.







Körpələrimizin xöşbəxtliyi, analarımızın xöşbəxtliyidir. Hər bir məsum körpənin sağlamlığı, onların düçar olduğu xəstəliklərin müalicəsi və əlacı isə fədakar tibb işçilərimizin əlindədir. Uzun illər bu sahədə çalışan, körpələrimizin sağlamlığı naminə əlindən gələn köməkliyi əsirgəməyən zəhmətsevər xanımımız, Məmmədova Nazilə Rəsul qızı 1963- cü ildə Ucar rayonunda anadan olmuşdur. Orta təhsilini rayondakı İsmət Qayıbov adına şəhər 2 saylı məktəbdə almış, Bakıdakı 1 saylı Tibb Texnikumunun mama - qnekologiya şöbəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1983 - cü ildə K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunun "Yeni doğulanların patalogiyası" şöbəsində başlamışdır. Bir neçə illər burada çalışan Nazilə Rəsul qızı 1997 - ci ildən K. Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitunda baş tibb bacısı vəzifəsində çalışır. Neçə illər tibb sahəsindəki qazandığı təcrübəyə, bilik və bacarığına arxalanan Nazilə xanım, əsl tibb işçisi kimi öz işinin öhtəsindən layiqincə gəlir. Tabeliyində olan tibb bacılarına dəyərli məsləhətlər verir, onlara işlərinə məsuliyyətlə yanaşmağı tövsiyyə edir. Xəstələrə və xəstəliyə qarşı dəqiqlik və qayğı onun əsas iş prinsipidir. Nazilə Rəsul qızı peşəsini çox sevir. Vətənini, xalqını dərin məhəbbətlə sevən bu xanım, ictimai işlərdə, institut və rayon daxili tədbirlərdə də fəal iştirak edir. İşlədiyi illər ərzində Nazilə xanımın işi müdiriyyət tərəfindən həmişə müsbət qiymətləndirilib. Dəfələrlə təşəkkürnamələrə layiq görülüb. Nazilə Rəsul qızı ailəlidir. İki övladı var.



Məmmədova Nazilə

Mammadova Nazila Resul was born in Ujar region in 1963. She got her secondary education in Ujar at the 2nd school named after Ismet Qayibov, and finished the obstetrics-gynaecology department of the 1st Medical Technical School of Baku. Her first work activities began in 1983 in "Pathology of the new-born children" department of Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova. Working a few years there, from 1997 till today she is the head nurse in Scientific Investigation Institute of Paediatrics named after K.Ferejova. As a real medicine worker she relies on her knowledge and ability and manages decently all troubles in her work and always gives precious advice to the nurses being in her subordination. Mrs. Mammadova loves her profession very much. To be attentive and careful to the patients is her basic work principle. Also she actively takes part in social works, in the meetings held at the institute and in the district. During her work activities she has been estimated highly by management. She is married, has 2 children.



Zaman dövr edir. İllər gəlib, keçir. İnsan övladı Ulu Tanrının ona bəxş etdiyi ömrü yaşaya-yaşaya, taleyin min-bir sınağı ilə üz-üzə özünə məxsus bir iz salır bu dünyada.

Dəyərli bir ömür yaşayan, müqəddəs sənət sahibi Travmotologiya və Ortopediya Klinik Xəstəxanasının baş tibb bacısı Qocayeva Qənirə İslam qızı 1950-ci ildə Tovuz rayonunun Şamlıx kəndində anadan olmuşdur. Orta təhsilini Şamlıx kəndində almış, "müalicə-feldşer" ixtisası üzrə Bakı şəhər 1 saylı Tibb Məktəbini bitirmişdir. İlk əmək fəaliyyətinə 1972-ci ildə Ə. Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun Döş Qəfəsi Cərrahiyyə Klinikasının ürək şöbəsində tibb bacısı vəzifəsi ilə başlamışdır.( Sonralar klinikanın adı dəyişdirilmiş, Travmotologiya və Ortopediya klinikası adlandırılmışdır.)10 il bu şöbədə çalışan Qənirə İslam qızı 1982-ci ildə klinikanın reanimasiya şöbəsinə böyük tibb bacısı işləmiş, 1993-cü ildən klinikada baş tibb bacısı vəzifəsini icra edir.

Bütün varlığı ilə öz sənətinə bağlı olan Qənirə xanım həmişə işinə vicdanla və məsuliyyətlə yanaşmış, 37 illik tibbi fəaliyyətində işinə dəqiqliyi, xəstələrə olan xüsusi qayğısı ilə fərqlənmişdir. Hələ Həkimləri Təkmilləşdirmə İnstitutunda işləyərkən, institutun Qadınlar Şurasının üzvü olan Qənirə İslam qızı xəstəxanadaxili tədbirlərdə həmişə fəal iştirak edib. Qarabağ müharibəsinin o ağır günlərində də bu fədakar xanımın vətənpərvər tibb işçisi kimi xidmətləri çox olub. Böyük bir can yanğısı ilə neçə-neçə Vətən övladına, yaralı əsgərlərə həmkarları ilə birlikdə tibbi xidmət göstərib. Onun bu fədakarlığı dövrü mətbuatda da geniş işıqlandırılıb. Ürək şöbəsində işləyərkən Qənirə Qocayevanın işinə yüksək qiymət verilərək, mükafatlandırılıb. İşlədiyi illər ərzində də fəaliyyəti müdiriyyət tərəfindən razılıqla qarşılanıb.

*****

The head nurse of Traumatologic and Orthopaedic Clinical Hospital Gojayeva Ganira Islam was born in Shamlikh village of Tovuz region in 1950. She got her secondary education in Shamlikh village and finished the 1st Medical School of Baku on the speciality of "treatment-doctor's assistant". Her first work activities began in 1972 as a nurse in the "heart department" of Chest Surgery Clinic of Doctors' Improvement Institute named after A.Aliyev. (Later the name of the clinic was changed and was named Traumatologic and Orthopaedic Clinic). Working in this department for 10 years, in 1982 she became a nurse of the intensive care unit and she works as a head nurse of this clinic from 1993.

She devoted 37 years of her life to her medical activities. While working in Doctors' Improvement Institute she has been the member of Women Council of the institute and has always actively taken part in meetings of the clinic. During the hard times of Karabagh war she has served as a patriotic nurse for our people. While working in "heart department" her efforts have been estimated highly and she has been rewarded.





O kəs xoşbəxtdir ki, özündən sonra bir iz qoyur bu dünyada. Zəhmətsevərliyi, xeyirxahlığı ilə neçə-neçə insan qəlbində əbədi unudulmaz xoş hisslər, təəssüratlar oyadır. Ən önəmlisi isə elə bir sənət sahibi olur ki, daim insanlara xidmət edir. Onların sağlamlığı keşiyində dayanır.

Belə sənət sahiblərindən biri, Bakı şəhəri Səbail rayonundakı Travmotologiya və Ortopediya Klinik Xəstəxanasının böyük tibb bacısı Hümbətova İradə Sadatqulu qızı 1958-ci ildə Bakıda anadan olub. Orta təhsilini Lökbatan qəsəbəsi 233 saylı məktəbdə almış, "müalicə-feldşer" ixtisası üzrə Bakı şəhər 2 saylı Tibb Məktəbini bitirmişdir. İlk əmək fəaliyyətinə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun Döş Qəfəsi Cərrahiyyə Klinikasının "cərrahiyyə əməliyyatı" şöbəsində başlamışdır. Sonralar klinikanın adı dəyişdirilmiş Travmotologiya və Ortopediya Klinik Xəstəxanası adlandırılmış və İradə Hümbətova, 1992-ci ildən həmin klinikanın cərrahiyyə şöbəsində böyük tibb bacısı kimi fəaliyyətini davam etdirir. 30 illik tibbi fəaliyyətində, bütünlüklə ömrünü səhiyyəyə həsr edən İradə xanım, daim işinə vicdanla və məsuliyyətlə yanaşmışdır. Qarabağ müharibəsi illərində əsl vətənpərvər tibb işçisi kimi cəbhə xəttindən gətirilən ən ağır yaralılar üzərindəki əməliyyatlarda iştirak etmiş, onların sağalması, şəfa tapması naminə əlindən gələn köməkliyi əsirgəməmişdir. İradə xanım ictimai işlərdə də fəal iştirak edir. Hələ Həkimləri Təkmilləşdirmə İnstitutunda işləyərkən o, institutun Qadınlar Şurasının üzvü olmuş, qadınlarla bağlı bir sıra problemlərin həllində iştirak etmişdir. İradə Hümbətova tibbi biliyini daim artırmağa çalışır və bu məqsədlə də Səhiyyə Nazirliyinin xətti ilə tibb bacılarının təkmilləşdirmə kursunda olmuş, müasir tibb elminin yeniliklərinə yiyələnmişdir.



Hümbətova İradə

The head nurse of Traumatologic and Orthopaedic Clinical Hospital of Sabail district Humbatova Irada Sadatqulu was born in 1958 in Baku city. She got her secondary education in 233rd school of the settlement Lokbatan and finished the 2nd Medical School of Baku on the speciality "treatment-doctor's assistant". Her first work activities began in "surgical operation" department of Chest Surgery Clinic of Doctors' Improvement Institute named after A.Aliyev. Later the name of the clinic became Traumatologic and Orthopaedic Clinical Hospital and from 1992 Irada Humbatova continued her activities as a head nurse in surgery department of this clinic. Devoting 30 years of her life to her profession she has actively taken part in the surgical operations on injured men being brought from the front-line during the years of Karabagh war and she has done her best in curing them. While working in Doctors' Improvement Institute she has been the member of Women Council of the institute and has taken part in the solution of the problems of women. Mrs. Humbatova always tries to increase her medical knowledge, so for this purpose she has been in the improvement course of the nurses and has mastered the innovation of the modern medicine.

## Bakı şəhər Nəsimi Rayon 5 saylı şəhər Poliklinikası

## Policlinic number 5 of Baku sity Nesimi region



*It acts for long years. 95 doctors work in this polyclinic. 71 of them are women, 128*

*Uzun illərdir fəaliyyət göstərir. Poliklinikada 95 həkim çalışır. Onlardan 71 - qadındır. 128- tibb bacısı, 20 nəfər tibbi qeydiyyatçılar, 29 qadın tibb işçisidir.*





*nurse, 20 medical registries and 29 women medical employers.*





Həyat möcüzələrlə doludur. İlahi qüvvələrin əhatəsində insan övladı, bəzən ən ağır xətalardan qurtarır, bəzən ən ağır xəstəlikdən şəfa tapır. Zaman ötdükcə isə bütün bunların möcüzə olduğunu anlamağa başlayır. Bəs möcüzələr yaradan peşə sahibləri mövcuddurmu? Bəli, həkimlərimiz. Ulu Tanrımızın bəxş etdiyi İlahi verginin işığında insanlara sağlamlıq bəxş edən müqəddəs həkimlərimiz. Veysova Nelli Əhməd qızı da məhz belə həkimlərimizdəndir. O, 1954 cü ildə Şamaxı şəhərində anadan olmuşdur. Orta təhsilini Şamaxı şəhər 2 saylı məktəbdə almış, Azərbaycan Dövlət Tibb İnstitunun müalicə - profilaktika fakultəsini bitirmiş, Ə.Əfəndiyev adına xəstəxanada "terapiya" üzrə 1 illik internatura kursu keçmişdir. İlk əmək fəaliyyətinə Mərkəzi Şamaxı Rayon Xəstəxanasında terapevt vəzifəsi ilə başlayan N. Veysova,1982 ci ildən Bakının Nəsimi Rayon 5 saylı şəhər Poliklinikasında səhə terapevti, "terapiya" şöbəsinin müdiri vəzifələrində işləmiş, hazırda baş həkimin müalicə işləri üzrə müavini vəzifəsində çalışır. Bütün varlığı ilə sevdiyi peşəsinə dərindən bağlanan, işinə məsuliyyətlə yanaşan N. Veyisova əsl həkim fədakarlığı ilə vəzifə borcunu layiqincə yerinə yetirir. Öz dəqiq müalicələri ilə neçə - neçə insana sağlamlıq bəxş edən Nelli xanım, uzun illər qazandığı tibbi təcrübə sayəsində peşəkar həkim kimi tanınmış, özünə hörmət və nüfuz qazanmışdır. Nelli Əhməd qızının işi həmişə yüksək qiymətləndirilib. O, dəfələrlə Səhiyyə nazirliyi və rəhbərlik tərəfindən fəxri - fərmanlara layiq görülmüşdür. Tibbi fəaliyyəti ilə yanaşı ictimai işlərdə də fəal iştirak edən Nelli xanım YAP- ın üzvüdür. Ailəlidir. İki qız övladı var.



Veysova Nelli

The life is full of mysteries. Around the divine strength sometimes the man child avoids form the heavy mistakes, sometimes recovers from the hardest diseases. As the time passes he or she begins to think that all these are miracle. But do you think the people who make miracles are exist or not? Yes, they are our secret doctors who gift the health to the people under the light of divine tax giving by great God. Veysova Nelly Ehmed qizi is one of such doctors. Nelly khanum was born in Shamakhi in 1954 year. She got her secondary education at school; number 2 in Shamakhi and graduated from Azerbaijan State Medical Institute "Treatment - Prophylactic" faculty. Then Nelly khanum was training a master course according "therapy" at the hospital named after A.Efendiyev. She began her first work activity as a therapist at the Central Shamakhi region Hospital. And then from 1982 Nelly khanum continued her work at Nesimi region, city policlinic number 5. After it she worked in the post of chief in therapy department. At present Nelly Veysova is an assistant of head doctor of treatment work. Nelly khanum, is closing her lovely profession deeply with whole life approaching her work responsibly. She fulfils her duty as a real doctor's selflessness decently. As giving health number of people with her correct cures, Nelly kahnum was known as a professional doctor in order earned medical experiments for long years. And she earned herself firm and respect. The work of Nelly Veysova has always awarded highly by leadership. She was awarded with honor diploma for several times by Medical Ministry and administration. Adjoining her medical activity, at the same time Nelly khanum participates in public work actively. She is a member of new Azerbaijan party. Nelly kahnum is married and has 2 daughters.



**Abdullayeva İnarə**

